İxtisas: Sosial iş

Kafedra: Psixologiya, pedaqogika və sosial fənlər

Fənn: Sosial proqramlar və xidmətlər

Müəllim: Babayeva N. İ.

Mühazirə



Mühazirə 1. "Sosial proqramlar və xidmətlər" fənninə giriş. Sosial proqram anlayışı, sosial proqramların məqsədləri və fəaliyyət dairəsi

Plan:

1. **"Sosial proqramlar və xidmətlər" fənninə giriş. Fənnin predmeti haqqında ümumi məlumat.**
2. **Sosial proqram anlayışı, sosial proqramların məqsədləri, fəaliyyət dairəsi və əsas prinsipləri**
3. **Sosial proqramların maliyyələşdirilməsi və onlarda əks olunan məlumatlar**

1. "Sosial proqramlar və xidmətlər" fənninə giriş. Fənnin predmeti haqqında ümumi məlumat.

"Sosial proqramlar və xidmətlər" fənnində həm sosial xidmət həm də Azərbaycanda həyata keçirilən sosial proqramlar öyrənilir.

Fənnin sosial proqramlar bölməsində sosial proqram anlayışı, sosial proqramların məqsədləri və fəaliyyət dairəsi, sosial proqramların əsas prinsipləri, sosial proqramlarda əks olunan

məlumatlar, sosial proqramın strukturu, sosial proqramların maliyyələşdirilməsi, sosial proqramların icrası üçün fəaliyyət planlarında dəqiq və kompleks tədbirlər planının müsbət tərəfləri, sosial proqramları icra edən qurumlar və s. öyrənilir.

Azərbaycanda həyata keçirilən sosial proqramlar

- "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası
- "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı
- "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı
- "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf" Strategiyası
- "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi" konsepsiyası
- "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün" Dövlət Proqramı
- "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı" konsepsiyası
- "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün" Dövlət Proramı
- "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə" dövlət strategiyası
- "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" Dövlət Proqramı

Fənnin sosial xidmət hissəsində sosial xidmət anlayışı, sosial xidmətin mahiyyəti, sosial xidmətin formaları, növləri, çətin həyat şəraiti anlayışı, çətin həyat şəraitində şəxslərin (ailələrin) dairəsi, sosial xidmətin əsas prinsiplərinin məzmunu və s öyrənilir.

Sosial xidmətin subyektləri. Sosial xidmətin subyektlərinin anlayışı və dairəsinə - sosial xidmətə götürülmüş şəxs (ailə**),** sosial xidmət müəsissəsi, ahılllar, sosial işçi, sosial xidmətçi aid edilir.

Sosial xidmətin formaları və növləri

Sosial xidmətin formaları - evdə (səyyar) sosial xidmət, yarımstasionar (günərzi) sosial xidmət, stasionar sosial xidmət, sosial-məsləhət yardımı.

Sosial xidmətin növləri - sosial-məişət xidmətləri, tibbi-sosial xidmətlər, sosial-psixoloji xidmətlər, sosial-pedaqoji xidmətlər, sosial-iqtisadi xidmətlər, sosial-hüquqi xidmətlər, palliativ xidmətlər

2. Sosial proqram anlayışı, sosial proqramların məqsədləri, fəaliyyət dairəsi və əsas prinsipləri

Sosial proqram və ya sosial layihə nədir? Sosial proqram dövlət sosial sifarişi əsasında həyata keçirilən təhsil, elm, ətraf mühit, iqtisadi, sosial, səhiyyə, idman, turizm, mədəniyyət, incəsənət, hüquq və azadlıqlar, gender bərabərliyi, davamlı inkişaf, yerli özünüidarəetmə, icma səfərbərliyi və qanunla qadağan olunmayan digər sahələr üzrə həyata keçirilən təşkilati, texniki, iqtisadi və sosial tədbirlərin (fəaliyyətlərin) məcmusudur.

Sosial proqramın bu anlayışı baxımından aşağıdakı əlamətlərini fərqləndirmək olar:

1. Sosial proqram təşkilati, texniki, iqtisadi və sosial tədbirlər üzrə fəaliyyətlərdir.
2. Sosial proqram təhsil, elm, ətraf mühit, iqtisadi, sosial, səhiyyə, idman, turizm, mədəniyyət, incəsənət, hüquq və azadlıqlar, gender bərabərliyi, davamlı inkişaf, yerli özünüidarəetmə, icma səfərbərliyi və qanunla qadağan olunmayan digər sahələr üzrə fəaliyyətlərdir.
3. Sosial proqram dövlət sosial sifarişi əsasında həyata keçirilən fəaliyyətlərdir.

Sosial proqramların məqsədləri aşağıdakılardır:

- ✓ ehtiyacı olan sosial qrupların sosial tələbatının təmin olunması;
- ✓ dövlət və ya yerli özünüidarə orqanları tərəfindən əhatə olunmayan və ya tam əhatə olunmayan sosial əhəmiyyətli problemlərin həlli üçün QHT sektorundan əlavə insan və təşkilati resursların cəlb olunması;
- ✓ sosial problemlərin həllinə yönələn ictimai vəsaitlərin səmərəli istifadəsi məqsədi ilə qarşılıqlı nəzarət sisteminin təmin olunması;
- ✓ sosial problemlərin həllində ünvanlılığın təmin olunması;
- ✓ ölkənin vətəndaş cəmiyyəti qurumlarının və vətəndaşların dövlətin sosial siyasətinin həyata keçirilməsində bilavasitə iştirakının təmin olunması;
- ✓ sosial xidmətlər göstərilməsi sahəsində ixtisaslaşmış QHT təsisatlarının formalaşdırılması və inkişafı;
- ✓ qanuna zidd olmayan digər məqsədlərin həyata keçirilməsi.

Sosial proqramlar üzrə fəaliyyət dairəsinə aşağıdakılar aiddir:

- təhsil, maarifləndirmə, tərbiyə;
- ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadə;
- turizm, idman, aktiv, istirahət, asudə vaxtın səmərəli təşkili və intelektual əyləncə;
- mədəniyyət və incəsənət;
- sosial reablitasiya,qarşılıqlı yardım, sağlamlığın mühafizəsi;
- ictimai və siyasi fəallığın artırılması;
- yerli özünüidarə;
- vətəndaş və insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqi;
- davamlı iqtisadi inkişafın təmin olunması;
- sosial xidmət;
- təbii fəlakətlər, ekoloji, sənayə və digər xarakterli fəlakətlərin, kütləvi iğtişaşların nəticəsində zərər çəkmiş şəxslərə, qaçqınlara və məcburi köçkünlərə yardım göstərilməsi.
- qanuna zidd olmayan digər sosial təyinatlı fəaliyyətlər.

Sosial proqramların əsas prinsipləri aşağıdakılardır:

✓ sosial proqramların həyata keçirilməsi zamanı qanunvericiliyə əməl olunması, proseslərin şəffaflığı;

✓ ədalətlilik və ayrı-seçkiliyin yolverilməzliyi;

✓ maraqlı tərəflərin məlumatlara bərabər çıxışının təmin olunması;

✓ sosial proqramların əhalinin rifah halının yaxşılaşmasına yönəldilməsi;

✓ sosial tərəfdaşlıq və əməkdaşlığın təmin olunması;

✓ sosial xidmətlərin göstərilməsi sahəsində qeyri-kommersiya təyinatlı təsisatların təşəkkül tapması və inkişafı;

✓ sosial xidmətlərin və sifarişlərin yerinə yetirilməsi sahəsində rəqabət mühitinin formalaşması və keyfiyyətin yüksəldilməsi;

✓ dövlət və cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edən sosial proqramların davamlılığının və fasiləsizliyinin təmin edilməsi

3. Sosial proqramların maliyyələşdirilməsi və onlarda əks olunan məlumatlar

Sosial proqramların maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına həyata keçirilir:

➢ dövlət büdcəsinin vəsaitləri;

- büdcədənkənar (DSMF, Neft Fondu) və xüsusi dövlət fondları (Elm Fondu);
- dövlət sosial sifarişlərininin icraçısı tərəfindən cəlb edilən vəsaitlər;
- fiziki və hüquqi şəxslərin yardımları;
- yerli və xarici investisiya vəsaitləri;
- beynəlxalq humanitar təşkilatların vəsaitləri;
- beynəlxalq maliyyə institutlarının vəsaitləri;
- QHT-lərin vəsaitləri və qrantlar;
- qanunvericiliklə qadağan edilməyən digər vəsaitlər.

Dövlət sosial sifarişləri əsasında həyata keçirilən sosial proqramlarınmaliyyələşdirilməsində iştirak edən hüquqi şəxslər üçün qanunvericiliklə aşağıdakı stimullaşdırıcı tədbirlər nəzərdə tutula bilər:

- vergi güzəştləri;
- dövlət əmlakının icazəyə verilməsi zamanı aşağı əmsalların tətbiq edilməsi;
- dövlət əmlakından əvəzsiz istifadə imkanını yaradılması
- qanunvericilikdə nəzərdə tutulan digər güzəştlər.

Bir neçə dövlət orqanının və ya onların struktur vahidlərinin səlahiyyətlərinə aid olan sosial ehtiyaclar bir sosial proqram (layihə) şəklində təqdim edilə bilər.

Sosial proqramlarda (layihələrdə) aşağıdakı məlumatlar əksini tapmalıdır:

- ✓ problemin mövcud halı və ilkin vəziyyətinin elmi-iqtisadi təhlili baxımından əsaslandırılması;
- ✓ sosial proqramların (layihələrin) əsas vəzifələri, icra mərhələləri və müddətləri;
- ✓ sosial proqramların (layihələrin) həyata keçirilməsi mexanizmləri;
- ✓ sosial proqramların (layihələrin) icrası üzrə dövlət sosial sifarişçisinin adı;
- ✓ maliyyələşmə, maddi və əmək resusrları və onların mənbələri barədə məlumatlar;
- ✓ sosial proqramların (layihələrin) realizəsi halında əldə edilməsi gözlənən sosial-iqtisadi nəticələr və onların perspektivləri;
- ✓ sosial proqramların (layihələrin) icrasının gedişatı üzərində nəzarətə dair təkliflər;
- ✓ sosial proqramların (layihələrin) təsdiqi üçün zəruri ola biləcək digər sənədlər və ya materiallar.

Sosial proqramın strukturu

- Sosial proqramın tam adı
- Giriş
- Sosial proqramın məqsəd və hədəfləri
- Sosial proqramın əsas istiqamətləri
- Sosial proqramın maliyyə mənbələri
- Sosial proqramın icra müddəti;
- Gözlənilən nəticələr
- Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər

Sosial proqramların icrası üçün fəaliyyət planlarında dəqiq və kompleks tədbirlər planının müsbət tərəfləri hansılardır:

- ✓ Cavabdehlik dəqiq göstərilir
- ✓ İcra vaxt konkret qeyd edilir
- ✓ Görüləcək işlər dəqiq və aydın yazılır
- ✓ Həyata keçiriləcək fəaliyyətlərin məntiqi ardıcıllığı bilinir

Sosial proqramları icra edən qurumlar aşağıdakılardır

Sosial proqramlar aşağıdakı qurumlar tərəfindən həyata keçirilir

- Dövlət qurumları
- Beynəlxalq humanitar təşkilatlar
- Beynəlxalq maliyyə institutları
- Biznes qurumları
- İctimai təşkilatlar və s.

Azərbaycanda Sosial proqramları həyata keçirən dövlət qurumları

Nazirliklər və digər dövlət qurumları:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
- Səhiyyə Nazirliyi
- Təhsil Nazirliyi
- Gənclər və İdman Nazirliyi
- Ədliyyə Nazirliyi
- Daxili İşlər Nazirliyi
- Mədəniyyət və Turizm Nazirliyi
- Dövlət Sosial Müdafiə Fondu
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və s.

Azərbaycan Prezidenti yanında:

- QHT-lərə Dövlət Dəstəyi Şurası
- Gənclər Fondu
- KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondu
- Elmin İnkişafına Dövlət Dəstəyi Fondu
- Bilik Fondu
- ASAN Xidmət mərkəzləri və s.

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 2015
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007
- M. Davies. “Companion to Social Work”. Blackwell Publishers, 2007
- M. Daly və J. Lewis. “The concept of social care and the analysis of
- contemporary welfare states” British Journal of Sociology, 2000
- M. Kautto. “Investing in services in West European welfare states”. Journal of European Social Policy, 2002

http://www.anl.az/down/meqale/azerbaycan/2010/may/117515.htm

https://www.sosial.gov.az/SXA

EUROPEAN SOCIAL SERVICES". *scholar.googleusercontent.com*. Retrieved 2021-06-01

Mühazirə. Sosial xidmətin mahiyyəti və növləri

PLAN

1. Sosial xidmət
2. Sosial xidmətin məqsədi

3. Sosial xidmətin növləri
4. Sosial məişət xidmətləri

Sosial xidmət çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlərdir. Sosial xidmətlər çətin həyati situasiyalarda olan vətəndaşlara hərtərəfli dəstək və köməyi ehtiva etməlidir.

Sosial xidmətin məqsədi vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqdan, çətin həyat şəraitinin əmələ gəldiyi hallarda ehtiyacı olan şəxslərə sosial xidmətin göstərilməsini təmin etməkdən ibarətdir.

Sosial xidmətlər təyinatından asılı olaraq aşağıdakı növlərə bölünürlər:

- **Sosial-məişət xidmətləri** vətəndaşların məişətdə həyat fəaliyyətlərinin dəstəklənməsinə istiqamətlənir;
- **Sosial-tibbi xidmətlər** vətəndaşların sağlamlığının dəstəklənmə və yaxşılaşdırılmasına istiqamətlənir;
- **Sosial-psixoloji xidmətlər** vətəndaşların ictimai mühitə adaptasiyaları üçün psixoloji vəziyyətlərinin korreksiyasını nəzərdə tutur;
- **Sosial-pedaqoji xidmətlər** sosial xidmət klientlərinin davranışlarındakı çatışmazlıqların, şəxsi inkişaf anomaliyalarının profilaktikasına, onlarda pozitiv maraqların formalaşdırılmasına, uşaqların ailə tərbiyəsinə təsir göstərilməsinə istiqamətlənir;
- **Sosial-iqtisadi xidmətlər** həyat səviyyəsinin dəstəklənməsinə və yaxşılaşdırılmasına istiqamətlənir;
- **Sosial-hüquqi xidmətlər** vətəndaşların hüquqi statusunun dəstəklənməsi və ya dəyişilməsinə, onlara hüquqi yardım göstərilməsinə, qanuni hüquq və maraqlarının müdafiəsinə istiqamətlənir.

- **Palliativ xidmətlər** müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir.

Sosial məişət xidmətləri

- Bütün kateqoriya və qruplara aid əhaliyə qanunvericiliklə nəzərdə tutulan sosial-məişət təminatındakı imtiyazları əldə etməklə bağlı yardım etmək;

- Sosial xidmət müəssisələrinin klientləri reabilitasiya və müalicə, müalicə-əmək və təlim fəaliyyəti, mədəni və məişət xidmətlərinin təşkili ilə əlaqədar məkanla təmin etməsi;

- Sosial xidmət müəssisələrinin klientləriləri təsdiq edilmiş normativlərə müvafiq olaraq mebellə təmin etmək;

- Müəssisələrin klientlərə qida verməsi (dietik qida da daxil olmaqla);

- Təsdiq olunmuş normativlərə müvafiq olaraq yumşaq inventarla (geyim, ayaqqabı, yataq dəsti) təmin etmək;

- Sağlamlıq üzündən adi məişət prosedurlarını (yataqdan qalxmaq, yatağa uzanmaq, geyinmək və soyunmaq, yuyunmaq, qida qəbul etmək, su içmək, tualetdən istifadə etmək, evdə və açıq havada gəzmək, eynək və eşitmə aparatından istifadə etmək, dırnaqları kəsmək, dişləri təmizləmək, kişilərin saqqal və bığlarını qırxması) icra etməyə qadir olmayan stasionar müəssisə klientlərinə fərdi və gigiyenik xarakterli sosial-məişət xidmətlərinin göstərilməsi;

- Məktub yazılması və oxunulması ilə əlaqədar kömək göstərmək;

- Stasionar sosial xidmət müəssisələri klientlərini müalicə, tədris müəssisələrinə köçürülmə, mədəni tədbirlərdə iştirak etmə zərurəti zamanı nəqliyyatla təmin etmək (əgər sağlamlıq durumu ictimai nəqliyyatdan istifadə etməyə imkan vermirsə);

- Ritual xidmətlərin təşkili (ölmüş klientlərin qohumlarının olmaması və ya onların dəfnlə məşğul olmağı arzulamamaları);

- Evə qida məhsullarının, isti yeməklərin alınması və çatdırılması;

- Yemək hazırlamaqla təmin etmək;

- Evə ilkin zərurət üçün sənaye mallarının alınması və çatdırılması;

- Uşaqlara, digər əmək qabiliyyəti olmayan və ya ağır və uzunmüddətli xəstə olan ailə üzvlərinin qayğısına qalmaqla bağlı kömək;

- Əşyaların camaşırxanaya, kimyəvi təmizləməyə verilməsi və geri çatdırılması;

- Mərkəzi qızdırıcı və ya su təchizatı sistemi olmayan məkanlarda yaşayanlara yanacaq təminatı ilə bağlı yardım etmək, soba qalamaq, su çatdırmaq;

- Təşkilatda təmir və təmizliyin təmin edilməsi;

- Yaşayış haqqı və kommunal xidmət haqlarının ödənilməsini təmin etmək;

- Açıq havada, o cümlədən həkimə gedərkən müşaiyət;

- Stasionar sosial xidmət müəssisələrinin klientlərinə məxsus əşya və dəyərlərin qorunmasını təmin etmək;

- Stasionar müəssisələr istiqamətində yardım etmək.

Sosial-tibbi xidmətlər

- Sağlamlıq vəziyyətini nəzərə alan qulluq təminatı, o cümlədən sanitar gigiyenik xidmətlər göstərmək (masaj, çimdirmək, gigiyenik vannalar, dırnaqların kəsilməsi, saç daramaq);

- Tibbi-sosial ekspertizanın keçirilməsi ilə əlaqədar yardım;

- Sosial-tibbi xarakterli, o cümlədən, əlillərin reabilitasiyasının fərdi proqramlarına müvafiq reabilitasiya tədbirlərinin keçirilməsi və ya keçirilməsi ilə əlaqədar yardım;

- Stasionar sosial xidmət müəssisələrinin klientlərə ilkin tibbi-sanitar xidmətlər göstərməsi;

- Stasionar sosial xidmət müəssisələrinin klientlərinə tibbi müayinədən keçmənin təşkilində yardımı;

- Stasionar sosial xidmət müəssisələrinin klientlərinin müalicə-profilaktik müəssisələrinə qospitalizasiyası, həkimin rəyi üzrə sanator-kurort müalicələrinə istiqamətlənmələrinə yardım (o cümlədən imtiyazlı şərtlərlə);

- Ödənişsiz protez diş (bahalı metal və digər bahalı materialladan olan protezlər istisna olmaqla), protez-ortopedik və eşitmə-protez yardımlarının alınması ilə bağlı kömək;

- Texniki qulluq və reabilitasiya vasitələri ilə təmin etmə;

- Təsniflənmiş tibbi konsultasiyanın təşkili;

- Tibbi sosial adaptasiya və reabilitasiya ilə bağlı yardım;

- Stasionar sosial xidmət müəssisəsində ilkin tibbi baxış və ilkin sanitar işlərin keçirilməsi;

- Tibbi-sosial müayinənin təşkili;

- Sağlamlıqla əlaqədar prosedurların keçirilməsi;

- Fiziki tapşırıqların icrası zamanı yardım göstərmək;

- Müalicə-sağlamlıq tədbirlərinin təşkili;

- Müalicə-əmək fəaliyyətinin təşkili;

- Sosial-tibbi məsələlər üzrə konsultasiya (ailə planlaması, qida və məişət gigiyenası, artıq çəkidən, zərərli vədişlərdən xilas olma, psixoseksual inkişaf və s.);

- Yaş adaptasiyası məsələlərinin həlli üçün sanitar-maarifləndirici işlərin keçirilməsi;

- *Fövqəladə tibbi-psixoloji yardımın təşkili;*

- Vətəndaşların yaş xüsusiyyətlərinə və tibbi göstəricilərə əsasən "sağlamlıq qrupu" işinin formalaşdırılması və təşkili;

- Sosial-tibbi himayə;

- Həkim rəyi üzrə müəyyən edilən tibbi təyinatlı dərman vasitələri ilə təmin etməklə əlaqədar yardım;

- Zərərli vərdişlərin yaranmasının qarşısının alınması və onlardan xilas olmaq, ailə qurmağa hazırlıq və uşaq doğmaqla əlaqədar yeniyetmələrlə fərdi iş;

- Lazımi müalicə-profilaktik müəssisəyə müşaiyət etmə, qospitalizasiya ilə əlaqədar yardım;

- Xəstələrin qohumlarına onlara ümumi qulluq etmək üçün praktik vərdişlərin öyrədilməsi;

- Fövqəladə həkiməqədər yardımların göstərilməsi, həkimin evə çağırışı, xidmət edilən vətəndaşların səhiyyə orqanı müəssisələrinə müşaiyət edilməsi və qospitalizasiya hallarında onlara bu müəssisələrdə baş çəkmək;

- Ev şəraitində reabilitasiya tədbirlərinin keçirilməsi üçün ailə üzvlərinə tibbi-psixoloji və sosial-tibbi biliklərin əsaslarının öyrədilməsi;

- Sağlamlıq vəziyyətini müşahidə etmək (bədən temperaturunu, arterial təzyiqi ölçmək);

- Ehtiyaclı uşaqlara sağlamlıq xidmətlərinin göstərilməsi ilə bağlı yardım və onların sanator-kurort müalicəsinə istiqamətlənməsi;

- Məhdud fiziki və əqli imkanlı uşaqları olan, həmçinin evdə tərbiyə alan əlil uşaqlı ailələrə onların müalicəsi, özünəqulluq vərdişlərinin aşılanması, ünsiyyət, özünənəzarətin tərbiyə edilməsi ilə əlaqədar yardım;

- Eşitməyə qulluğa dair xidmətlər.

Sosial-psixoloji xidmətlər

- Sosial-psixoloji və psixoloji konsultasiya;

- Şəxsiyyətin psixoloji diaqnostikası və müayinəsi;

- Psixoloji korreksiya;

- Psixoterapevtik yardım;

- Sosial-psixoloji himayə;

- Psixoloji treyninqlər;

- Qarşılıqlı dəstək qruplarında, ünsiyyət klublarında məşğələlərin keçirilməsi;

- Fövqəladə psixoloji (həmçinin telefonla) və tibbi-psixoloji yardım;

- Psixoloji yardım göstərmək, həmçinin söhbət, ünsiyyət, dinləmə, fəaliyyətə motivasiya etmək.

Sosial-pedaqoji xidmətlər

- Sosial-pedaqoji konsultasiya;

- Şəxsiyyətin sosial-pedaqoji diaqnostikası və müayinəsi;

- Pedaqoji korreksiya;

- Animasiya xidmətləri (ekskursiyalar, teatrlara, sərgilərə, bədii yaradıcılıq konsertlərinə, bayramlara, yubileylərə və digər mədəni tədbirlərə getmək). Klientlərin maraqlarının formalaşması və inkişafı üçün klub və dərnək işlərinin təşkili və keçirilməsi.

- Əlillərin fiziki imkanlarına və əqli qabiliyyətlərinə uyğun təhsil almalarına yardım; uşaqların məktəbəqədər tərbiyəsi və xüsusi proqramlar üzrə təhsil alması üçün şəraitin yaradılması; xüsusi proqram üzrə məktəb təhsili almaq üçün şəraitin yaradılması; əlillərin orta ixtisas və peşə təhsili alması üçün şəaitin yaradılması;

- Sosial-əmək reabilitasiyası ilə əlaqədar xidmətlər: qalmış əmək imkanlarından istifadə üçün şəraitin yaradılması, müalicə-əmək fəaliyyətində iştirak; yüngül peşə vərdişlərinin öyrədilməsi, şəxsiyyətin və sosial statusun bərpası üzrə tədbirlərin keçirilməsi;

- Sosial-pedaqoji himayə;

- Sağlamlıq imkanları məhdud şəxslərə texniki reabilitasiya vasitələrindən istifadə qaydalarının öyədilməsi;

- Əlillərin peşəkar reabilitasiyası, onların peşəkar konsultasiyası;

- Əlillərin fiziki imkanlarına və əqli qabiliyyətlərinə müvafiq olaraq təhsil və (və ya) peşə əldə etməsinə yardım;

- Sağlamlıq imkanları məhdud uşaqların evdə təhsilinin təşkilinə yardım;

- Sosial xidmət müəssisələrinin məzunlarına evdarlığın əsaslarının öyrədilməsi (yemək hazırlamaq, tikiş və s.);

- Yeniyetmələrin peşə yönəlişliklərinin, peşə təhsillərinin, işə düzəlmələrinin təşkili;

- Əlil yeniyetmə və onların ailə üzvlərinin əməyinin təşkilinə yardım, xammalla təmin etmək və hazır məhsulların satışı;

- Əlil uşaqlara özünəxidmət, ictimai yerlərdə və məişətdə davranış, özünənəzarət vərdişlərinin, ünsiyyət vərdişlərinin və digər həyati bacarıqların öyrədilməsi;

- Məhdud imkanlı uşaqların, o cümlədən, əlil uşaqların valideynlərinə ev şəraitində olan reabilitasiyanın əsaslarının öyrədilməsi;

- Stasionar sosial xidmət müəssisələrində olan uşaq və yeniyetmələrlə məktəb proqramı üzrə təlimin təşkili;

- Eşitmə qüsurlu uşaqlar, onların valideynləri və digər maraqlanan şəxslərə jestlər dilinin öyrədilməsinin təşkili;

- Jestlərə tərcümə üzrə xidmətlər.

Sosial-iqtisadi xidmətlər

- Əhalinin bütün kateqoriya və qruplarına nəzədə tutulan imtiyaz, yardım, kompensasiya, aliment və digər ödənişləri almaqla əlaqədar yardım etmək;

- Maddi yardım etmək;

- Stasionar müəssisə xidmətlərinə təhsil, müalicə, konsultasiya yerlərinə getməklə əlaqədar kompensasiya;

- Klientlərin stasionar müəssisələrdən evə yazılarkən təsdiq edilmiş normativlərə müvafiq olaraq geyim, ayaqqabı, pul vəsaiti ilə təmin edilməsi;

- Protez, protez-ortopedik məhsullar, eşitmə aparatları, eynəklərin təminatı ilə əlaqədar yardım;

- Məşğulluq məsələlərinin həlli ilə əlaqədar yardım; işədüzəltmə, hazırlıq kuslarına istiqamətləndirmə; müvəqqəti (mövsümi) iş axtarışı, qısaldılmış iş günlü iş, evdə iş;

- Vətəndaşlara və ailələrinə özlərini təmin etmək məsələri ilə bağlı konsultasiya vermək;

Sosial-hüquqi xidmətlər

- Sənədlərin tərtib edilməsi ilə bağlı yardm;

- Təqaüd təminatı ilə əlaqədar məsələlər üzrə kömək göstərmək;

- Qanunla müəyyən edilmiş imtiyazların, sosial yardımların alınması ilə əlaqədar hüquqi yardım göstərmək;

- Məhkəmədə hüquq və maraqların nümayəndəliyin təmin edilməsi;

- Qanunvericiliklə müəyyən edilmiş qaydada ödənişsiz vəkil xidməti əldə etməyə yardım;

- Ailədə uşaq, qadın, ahıl və əlillər üzərində psixi və fiziki zorakılıqda təqsirli bilinənləri cinayət məsuliyyətinə cəlb etməyə yardım;

- Tibbi sığorta əldə etməyə yardım;

- Sosial-hüquqi məsələlər üzrə konsultasiya (mülki, məişət, ailə, əmək, təqaüd, cinayi qanunvericilik, uşaq, qadın, ata, əlil və s. hüquqlar);

- Uşaq himayəyə götürərkən və ya valideyn himayəsindən məhrum uşaqların digər formada olan ailə tərbiyəsi zamanı vətəndaşlara sənədlərin tərtibatı ilə əlaqədar hüquqi yardım göstərmək;

- İşə düzəlmək, pasport və digər hüquqi əhəmiyyətli sənədlər almaq üçün hüquqi yardım göstərmək;

- Etibarnamə üzrə təqaüd, yardım və digər sosial müavinətlər almaq;

- Uşaq və yeniyetmələri (zərurət olduqda) sosial xidmət müəssisələrinə (müvəqqəti qalmaq üçün) yönəltmək üçün sənədlərin tərtibatı ilə əlaqədar yardım göstərmək;

- Uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi ilə əlaqədar (onların tərbiyəsi və qayğılarına qalmaqla bağlı, o cümlədən həyat və sağlamlıqlarına təhlükə yaradan hallala bağlı) hüquqi yardım göstərmək.

Sosial xidmətlər klientlərə:

- Stasionar müəssisələrdə (müəssisələrin stasionar şöbələrində);
- Yarımstasionar müəssisələrdə (müəssisələrin gündüz və ya gecə növbəli şöbələrində);
- Qeyri-stasionar müəssisələrdə (müəssisələrin qeyri-stasionar şöbələrində);
- Evdə;
- Kompleks müəssisələrdə (müəssisələrin kompleks xarakterli şöbələrində);
- Digər müəssisələrdə göstərilir.

Klientlərə konkret sosial xidmət göstərmək haqqında qərar qəbulu zamanı klientin maraqları, sağlamlıq vəziyyəti, onun olduğu çətin həyati situasiyanın xüsusiyyətləri, fərdi reabilitasiya proqramının məzmunu (əgər belə proqram varsa), bu xidmətlərə olan tələbin qısamüddətliliyi və ya uzunmüddətliliyi, klientin maddi imkanları və digər obyektiv amillər nəzərə alınır.

Sosial işçinin xidmətə götürülmüş şəxsə xidməti

Qaydalara əsasən, sosial işçi xidmətə götürülmüş şəxsə fərdi plana uyğun olaraq xidmət göstərir. Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara xidmət göstərilməsi vaxtı reabilitasiya xidmətinin növündən asılı olaraq tərəflərin razılığı ilə müəyyən edilir. Evdə sosial xidmət ödənişsiz, qismən ödənişli və tam ödənişli əsaslarla göstərilir. Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) evlərdə (səyyar) sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir. Qismən ödənişli və tam ödənişli sosial xidmət tərəflər arasında bağlanmış sosial xidmət müqaviləsi əsasında həyata keçirilir.

Sosial xidmətə ehtiyacı olan şəxs əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamağa başladıqda, tənha ahıllar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar dövlət sosial xidmət müəssisələrinə yerləşdirildikdə, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası başa çatdıqda və s. hallarda sosial xidmətlərin göstərilməsi dayandırılır.

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 20155
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007
- M. Davies. “Companion to Social Work”. Blackwell Publishers, 2007
- M. Daly və J. Lewis. “The concept of social care and the analysis of
- contemporary welfare states” British Journal of Sociology, 2000
- M. Kautto. “Investing in services in West European welfare states”. Journal of European Social Policy, 2002



Sosial xidmətin subyektləri anlayışı

PLAN

1. **Sosial xidmətin subyektləri anlayışı**
2. **Sosial işçi**
3. **Sosial xidmətçi**

Sosial xidmət inistitutunda subyektlər qismində sosial xidmətə götürülmüş şəxs (ailə), sosial xidmət müəsissəsi, ahılllar, sosial işçi və sosial xidmətçi çıxış edir. Sosial xidmətə götürülmüş şəxs (ailə**)** dedikdə, çətin həyat şəraiti ilə əlaqədar sosial xidmət göstərilən şəxs (ailə) başa düşülür.

Qanunvericilik sosial xidmət göstərən subyektlər kimi sosial xidmətə tələbatın müəyyənləşdirilməsi və sosial xidmət göstərilməsi sahəsində fəaliyyət göstərən dövlət hakimiyyəti orqanlarını, hüquqi və fiziki şəxsləri göstərməklə bu kateqoriyaya sosial xidmət müəssisəsini, sosial işçini və sosial xidmətçini daxil edir.

Sosial işçi sosial xidmətə olan tələbatı qiymətləndirən və müəyyən edən, eləcə də sosial xidmət göstərən şəxsdir. O, ali təhsilli olmaqla uyğun peşə hazırlığına malik olmalıdır.

Sosial xidmət göstərilməsi ilə əlaqədar sosial işçilərin hüquqları aşağıdakılardır:

- işə qəbul olunarkən işəgötürənin vəsaiti hesabına tibbi müayinədən keçmək;
- peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məqsədi ilə işəgötürənin vəsaiti hesabına əlavə təhsil almaq;
- xidməti vəzifəsini yerinə yetirərkən işəgötürənin vəsaiti hesabına zəruri geyim və avadanlıqlarla təmin olunmaq, nəqliyyat xərcləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə pul kompensasiyası almaq;
- zəruri məlumatların əldə edilməsi üçün sorğu göndərmək;
- qanunda nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

Sosial xidmət göstərilməsi ilə əlaqədar sosial işçilərin vəzifələri aşağıdakılardır:

- sosial xidmətin göstərilməsini, sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsini həyata keçirmək, sosial xidmətə götürülən şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi planı tərtib etmək;
- çətin həyat şəraitində olan şəxsin (ailənin) problemlərinin həllinə və aradan qaldırılmasına yardım etmək;
- sosial xidmətlərin göstərilməsi sahəsində qanunvericiliyə və peşə etikası normalarına əməl etmək;
- sosial xidmətlərin sosial xidmətin göstərilməsi üzrə standartların tələblərinə uyğun olmasını təmin etmək;
- xidmət göstərdikləri şəxslərin hüquqlarına, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

- sosial xidmət göstərdikləri şəxslərə münasibətdə ayrı-seçkiliyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara yol verməmək;
- sosial xidmət göstərdikləri şəxsləri hüquqi, sosial, tibbi və digər təminatlar, qanunda təsbit olunmuş sosial müdafiə tədbirləri və çətin həyat şəraitində olan şəxsin (ailənin) rifahının yaxşılaşdırması üçün mövcud olan imkanlar haqqında məlumatlandırmaq;
- öz vəzifələrini yerinə yetirərkən əldə etdikləri məlumatların konfidensiallığını təmin etmək;
- qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

Sosial xidmətçi isə sosial-məişət xidmətləri göstərən şəxsdir və ümumi orta təhsili olan şəxslər də bu qisimdə fəaliyyətə cəlb oluna bilərlər. Sosial işçilərə aid olan hüquqlar (zəruri məlumatların əldə edilməsi üçün sorğu göndərmək hüququ istisna olmaqla) və vəzifələr (sosial xidmətin göstərilməsini, sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsini həyata keçirmək, sosial xidmətə götürülən şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi planı tərtib etmək və sosial xidmət göstərdikləri şəxsləri hüquqi, sosial, tibbi və digər təminatlar, qanunda təsbit olunmuş sosial müdafiə tədbirləri və çətin həyat şəraitində olan şəxsin (ailənin) rifahının yaxşılaşdırması üçün mövcud olan imkanlar haqqında məlumatlandırmaq vəzifələri istisna olmaqla) sosial xidmətçiyə də şamil edilir.

Sosial xidmət müəssisələri dedikdə mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq əhaliyə sosial xidmət göstərilməsi sahəsində fəaliyyəti həyata keçirən hüquqi şəxslər başa düşülür. Sosial xidmət müəssisələrinə aşağıdakıları aid edir:

- ahıllar, əlillər və sağlamlıq imkanları məhdud olan uşaqlar üçün internat evləri
- psixonevroloji internat
- insan alveri qurbanları üçün yardım mərkəzləri
- penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün sosial adaptasiya mərkəzləri
- günərzi qayğı mərkəzləri. G**ünərzi qayğı mərkəzi** – uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan şəxslərə (ailələrə) sosial xidmətlərin göstərilməsi məqsədilə yaradılan yarımstasionar sosial xidmət mərkəzidir.
- yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri

– sosial-psixoloji yardım mərkəzləri, müvəqqəti sığınacaqlar.

Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti sığınacaq – uşaqların çətin həyat şəraitinin aradan qaldırlması, onların sosial statuslarının bərpası istiqamətində valideynlərinə və digər qanuni nümayəndələrinə sosial və psixoloji yardımın göstərilməsi və uşaqların bioloji ailələrinə qaytarılmasının təmin edilməsi məqsədilə fəaliyyət göstərən stasionar sosial xidmət müəssisəsidir. **Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün sosial-psixoloji yardım mərkəzi** isə sosial təhlükəli vəziyyətdə olan uşaqların sosial reabilitasiyasını həyata keçirən yarımstasionar xidmət müəssisəsidir.

– peşə istiqamətləndirmə mərkəzləri

– palliativ yardım mərkəzləri

– hospislər

– icma əsaslı reabilitasiya mərkəzləri. İcma əsaslı reabilitasiya mərkəzi- yerli icmanın dövlət, qeyri-hökumət təşkilatları və biznes strukturlarının birgə səyləri ilə uşaqların abilitasiyası və reabilitasiyası xidmətlərinin təşkili, uşaqların və ailələrinin cəmiyyətə inteqrasiyasına köməklik göstərilməsi məqsədilə yaradılmış yarımstasionar sosial xidmət mərkəzidir.

– himayədar ailə. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 142-ci məddəsinə əsasən Himayədar ailə uşağı tərbiyə olunmaq üçün vermə müqaviləsi əsasında yaranır. Bu müqavilə qəyyumluq və himayə orqanı ilə himayədar valideynlər (uşağı tərbiyə olunmaq üçün ailəyə götürmək arzusunda olan ər-arvad və ya ayrı-ayrı vətəndaşlar) arasında bağlanır. Himayədar ailəyə tərbiyə üçün yalnız yetkinlik yaşına çatmamış uşaq və yalnız müqavilə ilə nəzərdə tutulmuş müddətə verilə bilər.

Kiçik qrup evləri. Kiçik qrup evlərinin hüquqi rejimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 13 avqust tarixli 207 nömrəli qərarı ilə **təsdiq edilmiş"Ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi" ilə müəyyən edilir.**

Ailə tipli kiçik qrup evi milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, ictimai mənşəyindən asılı olmayaraq Azərbaycan Respublikasında yaşayan 0-18 yaş arası sağlamlıq imkanları məhdud olan uşaqlar da daxil olmaqla, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş ailə əsaslı qayğı xidməti göstərən sosial xidmət müəssisəsidir. Qrup evi 8 nəfərdən az 12 nəfərdən çox olmayaraq uşaqların yaşaması üçün yaradılmış qeyri-kommersiya

xarakterli hüquqi şəxsdir, müvafiq xəzinə hesabı, möhürü, ştampı və digər rekvizitləri vardır. Qrup evlərinin hüquqi ünvanı onların hər birinin nizamnaməsində göstərilir. Qrup evi yalnız sağlamlıq imkanları məhdud olan uşaqlar üçün yaradıldığı halda, burada saxlanılan uşaqların sayı 6 nəfərdən çox olmamalıdır.

Qrup evi qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının dövlət büdcəsinin, dövlət və qeyri-dövlət fondlarının vəsaiti, ödənişli əsaslarla sosial xidmət göstərilməsindən əldə olunan vəsaitlər, hüquqi və fiziki şəxslərin ianələri, qrantlar, eləcə də qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Qrup evi çətin həyat şəraitində olan və öz bioloji ailəsinə qaytarılması, həmçinin yaxın müddətdə övladlığa, qəyyumluğa və himayədar ailəyə verilməsi mümkün olmayan uşaqların ailə mühitinə yaxın şəraitdə saxlanması, təhsilini, təlim-tərbiyəsini, maddi-məişət şəraitini və hüquqlarının müdafiəsini təmin etmək məqsədi ilə təşkil olunur. Qrup evində uşaqlara bu Nizamnamənin 2.2.4-cü yarımbəndində nəzərdə tutulmuş fərdi plana uyğun olaraq, müntəzəm monitorinq olunan ailə tipli yaşayış mühitində qayğı göstərilir.

Qrup evinin vəzifələri aşağıdakılardır:

- qanunvericiliyə uyğun olaraq uşaqları qəbul etmək;
- uşaq üçün ailə mühitini və münasib yaşayış şəraitini təmin etmək;
- keyfiyyətli sosial xidmətin həyata keçirilməsini təmin etmək;
- sosial işçi tərəfindən sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yerini və müddətini özündə əks etdirən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə hesabat və uşağa sosial xidmət göstərilməsinə dair fərdi plan hazırlamaq;
- yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla, uşaqların intellektual, mənəvi, fiziki, psixi və sosial inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətini formalaşdırmaq;
- uşağı müstəqil həyata və cəmiyyətə inteqrasiya olunması üçün hazırlamaq;
- öz bacarığı və istedadı ilə fərqlənən uşaqların musiqi məktəblərinə, uşaq və gənclər yaradıcılıq evlərinə göndərilməsini, habelə olimpiadalarda, festivallarda, müsabiqələrdə, yarışlarda, sərgilərdə iştirakını təmin etmək;

– uşaqlarda cəmiyyətə və qanunlara hörmət ruhunda davranışın formalaşdırılmasına yönəldilmiş proqram və metodikaların həyata keçirilməsi üzrə tədbirlər görmək;

– inkişafında qüsurlar olan və təhsildə çətinlik çəkən uşaqlara sosial-psixoloji və pedaqoji yardım göstərmək;

– uşaqların hüquq və mənafelərinin müdafiəsini təmin etmək.

Qrup evi aşağıdakı hüquqlara malikdir:

– dövlət və yerli özünüidarəetmə orqanları və digər təşkilatlar tərəfindən himayəsində olan uşaqlarla bağlı qərarlar qəbul edilərkən, zəruri məlumatları tələb etmək;

– dövlət və yerli özünüidarəetmə orqanları ilə və digər təşkilatlarla əməkdaşlıq etmək, uşaqların hüquqlarının müdafiəsi, övladlığa götürülməsi, onlara qayğının və sosial xidmətin göstərilməsi ilə bağlı müvafiq orqanlara, idarə və müəssisələrə təkliflər vermək;

– uşaqların təhsil almaları üçün qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil müəssisələrinə müraciət etmək;

– uşaqlara mütəmadi tibbi xidmət göstərilməsinin təmin edilməsi məqsədi ilə onların qrup evinin yerləşdiyi ərazi üzrə poliklinikalarda qeydiyyata götürülməsi üçün müraciət etmək.

Qrup evinin fəaliyyətinə rəhbərlik və onun idarə olunması ali təhsilə və müvafiq sahədə (pedaqoji, psixoloji, sosioloji, tibbi və sosial iş) 5 ildən az olmayan iş stajına malik olan və həmin müəssisənin mülkiyyət növünə uyğun olaraq, təsisçinin təyin etdiyi direktor tərəfindən həyata keçirilir. Qrup evində xidmətlər sosial işçilər və sosial xidmətçilər tərəfindən həyata keçirilir.

Qrup evində uşağın təminatları

✓ Qrup evində uşaqlar üçün mümkün qədər ailə mühitinə yaxın təhlükəsiz və psixoloji cəhətdən sabit, uşağın şəxsi keyfiyyətlərini, inkişafındakı xüsusiyyətləri, ehtiyac və maraqlarını qarşılayan şərait yaradılır.

✓ Uşaq irqinə, dini mənsubiyyətinə, sosial statusuna, şəxsi keyfiyyətlərinə, bacarığına görə zorakılıq, təhqir, diskriminasiya və təqiblərdən qorunur. Uşağın təhlükəsizliyini təmin etmək üçün onun hüquqlarının pozulması hallarının qeydiyyatı aparılır, onların səbəbləri təhlil olunur və gələcəkdə belə halların qarşısının alınması üsullarına dair qərar qəbul edilir.

✓ Uşağın təhlükəsiz və əxlaq normalarına uyğun davranış bacarığı formalaşdırılır, uşaqla qrup evinin heyəti arasında qarşılıqlı etibar, inam və hörmət əsasında mühitin yaradılması təmin olunur.

✓ Uşağın fərdi ehtiyacları, pəhriz qida qəbul etmək tələbatı qiymətləndirildikdən sonra yaş həddi və səhhəti nəzərə alınmaqla, o, müvafiq qida ilə təmin edilir.

✓ Uşağın geyimlə təminatı yaşı və cinsi, mümkün dərəcədə zövqü nəzərə alınmaqla, mövsümə uyğun həyata keçirilir.

✓ Qrup evində bayram, istirahət və əlamətdar günlərin, tətillərin səmərəli təşkil olunması təmin edilir.

✓ Qrup evində olan uşağa təyin olunmuş pensiya, aliment, müavinət və digər sosial ödənişlər uşağın adına açılmış bank hesabına köçürülür. Uşağa ayrılmış maliyyə vəsaitlərindən yalnız yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları ilə razılaşdırılmaqla, uşağın qanuni maraqları üçün və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq istifadə edilir.

✓ Uşağın formalaşmış şəxsiyyət kimi inkişaf etməsi ilə bağlı məsələlər həll edilərkən, onun öz fikirlərini, münasibətini sərbəst şəkildə ifadə etməsi üçün şərait yaradılır.

✓ Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada uşağa dövlət tibb müəssisələrində profilaktik peyvəndlər edilir.

✓ Uşağın təhsil hüququ təmin edilir. Uşaqlara özünüifadə ehtiyaclarını qarşılamaq, uşaqlar üçün nəzərdə tutulmuş digər təhsil müəssisələrinə getmək imkanı yaradılır, o cümlədən uşaqların asudə vaxtlarının səmərəli və mənalı təşkili məqsədi ilə əyləncəli oyunlar, müsabiqələr, yaradıcı insanlarla görüşlər keçirilir, onların ayda 2 dəfədən az olmayaraq ekskursiyalara, gəzintilərə, konsert və teatr tamaşalarına, muzeylərə aparılması təşkil edilir, ölkənin flora və faunasının, tarixinin və mədəniyyət abidələrinin öyrənilməsi təmin olunur.

✓ Uşaqlar yaşlarına uyğun bədii ədəbiyyatla, dərs vəsaitləri, informasiya texnologiyaları, təhsili üçün zəruri olan və inkişafını, bacarıq və maraqlarını qarşılayan digər məktəb ləvazimatları ilə təmin olunurlar.

✓ Uşaqlara ev tapşırıqlarının yerinə yetirilməsində köməklik göstərilir.

✓ Uşaq yaşına və potensialına görə peşə seçimi və istiqamətləri barədə məlumatlandırılır.

✓ Uşağa, gələcəkdə müstəqilliyini təmin etmək məqsədi ilə gündəlik həyatında lazımlı olan öz büdcəsinin idarə edilməsi, alış-veriş etmək və evdarlıqla bağlı digər bacarıqları mənimsəmək

üçün şərait yaradılır. Uşağın mümkün qədər müstəqil olması üçün qrup evindəki məişət xidmətləri təşviq edilir və eyni zamanda onda özünəxidmət bacarığı inkişaf etdirilir.

✓ İlk peşə-ixtisas, orta ixtisas və ya ali təhsil müəssisələrində təhsilini davam etdirən uşaqlar təhsil müddəti bitənədək, qrup evində qalmaq hüququna malikdirlər.

Uşağın yaşayış yerinə və mühitinə dair tələblər

- Qrup evində uşağın təhlükəsizliyi, rahatlığı və ehtiyacları təmin edilməlidir.
- Qrup evində uşaq sanitariya-gigiyena, yanğından mühafizə və digər tələblərə cavab verən təhlükəsiz şəraitdə yaşamalıdır.
- Qrup evi uşaq üçün müvafiq mebellə və avadanlıqla təchiz edilməlidir.
- Qrup evi sanitariya norma və qaydalarına cavab verməlidir.
- Qrup evi işıqlı, mövsümdən asılı olaraq isti və ya sərin olmalı, müvafiq ventilyasiyası, kommunal və kommunikasiya sistemi qənaətbəxş vəziyyətdə olmalıdır. Yataq otaqlarında təbii işığı və ventilyasiyanı təmin edən pəncərələr olmalıdır.
- Qrup evində kanalizasiya sisteminə qoşulmuş sanitar qovşağı, isti və soyuq su, duş və ya vanna ilə təchiz edilmiş ən azı 1 vanna otağı olmalıdır.
- Müxtəlif cinsdən olan 7 yaşdan yuxarı uşaqlar ayrı-ayrı yataq otaqlarında yerləşdirilməlidirlər.
- Uşağın qonaq və ya yemək otağında, yaxud digər otağa keçmək üçün içindən keçidi olan hər hansı bir otaqda yatmasına yol verilməməlidir.
- İki uşağın eyni çarpayıda yatması, həmçinin 6 yaşından kiçik olan uşağın ikimərtəbəli çarpayının üst qatında yatması yolverilməzdir.
- Hər bir uşaq yaxşı vəziyyətdə olan, ən azı həftədə bir dəfə və ya lazım olduqda yuyulan təmiz yataq dəsti ilə təmin edilməlidir.
- Bir yataq otağında 4 uşaqdan çox uşaq yerləşdirilə bilməz.
- Şəxsi gigiyena məqsədi ilə uşaq lazımi gigiyenik vasitələrlə təmin edilməlidir.
- Qrup evində uşaqların fiziki təhlükəsizliyinə xələl gətirə bilən təhlükə mənbəyi olmamalı, bütövlükdə qrup evinin ətrafında olan həyət, zirzəmi, mansarda (girişi açıq olan), çardaq, qaraj, üstü açıq quyu (hovuz) və ya anbar ərazisi uşaqların təhlükəsizliyi baxımından yoxlanılmalıdır.

- Qrup evində dərman preparatları, təmizlik ləvazimatları, həşəratlara qarşı vasitələr, yanacaq məhsulları, silah, bıçaq və digər təhlükəli alətlər uşaqların əli çatmayan yerlərdə və ya bağlı dolab və qutularda saxlanılmalıdır.
- Qrup evində radiator, buxar, odun sobası, qaz və elektrik qızdırıcıları kimi istilik cihazlarından istifadə edilərkən, təhlükəsizlik qaydalarına riayət olunması təmin edilməlidir.
- Qrup evində məişət tullantıları müvafiq örtülü qablarda saxlanmalı, uşaqların sağlamlığı üçün təhlükə və xoşagəlməz təsir yaratmamalıdır.
- Qrup evində tezalışan materialların istilik avadanlıqlarına yaxın yerləşdirilməsi və nasaz vəziyyətdə olan naqillərin və elektrik məişət avadanlıqlarının istifadəsi yolverilməzdir.
- Qrup evində hər bir telefon aparatının yanında yanğından mühafizə xidmətinin və təcili tibbi yardım stansiyasının nömrələri, qəza hallarında əlaqə saxlamaq üçün məsul şəxsin, həmçinin yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanının nümayəndəsinin əlaqə nömrələri olmalıdır.
- Qrup evinə məxsus həyətyanı sahədə dağıntı, zibil və üzəri örtülməmiş çənlər olmamalıdır.
- Qrup evində uşağın nəqliyyatın hərəkətinin gur olduğu küçəyə, magistral yola, su sahəsi və ya digər təhlükəli ərazilərə getməsinin qarşısını alan hasar, yaxud maneə olmalıdır.
- Qrup evində uşaqlar oyuncaqlarla təmin edilməlidirlər. Həmin oyuncaqlar uşaqlara təhlükə yaratmamalı, onların yaşı və inkişafı baxımından məqsədəuyğun olmalıdır.
- Qrup evində yaşayanların adambaşına düşən sahə mövcud qanunvericiliyə uyğun uçot normasından az olmamalıdır.

Uşaqların şəxsi işlərinin açılması və saxlanılması şərtləri

Kiçik qrup evlərinə qəbul edilən uşaqlar üçün aşağıdakı sənədlər əsasında şəxsi iş açılır:

– doğum haqqında şəhadətnamənin əsli və ya həmin sənəd olmadıqda, uşağın yaşının təyin edilməsi barədə tibbi komissiyanın rəyi;

– sağlamlıq vəziyyəti haqqında tibbi arayış;

– uşağın təhsili ilə bağlı sənədlər (məktəbyaşlı uşaqlar üçün);

– uşağın yaxın qohumlarının yaşayış yeri barədə arayışlar;

– valideynləri (onları əvəz edən şəxslər) barədə sənədlər (valideynlərin ölümü haqqında şəhadətnamənin surəti, valideynlik hüququndan məhrum edilmə barədə məhkəmənin qətnaməsi,

valideynlərin xəstəliyi, uşaqlarını tərbiyə edə bilməməsi və ya axtarışda olması barədə sənədlər, valideynlərin olmadığını sübut edən digər sənədlər);

– valideynlərin ölümündən sonra qalmış əmlakın siyahısı və onların saxlanılmasına cavabdehlik daşıyan şəxslər haqqında məlumat;

– uşağın qeydiyyatda olduğu mənzil barədə sənədlər;

– pensiya vəsiqəsi (pensiya alan uşaqlar üçün), aliment ayrılması barədə məhkəmənin qərarı.

Qrup evini tərk edən uşaqların şəxsi işlərinin surəti qrup evində ən azı 5 il müddətində saxlanıldıqdan sonra Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinə təhvil verilməlidir.

Uşağın qrup evini müvəqqəti və daimi tərk etməsi qaydası

- Uşağı qısa müddətə müvəqqəti (mütəmadi qaydada hər həftə sonlarında və ya bayram günlərində) öz ailəsinə götürmək istəyən yaxın qohumlarından biri (bundan sonra - şəxs) qrup evinin direktoruna ərizə ilə müraciət edir. Ərizədə uşağın və onu öz ailəsinə müvəqqəti götürmək istəyən şəxsin adı, soyadı və yaşı, şəxsin ünvanı, əlaqə telefonları və ailəyə götürülməsinin dəqiq müddəti göstərilməlidir. Qrup evinin direktoru ərizəni aldıqdan sonra 3 iş günü müddətində yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanını məlumatlandıraraq, şəxsin uşağı qısa müddətə öz ailəsinə götürməsinə və ya uşağın şəxsə verilməsindən imtina olunmasına dair əsaslandırılmış qərar qəbul edir.
- Uşağın qısa müddətə şəxsə verilməsinə dair qərarda aşağıdakılar qeyd olunur:

– uşağın adı, soyadı və yaşı;

– şəxsin adı, soyadı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, qeydiyyat və faktiki yaşayış ünvanı;

– uşağın qrup evini tərk etmə vaxtı;

– əsaslandırma və səbəblər.

- Şəxs uşağın lazımi qayğı və yaşayış şəraiti ilə təmin edilməsinə görə məsuliyyət daşıyır.
- Uşaq qrup evini aşağıdakı hallarda daimi tərk edir:

– qayğı başa çatdıqdan sonra valideynlərinə (onları əvəz edən şəxslərə) qaytarıldıqda;

– övladlığa götürüldükdə;

– 18 yaşı tamam olduqda (18 yaşından yuxarı olan şəxs təhsilini bitirənədək) və ya əmək fəaliyyətinə başladıqda;

– nikaha daxil olduqda.

- Uşaq qrup evini daimi tərk edərkən aşağıdakı sənədlərlə təmin edilir:

– doğum haqqında şəhadətnamə və ya şəxsiyyət vəsiqəsi (15 yaşına çatmış uşaqlar üçün);

– sağlamlıq haqqında tibbi arayış;

– müddəti göstərilməklə, qrup evində olması barədə arayış;

– təhsil haqqında dövlət sənədləri (məktəbyaşlı uşaqlar üçün);

– valideynləri və yaxın qohumları barədə məlumat;

– pensiya vəsiqəsi (pensiya alan uşaqlar üçün), aliment ayrılması barədə məhkəmənin qərarı, mənzil sahəsinə, müəyyən əmlaka malik olması barədə sənədlər.

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 20155
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007
- M. Davies. “Companion to Social Work”. Blackwell Publishers, 2007
- M. Daly və J. Lewis. “The concept of social care and the analysis of
- contemporary welfare states” British Journal of Sociology, 2000
- M. Kautto. “Investing in services in West European welfare states”. Journal of European Social Policy, 2002

Uşaqlara sosial xidmət

PLAN

1. **Uşaqlara sosial xidmət göstərilməsi**
2. **Valideyn himayəsindən məhrum olmuş uşaqların aşkar olunması**
3. **Himayədar ailə**

Bu gün Azərbaycanda sağlamlıq imkanları məhdud, eləcə də sosial təhlükəli vəziyyətdə olan uşaqların sayı kifayət qədərdir. Qeyd edək ki, bu uşaqların hər birinin xüsusi diqqət və

qayğıya ehtiyacı olduğundan ixtisaslaşmış qeyri-hökumət təşkilatları tərəfindən dövlətin maliyyə dəstəyi sayəsində həmin azyaşlılara sosial xidmət göstərilir.

Uşaqlara sosial xidmət göstərilməsi. Uşaqlar və ailələr üzrə sosial xidmətin məqsədi. Əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi. Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi tədbirləri. Övladlığa götürmə. Uşaqları tərbiyəyə götürən ailələrin seçilməsi və qiymətləndirilməsi. Uşaqlara sosial xidmət göstərilməsinin mərhələləri: valideyn himayəsindən məhrum olmuş uşaqların aşkar olunması və onların qeydiyyatının aparılması; valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi formasının seçilməsi.Uşaqların yerləşdirilməsinin formaları: övladlığa götürmə; uşaqlar üzərində qəyyumluq və himayə; uşaqların tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində yerləşdirilməsi; uşaqların himayədar ailəyə verilməsi. Valideyn himayəsindən məhrum olmuş uşaqların aşkar olunması. Himayədar ailə anlayışı. Qəyyumluqda olan uşaqların malik olduğu hüquqlar.

Məlumat üçün bildirək ki, ölkə prezidentinin "Sağlamlıq imkanları məhdud uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara sosial xidmət göstərilməsi sahəsində əlavə tədbirlər haqqında" 9 yanvar 2013-cü il tarixli sərəncamının icrası məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sağlamlıq imkanları məhdud uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara sosial xidmətlərin göstərilməsi üçün 15 prioritet istiqamət üzrə dövlət sifarişlərinin yerinə yetirilməsi üçün müsabiqələr elan edilib.

Müsabiqələrdə qalib gələn 19 ixtisaslaşmış təşkilat tərəfindən Bakı şəhəri daxil olmaqla ölkənin 30 şəhər və rayonunda layihələrin icrasına başlanılıb. Layihələr təxminən 2400 nəfər uşağı və onların ailələrini əhatə edir.

Onu da vurğulayaq ki, qeyd olunan işlər çərçivəsində ilkin olaraq 3 rayonda sağlamlıq imkanları məhdud uşaqlar üçün icma əsaslı sosial reabilitasiya mərkəzləri, 8 rayonda sözügedən şəxslərin sosial xidmətlərə çıxışının təmin olunması üçün günərzi qayğı mərkəzləri, 1 şəhərdə isə məişət zorakılığına məruz qalmış uşaqların reabilitasiyası üçün mərkəz yaradılıb. Həmçinin 10 rayonda belə uşaqlar üçün səyyar reabilitasiya xidmətlərinə, 4 rayonda 7 yaşadək uşaqlar arasında əlilliyin qarşısının alınması və sağlamlıq imkanları məhdud uşaqların Portec metodikası üzrə sosial reabilitasiyası işlərinə başlanmışdır.

Bununla yanaşı, yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası, baxımsız və hüquq pozuntusu törədən uşaqların, həmçinin sosial təhlükəli vəziyyətdə olan kimsəsiz uşaqların sosial reabilitasiyası, penitensiar və xüsusi müəssisələrdən azad olunmuş uşaqların sosial adaptasiyası məqsədilə də müvafiq layihələr icra olunur.

Bundan başqa, bir müddət əvvəl ölkə prezidentinin sözügedən sərəncamının icrası məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bakı Uşaq Bərpa Mərkəzində Sağlamlıq imkanları məhdud uşaqların psixo-fiziki inkişafına dəstək Mərkəzi açılıb. Mərkəzin yaradılmasında məqsəd sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların reabilitasiyasının yalnız tibbi üsullarla (dərman, aparat fizioterapiyası və s. istifadə edilməklə) deyil, qabaqcıl

dünya təcrübəsinə istinad olunmaqla, sosial tibbi model üzrə, yəni aktiv fizioterapiya, ergoterapiya, oyun terapiyası, art terapiya kimi müasir metodlar əsasında aparmaqdır. Çünki təcrübə göstərir ki, belə reabilitasiya metodları həmin uşaqlar üçün ənənəvi reabilitasiyadan daha effektiv təsir göstərir.

Mərkəzdə Daun sindromu, autizm sindromu, nitq problemi, diqqət və yaddaş pozğunluğu, Pil, əzələ bağlılığı və tonusu olan uşaqların müəyyən olunması üçün müasir metodlarla diaqnozlar qoyulacaq, hər bir uşağa fərdi inkişaf planı üzrə xidmətlər göstəriləcək.Bəs görəsən, Azərbaycanda bu sahədə fəaliyyətdə olan QHT-lər öz işlərini nə dərəcədə düzgün qurublar? Göstərilən sosial xidmətin səmərəsi varmı?

Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova deyib ki, təmsil etdiyi QHT dövlətin maliyyə dəstəyi əsasında sosial təhlükəli vəziyyətdə olan uşaqlara xidmət edir. Onun sözlərinə görə, bununla bağlı Sumqayıt şəhərində İcma Əsaslı Reabilitasiya Xidmətləri Mərkəzi də fəaliyyət göstərir: "Bu mərkəz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə 5 iyun 2013-cü il tarixindən "Məişət zorakılığına məruz qalmış uşaqların reabilitasiyası" layihəsi çərçivəsində işə başlayıb. Layihə çərçivəsində xidmətlər Sumqayıt şəhəri, eləcə də ətraf qəsəbə və kəndlərdə (Corat, Saray, Novxanı) yaşayan, məişət zorakılığına məruz qalmış 3-18 yaşlı uşaqları və onların ailələrini əhatə edir. Ötən müddət ərzində layihə haqqında aidiyyəti dövlət qurumları, yerli icmaların nümayəndələri və kütləvi informasiya vasitələri məlumatlandırılıb, məişət zorakılığına məruz qalmış uşaqların ailələrinə səfərlər edilib. Cari ilin iyun-sentyabr ayları ərzində 80 nəfər uşaq xidmətə götürülüb və onlara ehtiyaclarına uyğun olaraq kompleks sosial xidmətlər göstərilir. Xidmətlərə psixodiaqnostika, fərdi psixoterapiya, psixoloji konsultasiya, sosial-psixoloji treninq, qrup terapiyaları, ailələrin sosial problemlərinin həlli ilə bağlı aidiyyəti orqanlara müraciətin təşkili, hüquqi məsləhətlərin verilməsi, uşaqlar və onların ailələri üçün təlimlər daxildir. Layihə çərçivəsində fəaliyyət yerli icra hakimiyyəti, bələdiyyə, polis, sosial müdafiə, təhsil, səhiyyə, gənclər və idman qurumları ilə birgə əməkdaşlıq şəraitində həyata keçirilir".

Problemlərə kompleks yanaşılır. Həmsöhbətimiz öz açıqlamasında onu da vurğulayıb ki, layihə çərçivəsində reablitasiya tədbirləri kompleks şəkildə həyata keçirilir: "Bizim xidmət göstərdiyimiz sahə elə bir sahədir ki, burada sosial cəhətdən təhlükəli vəziyyətdə olan uşaqlarla iş aparılır. Amma hər kəsə məlumdur ki, əgər uşaqlar hansısa zorakılıqla, təhlükəli vəziyyətlə üzləşirlərsə, bu problemin kökündə ailə dayanır. Yəni, yaranan zorakılığın mənbəyi ailədir. Buna görə də biz uşaqlarla paralel olaraq ailələri ilə iş aparırıq. Çünki kompleks tədbirlər daha effektli nəticələrin əldə olunmasına imkan yaradır".
Ekspert həmçinin deyib ki, Azərbaycanda "Sosial xidmət haqqında" qanunun qüvvəyə minməsi ölkədə sosial xidmətə ehtiyacı olan insanların keyfiyyətli xidmətlə təmin edilməsinə şərait yaradacaq: "Bu qanunun qüvvədə olması o deməkdir ki, sosial xidmət davamlı həyata keçiriləcək. Məsələn, biz indiyədək müxtəlif donor təşkilatlarının maliyyə dəstəyi ilə sosial xidmətlər həyata keçirmişik. Amma bu xidmətlər hansısa layihənin tərkib hissəsi olaraq həyata keçirildiyindən layihə yekunlaşanda göstərilən xidmət də dayandırılıb. Yəni, bizim beynəlxalq donorların dəstəyi

ilə reallaşdırdığımız layihələr adətən bir və ya iki illik olub. İndi gördüyümüz işin əsas əhəmiyyəti ondan ibarətdir ki, bu istiqamətdə işlər davamlı həyata keçiriləcək. Sözsüz ki, sosial xidmətin davamlı olaraq həyata keçirilməsi layihələrin effektivliyini daha da artırır. Bu baxımdan hesab edirəm ki, indi həyata keçirdiyimiz layihə xeyli səmərəli olacaq".

Məsələyə münasibət bildirən Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə qəzetimizə açıqlamasında təəssüflə sosial xidmət layihələrinə qoşula bilmədiklərini deyib. Onun sözlərinə görə, adıçəkilən təşkilat Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin keçirdiyi tenderin qalibi ola bilmədiyindən layihələrdə iştirak etmir: "Bizim tenderdə uduzmağımıza əsas səbəb kimi mövcud standartlarımızın olmaması göstərilir. Amma çoxlarına da məlumdur ki, biz 7 ilə yaxındır bəzi donor təşkilatların dəstəyi ilə sosial xidmətlər göstəririk. Məsələn, hazırda bizim təşkilatın nəzdində günərzi qayğı mərkəzi, eləcə də küçə uşaqlarının və ağır şəraitdə yaşayan digər uşaqların reablitasiya mərkəzi fəaliyyətdədir. Yəni, bizim günərzi mərkəzi artıq 7 ilə yaxındır ki, fəaliyyət göstərir. Lakin bütün bunlara baxmayaraq adıçəkilən nazirlik bizim təşkilatın sosial xidmət göstərmək üçün mövcud standartlarının olmadığını bildirib. Bir sözlə, ölkədə sosial xidmətlərin həyata keçirilməsi istiqamətində işlər genişləndirilməsinə baxmayaraq bu işdə bəzi QHT-lər kənarda qalıb".

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 2015
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007

https://www.google.com/search?q=U%C5%9EAQLARA+SOS%C4%B0AL+X%C4%B0DM%C6%8FT&oq=U%C5%9EAQLARA+SOS%C4%B0AL+X%C4%B0DM%C6%8FT&aqs=chrome..69i57j0i512.594845j0j4&sourceid=chrome&ie=UTF-8

https://sputnik.az/20220823/saglamligi-mehdud-olan-usaqlar-ucun-sosial-xidmet-muessisesinde-catismazliqlar-askarlanib-445307033.html

Ahıllara sosial xidmət

PLAN

Ahıllara sosial xidmətin göstərilməsi

Ahıl vətəndaşların müdafiəsi

Ahıl vətəndaşlara dövlət qayğısı

Ahılların sosial xidmətə olan tələbatının ödənilməsinə yönəldilən, onlara mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq sosial xidmət müəssisələrində və evdə qulluq, iaşənin təşkili, tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların məcmusundan ibarət olan fəaliyyət.

Ahıl insanların sosial müdafiəsinin gücləndirilməsi, onların layiqli həyat şəraitinin təmin edilməsi Azərbaycan dövlətinin daim diqqətindədir. Həyata keçirilən uğurlu siyasət də məhz ölkə vətəndaşlarının rifahı üçündür. Müstəqil Azərbaycanda ahıllarla bağlı dövlət siyasəti ümummilli lider Heydər Əliyevin ahıl insanların sosial müdafiəsinin təmin olunmasına göstərdiyi xüsusi diqqət və qayğı əsasında formalaşıb.

Ahıllara dövlət qayğısının ildən-ilə artması ilə müşahidə olunan bu siyasət Azərbaycan prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Dövlət başçısının müvafiq fərman və sərəncamlarına, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə qəbul edilmiş Dövlət Proqramına və digər sənədlərə əsasən ahılların maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Bu gün Azərbaycan ahıllarla bağlı milli və ümumbəşəri dəyərlərə söykənən dövlət siyasətinin həyata keçirildiyi, ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, onlara dövlət qayğısının artırılması üçün məqsədyönlü işlərin aparıldığı, ahıllara hörmət və ehtiramla yanaşılan ölkələrdən biridir. Dövlət başçısının müvafiq fərman və sərəncamlarına, təsdiq etdiyi müvafiq dövlət proqramlarıına, digər sənədlərə əsasən ölkəmizdə ahılların maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Bu gün Azərbaycanda ahıl vətəndaşlara dövlət qayğısının artırılması, onların sosial müdafiəsinin, habelə pensiya təminatının gücləndirilməsi sahəsində ardıcıl addımlar atılır. Belə addımlardan biri də bu ilin əvvəlində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Müharibə və əmək əlilləri üçün pansionatında (Qocalar evi) aparılan əsaslı təmir və geniş yenidənqurma işləridir.

Pansionatda tənha ahıllar üçün qabaqcıl beynəlxalq təcrübədən irəli gələn meyarlar əsasında yaşayış şəraiti mövcuddur (azerbaijan-news.az). Ahılların keyfiyyətli tibbi-sosial xidmətlə təmin olunmaları, onların asudə vaxtlarını mənalı keçirmələri üçün lazımi şərait yaradılıb. Burada kitabxana və idman zalları, ahılların özünüməşğulluğu, müəyyən əl işləri hazırlamaları üçün emalatxanalar sakinlərin istifadəsindədir. Burada yaşayan insanların tibbi problemlərinin həlli daim nəzarətdə saxlanılır, onların sağlamlığına xüsusi diqqət göstərilir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən yaşı 70-ə çatmış şəxs ahıl hesab olunur.

"Ahıllara sosial xidmət haqqında" qanun ahılların sosial müdafiəsinin əsas istiqamətlərindən biri olan sosial xidmət sahəsində yaranan münasibətləri tənzimləyir, onlar üçün sosial, iqtisadi və hüquqi təminatlar müəyyən edir. Ahıllara sosial xidmət - ahılların sosial xidmətə olan tələbatının ödənilməsinə yönəldilən, onlara mülkiyyət növündən və təşkilati-hüququ formasından asılı olmayaraq sosial xidmət müəssisələrində və evdə qulluq, iaşənin təşkili, tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların məcmusundan ibarət olan fəaliyyətdir. Ahıllara sosial xidmət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının

Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Ahıllara sosial xidmət (bundan sonra sosial xidmət) göstərilməsi dövlət təminatı, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquqlarına və azadlıqlarına əməl edilməsi prinsipləri əsasında həyata keçirilir.

Ahıllar müvafiq icra hakimiyyəti orqanı, dövlət, bələdiyyə və özəl sosial xidmət müəssisələri, habelə sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olan şəxslər tərəfindən həyata keçirilən sosial xidmətlərdən istifadə edə bilərlər.

Qanunda göstərilir ki, sosial xidmət müvafiq icra hakimiyyəti orqanı və ya dövlət sosial xidmət müəssisəsi tərəfindən ahılların razılığı və müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilir. Bələdiyyə və ya özəl sosial xidmət müəssisələri, habelə sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olan şəxslər tərəfindən sosial xidmət onlarla ahıllar arasından bağlanmış müqavilə əsasında göstərilir.

Sosial xidmət sahəsində ahıllar aşağıdakı hüquqlara malikdirlər: müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada sosial xidmət müəssisəsini və sosial xidmət növünü seçmək; sosial xidmət müəssisələrində sanitariya-gigiyena tələblərinə cavab verən şəraitlə təmin olunmaq; sosial xidmət müəssisələrinin işçiləri tərəfindən şərəf və ləyaqətlərinə hörmət olunmasını və humanist münasibət bəslənilməsini tələb etmək; daxili qaydalar pozulmamaq şərtilə dini ayinlərin icra edilməsi üçün ayrıca yerlə təmin olunmaq; sosial xidmət göstərilməsi qaydaları, habelə öz hüquq və vəzifələri barədə məlumat almaq; kütləvi informasiya vasitələri ilə təmin olunmaq; sosial xidmət göstərilməsinə razılıq vermək və ya sosial xidmətdən imtina etmək; sosial xidmət göstərilən zaman şəxsi xarakterli məlumatların məxfi saxlanılmasını tələb etmək.

Azərbaycan Respublikasında son illər vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sosial müdafiə sisteminin, o cümlədən ahılların sosial müdafiəsinin təkmilləşdirilməsi, bu sahədə mövcud olan qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində müəyyən işlər görülüb. Həyata keçirilən tədbirlərin əhəmiyyətini, ahılların hüquqlarının qorunması və sosial müdafiəsinin aktuallığını dünya ölkələrinin bir çoxunda olduğu kimi, ölkəmizdə də müşahidə olunan əhalinin qocalma prosesi şərtləndirir. Əhalinin yaş strukturunda uşaqların xüsusi çəkisinin aşağı düşməsi və ahıl vətəndaşların sayının əmək qabiliyyətli yaşda olanlara nisbətən daha intensiv artması əmək bazarının formalaşmasında, həmçinin, sosial təminat sisteminin səmərəli işləməsində bir sıra çətinliklərə gətirib çıxarır.

Keçid dövrünün sosial-iqtisadi problemləri ilə bağlı kənd yerlərindən şəhərlərə və ölkədən kənara miqrasiya da respublikada əhalinin qocalma prosesinə böyük təsir göstərib. Təsadüfi deyil ki, kəndlərdə ahılların və xüsusilə də ahıl qadınların xüsusi çəkisi artıb.

Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalı nəticəsində bir milyonadək insan qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub. Bu kontingent arasında ən çətin vəziyyətdə olan məhz ahıl şəxslərdir.

Bunları nəzərə alaraq və eyni zamanda, BMT-nin Baş Məclisinin əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planından (Madrid, 12 aprel 2002-ci il) irəli gələn vəzifələrə əsaslanaraq, "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" hazırlanıb.

Dövlət Proqramının əsas məqsədi ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə nail olmaqdır.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

- ahıl vətəndaşların sosial təminatı sahəsində hüquqlarının artırılması və onların həyata keçirilməsi;
- ahıl vətəndaşların cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında iştirakının təmin edilməsi;
- ahıl vətəndaşların sosial-mədəni tələblərinin ödənilməsi sahəsində tədbirlərin həyata keçirilməsi;
- ahıl vətəndaşların sağlamlığının qorunması;
- qocalma probleminin həll olunması istiqamətində dövlət, vətəndaş cəmiyyəti və özəl sektorun sıx əməkdaşlığının təmin edilməsi;
- ahıl vətəndaşların sosial müdafiəsinin təminatının elmi əsaslarının möhkəmləndirilməsi.

Dövlət Proqramı ölkənin mövcud iqtisadi, sosial və demoqrafik proseslərinin inkişaf xüsusiyyətlərini nəzərə alaraq, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilmiş tədbirləri müəyyən edir.

Sonda onu da qeyd edək ki, hazırda Azərbaycanda 451 min nəfər ahıl şəxs yaşayır. Azərbaycanda əhalinin çox az hissəsini - 4,6 faizini ahıllar təşkil edir. Ölkədə 244 nəfər ahıl dövlət təminatında yaşayır. 12 min nəfərdən çox ahıla evlərində sosial xidmət göstərilir.

ƏDƏBİYYAT

- Rəcəbli H.Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi. Dərslik.MBM 2012, 408s
- Əliyev M.N. Sosial xidmət sosial təminat hüququnun institutu kimi: dərs vəsaiti. Bakı: Təknur, 2008
- Əliyev M.N.İnsanın yaşamaq hüququ və onun sosial müdafiə sahəsində təminatlar. Bakı: Təknur, 2009
- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 2015
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007

Cəza çəkmə müəssisələrindən azadlığa çıxmış şəxslərə göstərilən xidmətlər: Azərbaycanda və dünyada

PLAN

1. **Azərbaycanda məhkum olunmuş şəxslərə göstərilən xidmətlər**

2. **Dünyada məhkum olunmuş şəxslərə göstərilən xidmətlər**

3. **Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası**

Cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Cəzanın cinayətkarı islah etmək, yenidən cəmiyyətə qazandırmaq məqsədinin yanında, cəmiyyəti cinayətdən qorumaq məqsədi də vardır. Edilən cinayətlərə cəza veriləcəyini bilmək cəmiyyətdə güvən duyğusunu, qanuna bağlılığı gücləndirir. Bu mənada cəza cinayətkarı cəmiyyətdən təcrid etmək deyil, cinayətkarı cəmiyyətlə yenidən uyumlu hala gətirmək məqsədini izləməlidir.

Tomas Mor tarixdə ilk dəfə cinayətlərin sosial səbəblərlə əlaqədar olduğunu qeyd etmiş, o, həm də o dövr İngiltərənin ictimai-iqtisadi həyatını təhlil edərək, belə nəticəyə gəlir. Onun fikrincə, cinayətləri şərtləndirən sosial səbəbləri aradan qaldırmadan cəzanın necə gücləndirilməsindən asılı olmayaraq – cinayətkarlıqla mübarizədə müvəffəqiyyət qazanmaq mümkün deyildir.

Con Hovard (John Howard) cəzanın humanistləşdirilməsi haqqında. C.Hovard (1726-1790) Britaniyada yaşayıb-yaradan alimlərdən olmuşdur. Peşəsinə görə hüquqşünas olan C.Hovard həyatını dünyanın müxtəlif ölkələrində məhkumların saxlanılması vəziyyətinin öyrənilməsinə həsr etmişdir. O, 1777-ci ildə «İngiltərədə və Uelsdə həbsxanaların vəziyyəti» adlı monoqrafiya nəşr etdirmişdir.

C.Hovardın təşəbbüsü ilə hazırlanan və parlament tərəfindən qəbul edilən «Penitensiar müəssisələr haqqında akt» adlı qanunun qəbulundan sonra məhbuslar diferensial qaydada saxlanılmağa başlanıldı. Bu vaxtdan məhbus qadınlarla kişilər, yetkinlik yaşına çatmayanlarla, yaşa dolmuş məhkumlar ayrıca saxlanıldı. Bundan əlavə hətta məhbuslar törədilən cinayətin növündən asılı olaraq ayrıca saxlanılmağa başlandı.

Məhkumlar üzərində tədqiqat aparan Sykes "Məhbuslar Cəmiyyəti" (The Society of Captives) adlı işində məhkumların qarşılaşdıqları iztirabları "həbsedilmənin/məhbusluğun ağrıları" anlayışı ilə açıqlamışdır. Ona görə, həbsxanadakı məhkumların qarşı-qarşıya *qaldıqları 5 təməl acı* və ya məhrumluq forması vardır.

- **Azadlıqdan məhrumolma.** Bu anlayış məhkumların azadlıqları başda olmaqla dostlarından, qohumlarından və ailələrindən məhrum olma vəziyyətlərini ifadə edir. Bu məhrumiyyətin nəticəsi mənəvi münasibətləri yoxluğu, sıxıntı və tənhalıqdır.
- **Əşya və xidmətlərdən məhrumluq.** Bu məhrumiyyət məhkumların həbsxanada maddi nemət əldə etmə imkanlarına sahib olmama vəziyyətini ifadə edir.
- **Heteroseksual əlaqələrdən məhrumluq.** Həbsxanada üzün müddət qalan məhkumların bəzi cinsi ehtiyaclarından məhrum qalmalarını ifadə edir. Bəzi

kriminalistlər tərəfindən bu məhrumiyyətin çox ciddi psixoloji problemlər yaratdığı fikri irəli sürülmüşdür.

- A**vtonomiyadan/Öz müqəddəratını təyin etmədən məhrumluq.** Məhkumların həyatı hər günün 24 saatı təşkil və nəzarət edilməkdədir.
- **Təhlükəsizlikdən məhrumluq.** Həbsxanada məhkumların qarşılaşdıqları digər bir problem də şəxsi təhlükəsizliyin olmamasıdır.

Məhkumluq cəza çəkən şəxslərin həm psixoloji durumuna, həm sosial əlaqlərinə, həm də sağlamlıqlarına ciddi şəkildə təsir göstərir. Yaşadıqları məhrumiyyətlər azadlığa çıxdıqdan sonra onlarda depressiya, fobiya, yuxusuzluq, güvənsizlik, özünü qiymətləndirmənin aşağı səviyyədə olmasına gətirib çıxarır. Həmçinin, yaşayış yerinin olmaması, işsizlik, maddi təminatının olmaması, zəif ailə münasibətləri və ya heç olmaması kmi sosial amillər də məhkumluq yaşamış şəxslərin sosiallaşmasına mənfi təsir göstərir. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası prosesinin təşkilində bu kimi amillərin nəzərə alınması işin səmərəliliyi baxımından əhəmiyyətlidir.

Məhkum olunmuş şəxslərin islah olunması, azadlığa çıxdıqdan sonra cəmiyyətin bərabərhüquqlu vətəndaşı kimi yaşaması baxımından sosial adaptasiya vacib şərtdir. Sosial adaptasiya anlayışı cəza çəkmiş şəxsin azadlığa çıxdıqdan sonra yenidən cinayət törətmədən layiqli bir həyat sürməsi üçün həyata keçirilən fəaliyyətləri ifadə edir. Almaniya Konstitusiya Məhkəməsi isə sosial adaptasiyasını cəza çəkmiş şəxsin yenidən cəmiyyətin bir parçası olması kimi ifadə edir.

Cəza çəkməkdən azad edilmiş şəxsin sosial adaptasiyası özündə bir çox fəaliyyətləri birləşdirir. Bu fəaliyyətlərin həyata keçirilməsində iki başlıca model mövcuddur:

- Tibbi model məhkum olmuş şəxsə tibbi üsullarla yanaşır.
- Qarşılıqlı təsir modelində isə terapiya və ünsiyyətin üstünlük təşkil etdiyi bir üsul tətbiq edilir.

Cəzaçəkmiş şəxslərin sosial adaptasiyasına əsaslı təsir göstərən faktorlar mövcuddur. Kriminaloji və sosial tədqiqatların nəticələrinə əsasən *9 əsas* faktor müəyyənləşdirilmişdir:

- təhsil;
- iş;
- narkotik maddələrdən və alkoqoldan sui-istifadə;
- psixi və fiziki sağlamlıq;
- münasibətlər və özünə nəzarət;
- institusionallaşma və həyati bacarıqlar;
- yaşayış yeri;
- maddi dəstək və borc;
- ailə əlaqələri.

Sosial adaptasiya özündə terapiya və konsultasiya, təhsil, peşə qazandırma kimi ünsürləri birləşdirir. Terapiya və konsultasiyanın sosial adaptasiya üçün əhəmiyyəti böyükdür. Məhkumun psixoloji vəziyyəti nə qədər sağlam olarsa azadlığa çıxdıqdan sonra həyatı bir o qədər asan formalaşacaq. Təlim-təhsil yolu ilə məhkumun cəmiyyətə adaptasiyası mümkündür. Təhsil həm peşə, həm də bilik qazandırma üçün önəmli bir addımdır. Məhkumun bayırdakı həyatının bəlkə də ən vacib hissəsini peşə təşkil edir. Ehtiyaclarını təmin edə biləcək vəziyyətdə olmayan bir məhkumun bayırda cinayətə bulaşmadan qala bilməsi mümkün deyil.

Dünyada və Azərbaycanda məhkum olunmuş şəxslərə göstərilən xidmətlər

Xaricdə:

Birinci mərhələ

- keys menecerin dustaqla konsultasiya etməsi
- Ehtiyaclarının tam qiymətləndirilməsi
- Fərdi planın hazırlanması
- Dustaqla müqavilənin imzlanması

İkinci mərhələ- göstərilən xidmətlər

- Təhsil və təlim
- Peşə əsaslı təlim
- Cinayətkar davranış proqramlarında iştirak;
- Narkotik maddə və alkoqol proqramlarında iştirak;
- Yaşayış yeri
- Maddi gəlirin təmin olunması
- Ailə problemlərinin həlli

Azərbaycanda:

Sağlamlıq Otaqları

Sağlamlıq Otaqları "Gənclər İnkişaf Naminə" İctimai Birliyinin Azərbaycan Respublikası Ədiyyə Nazirliyi Baş Tibb İdarəsi və Qlobal Fondla birgə əməkdaşlıq əsasında yaradılmışdır. İlk sağlamlıq otağı 2011 – ci ildə yaradılmışdır. 2017 – ci ildə sağlamlıq otaqları 23 cəzaçəkmə müəssisəsini əhatə etmişdir. Sağlamlıq otaqlarında **psixoloq və sosial işçilər** fəaliyyət göstərir. Sağlamlıq otaqlarının psixoloq və sosial işçiləri müəssisələrin tibb hissəsi ilə əməkdaşlıq çərçivəsində işləyir.

Sağlamlıq otaqlarının xidmətləri

- Məhkumlara xüsusilə risk qrupunda olan şəxslərə İİV/QİÇS-lə və digər yoluxucu xəstəliklərlə bağlı daha ətraflı maarifləndirilmə;
- İİV/QİÇS lə bağlı könüllü müayinədən keçməyə yönləndirilmə;
- İNİ (inyeksion narkotik istifadəçiləri) və İİV daşıyıcısı olan məhkumlara psixoloji yardım göstərmək;

- Emosional psixoloji durumunda problemlər yaranan şəxslərə psixoloji yardım;
- Fərdi və qrup işlərinin aparılması;
- Azadlığa çıxmaq ərəfəsində olan məhkumların sosial adaptasiyasına dəstəyin göstərilməsi;
- "Zərərin Azaldılması" proqramlarına və partnyor təşkilata ("Gənclərin Sosial Problemlərinin Həllinə Kömək" İctimai Birlyi) yönləndirilmə;
- Cəzaçəkmə müəssisələrini tərk etməyə hazırlaşan İNİ olan şəxslərin şpris mübadiləsi proqramlarına cəlb edilməsi;
- Qoruyucu vasitələrin, maarifləndirici məlumat materiallarının paylanması

Fəaliyyət. Sağlamlıq Otaqlarına müraciətlər KÖNÜLLÜLÜK prinspi əsasında qurulur. Eyni zamanda cəzaçəkmə müəssisəsinin tibb işçiləri tərəfindən məhkumlar yardım və konsultasiya üçün istiqamərtləndirilə bilər. Cəzaçəkmə müəssisələrinə yeni daxil olmuş şəxslərə sağlamlıq otaqları haqqında məlumat verilir, onlarla fərdi və ümumi görüşlər keçirilir. Cəza müddətinin sonuna az qalmış məhkumlara xüsusi ilə yoluxucu xəstəliklər riskində olan şəxslərə göndərişlərin verilməsi və yönləndirmə xidməti "Sağlamlıq Otaq"larının fəaliyyətində xüsusi diqqət yetirilir. Müraciət edən şəxslərin anonimliyi və konfidiensallığı qorunur. Fəaliyyət zamanı hesabatlılıq gözlənilir və hər bir müəssisə üzrə statistik hesabatlar Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə göndərilir.

Cəza hüququnda bir məhbusun cəmiyyətə yenidən adaptasiya müddəti həbsxanaya girdiyi andan etibarən başlayır. Həbsdən çıxdığı andan etibarən də sona çatmır. Bir çox ölkələrdə köhnə məhbuslara yardım edən dövlət və QHT-lər mövcuddur.

- Kanadada "İş Tapma Təşkilatı" və "Şərtlə Azadetmə Milli Komissiyası"
- İngiltərədə "Mərkəzi Patronaj Dərnəyi"
- Danimarkada "Danimarka Sosial Müdafiə Təşkilatı"
- İtaliyada "Sosial Müdafiə Xidməti"
- Fransada "Azad edilmiş Cinayətkarlara Yardım Komitəsi"

ABŞ-da isə ilk dəfə 1776-cı ildə qurulmuş olan "Məhkumlara Yardım Dərnəkləri" həbsxanadan yeni çıxanlara yardım fəaliyyətləri həyata keçirmişlər.

Azərbaycanda da cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası, azadlığa çıxdıqdan sonra cəmiyyətdə özlərinə yer tutmaları, yenidən təkrar cinayət törədərək həbsxanaya girməsinin qarşısının alınması aktualdır. Bu istiqamətdə Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında Azərbaycan Respublikasının Qanunu **31 may 2007-ci il tarixdə** qəbul olunmuşdur. Qanuna görə, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası - penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni

cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınması məqsədilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirlər sistemidir.

Penitensiar müəssisə - Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslarla müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə növündə cəzaların icrasını həyata keçirən cəzaçəkmə müəssisəsidir.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər-qanunvericilikdə müəyyən edilmiş əsaslarla müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə növündə cəzaları çəkməkdən azad edilmiş şəxslərdir.

Qanunun tətbiq dairəsi. Bu Qanun cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə, habelə digər dövlətlərin penitensiar müəssisələrində cəza çəkməkdən azad edildikdən sonra üç ay müddətində Azərbaycan Respublikasına daimi yaşamaq üçün qayıtmış Azərbaycan Respublikasının vətəndaşlarına şamil olunur.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının əsas prinsipləri. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası qanunçuluq, humanizm, sosial ədalət, ünvanlılıq və könüllülük prinsiplərinə əsaslanır.

Sosial adaptasiya müddəti. Sosial adaptasiya müddəti bir ildir. Müstəsna hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında bu müddət daha bir ilədək uzadıla bilər. Sosial adaptasiya müddəti cəza çəkməkdən azad edilmiş şəxsin qeydiyyata götürüldüyü gündən hesablanır.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə həyata keçirilən tədbirlər

- cəza çəkməkdən azad edilmiş şəxsləri qeydiyyata almaq, onlarla hazırlıq işlərini aparmaq;
- sosial adaptasiya mərkəzləri yaratmaq;
- daimi yaşayış sahəsi olmayan şəxsləri bu Qanunla müəyyən olunmuş müddətdə müvəqqəti yaşayış yeri ilə təmin etmək;
- cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə, tibbi və sosial yardımla təmin edilməsi sahəsində müvafıq tədbirləri həyata keçirmək;
- təhsil almalarına şərait yaratmaq;
- şəxsiyyətini təsdiq edən və digər lazımi sənədlərlə təmin etmək;
- cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinəti vermək;
- cəza çəkməkdən azad edilmiş şəxslərə hüquqi, psixoloji və informasiya yardımı göstərmək.

Sosial adaptasiya tədbirlərini həyata keçirən orqan və müəssisələr. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının qorunması üzrə komissiyalar, dövlət təhsil və tibb müəssisələri, məşğulluq xidməti orqanları, habelə digər müəssisə və təşkilatlar cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası ilə bağlı bu Qanunun və digər qanunvericilik aktlarının tələblərini yerinə yetirməyə borcludurlar.

Sosial adaptasiya tədbirlərinin həyata keçirilməsində bələdiyyələr, fiziki şəxslər, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları könüllülük əsasında iştirak edə bilərlər.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası sahəsindəki fəaliyyət müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlaqələndirilir.

Sosial adaptasiyaya ehtiyacı olan şəxslərin qeydiyyata alınması və onlarla hazırlıq işlərinin aparılması. Müvafiq icra hakimiyyəti orqanı penitensiar müəssisələrin müdiriyyəti ilə birlikdə ayda bir dəfədən az olmayaraq sosial adaptasiyaya ehtiyacı olan cəza çəkməkdən azad ediləcək şəxsləri müəyyən edir və bu şəxsləri onların razılığı ilə qeydiyyata götürür. Qeydiyyata götürülmüş şəxslərə onların hüquq və azadlıqları, sosial adaptasiya tədbirlərinin məzmunu və həyata keçirilməsi qaydası izah olunur.

Penitensiar müəssisələrdə sosial adaptasiya məqsədilə qeydiyyata götürülməmiş şəxslər, habelə digər dövlətlərdə cəza çəkməkdən azad edilmiş və Azərbaycan Respublikasına daimi yaşamaq üçün qayıtmış Azərbaycan Respublikasının vətəndaşları üç ay ərzində ərizələrinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydiyyata alınırlar.

Cəza çəkməkdən azad edilmiş şəxslərin yaşayış yeri ilə təmin olunması. Cəza çəkməkdən azad edilmiş şəxslər, əgər qanunvericiliklə müəyyən edilmiş qaydada əvvəlki yaşayış sahəsinə hüquqlarını itirməmişlərsə, müraciət etdikləri vaxtdan üç gün ərzində müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin yaşayış yeri üzrə qeydiyyata alınırlar.

Cəza çəkməkdən azad edilmiş şəxsin əvvəlki yaşayış sahəsində onun ailə üzvləri yaşayırlarsa, həmin şəxsin oraya qayıtmasına ailə üzvlərinin razılığı tələb olunmur. Yaşayış sahəsində qanunvericiliklə müəyyən olunmuş qaydada himayəyə verilmiş yetkinlik yaşına çatmayanların yaşadıqları hallarda cəza çəkməkdən azad edilmiş şəxs (mənzilin mülkiyyətçisi olduğu hallar istisna olmaqla) qəyyumluq və himayə orqanının razılığı ilə həmin yaşayış sahəsinə yerləşə bilər.

Qeydiyyata alınmış və yaşayış sahəsi olmayan cəza çəkməkdən azad edilmiş şəxslər sosial adaptasiya müddətindən çox olmamaqla müvəqqəti yaşayış yeri ilə təmin edilirlər. Yaşayış sahəsi olmayan şəxslərin müvəqqəti yaşayış yerində yaşamaq müddəti müstəsna hallarda artırıla bilər. Müvəqqəti yaşayış yeri ilə təmin olunma qaydası və yaşamaq müddətinin artırılması halları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Yaşayış sahəsi olmayan və himayəsində 14 yaşadək uşağı olan cəza çəkməkdən azad edilmiş qadınların müvəqqəti yaşayış yeri ilə təmin olunması təxirəsalınmadan həyata keçirilir.

Cəza çəkməkdən azad edilmiş birinci və ikinci dərəcə əlilliyi olan şəxslər, altmış iki yaşına çatmış kişilər və əlli yeddi yaşına çatmış qadınlar öz ərizələri ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinə göndərilirlər.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş cəza çəkməkdən azad edilmiş yetkinlik yaşına çatmayanların yaşayış sahəsi olmadıqda onlar qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən internat məktəblərinə göndərilir və tam dövlət təminatına götürülürlər.

Cəza çəkməkdən azad edilmiş şəxslərin məşğulluğunun təmin olunması. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə təmin edilməsi sahəsində (o cümlədən kvota üzrə iş yerlərini müəyyən etməklə) tədbirləri müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Cəza çəkməkdən azad edilmiş himayəsində 14 yaşadək uşağı olan tənha qadınların məşğulluğunun təmin edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təxirə salınmadan həyata keçirilir.

Cəza çəkməkdən azad edilmiş şəxslərin təhsilinin və peşə hazırlığının təşkili. Müvafiq icra hakimiyyəti orqanı cəza çəkməkdən azad edilmiş şəxslərin peşə təhsili və əlavə təhsil, habelə qısamüddətli peşə hazırlığı kursları vasitəsilə peşələrə yiyələnmələrinə şərait yaradır. Cəza çəkməkdən azad edilmiş gənclərin əlavə təhsil alması ilə bağlı "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir. Cəza çəkməkdən azad edilmiş qadınların himayəsində olan 14 yaşına çatmamış uşaqların məktəbəqədər təhsil müəssisələrinə və ya internat məktəblərinə yerləşdirilməsi qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.

Cəza çəkməkdən azad edilmiş şəxslərə sosial, hüquqi, psixoloji və informasiya yardımının göstərilməsi. Cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə minimum aylıq əməkhaqqının dörd misli məbləğində birdəfəlik pul müavinəti verilir. Müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində cəza çəkməkdən azad edilmiş şəxslərə hüquqi, psixoloji və informasiya yardımlarının göstərilməsini təmin edirlər.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası tədbirlərinin maliyyələşdirilməsi. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası tədbirlərinin maliyyələşdirilməsi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Sosial adaptasiya tədbirləri bələdiyyə vəsaitləri, fiziki və hüquqi şəxslərin ianələri, eləcə də qanunvericiliklə qadağan olunmayan digər vəsaitlər hesabına da həyata keçirilə bilər.

Hər bir məkhum olunmuş şəxsin sosial adaptasiyasının təşkili özünəməxsusdur. Bu baxımdan bir neçə məsələ sosial adaptasiya prosesində çətinlik yara bilər. Sosial adaptasiya anlayışına bağlı olaraq müzakirə edilən ən əsas məsələ zamandır. Belə ki, cəza çəkməkdən azad edilmiş bir şəxsin nə qədər müddətə cəmiyyətə uyğunlaşacaq hala gələ bilməsini əvvəlcədən müəyyən etmək mümkün deyil. Bu səbəbdən də sosial adaptasiya ilə bağlı qanunvericilikdə göstərilən müddət reallığa uyğun olmaya da bilər.

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 20155
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007
- M. Davies. “Companion to Social Work”. Blackwell Publishers, 2007
- M. Daly və J. Lewis. “The concept of social care and the analysis of
- contemporary welfare states” British Journal of Sociology, 2000
- M. Kautto. “Investing in services in West European welfare states”. Journal of European Social Policy, 2002

MÜHAZİRƏ: İnsan alveri qurbanlarına göstərilən sosial reabilitasiyanın məqsəd və prinsipləri

PLAN

1. **İnsan alveri anlayışı**
2. **İnsan alveri qurbanlarının müəyyən edilməsi**
3. **Reabilitasiyanın həyata keçirilmə meyarları**
4. **Reabilitasiya və reinteqrasiya prosesində sosial işin təşkili**

“İnsan alveri ” anlayışı istismar məqsədi ilə insanların cəlb edilməsi, daşınması, bir yerdən digərinə aparılması, sığınacaq verilməsi, borc iltizamlarından istifadə edilməsi, hədələmək, güc tətbiq etmək və ya başqa fiziki təzyiq üsulları ilə, insanların oğurlanması, qorxudulması, aldadılması, onların çıxılmaz vəziyyətdə olmalarından istifadə edilməsi, pul vermək və ya pul almaq yolu ilə bir nəfərin başqa biri üzərində ağalığına nail olması kimi başa düşüləcək. “istismar” anlayışı, ən azı, digərlərini fahişəliklə məşğul olmağa məcbur etməyi və ya başqa seksual istismar formalarını, məcburi əmək və xidmətləri, qul kimi satılmağı və ya buna oxşar halları və hətta insan orqanlarının kəsilib götürülməsini nəzərdə tutur

Sosial reabilitasiya reabilitasiyanın elementi və ya növü olduğundan, ilk növbədə reabilitasiya anlayışına diqqət yetirək. Müxtəlif müəlliflər tərəfindən reabilitasiyaya dair bir çox şərhlər irəli sürülür. Bu şərhlərdən aşağıdakı anlayışı xüsusi vurğulayaraq, diqqətə çatdırmağı məqsədəuyğun hesab etmək olar:

Reabilitasiya – pozulmuş insan orqanizminin bərpasına və ya onun kompensasiyasına yönəlmiş müəyyən prosesdir.

Reabilitasiya ilə bağlı ilkin anlaşma əsasən tibbi yanaşma ilə bağlı olmuşdur. Bu yanaşmada insanın psixosomatik (bədən ağrısı) keyfiyyətinə diqqət yetirilirdi. Belə ki, insan bədəninin bərpası onun soisal sağlamlığının müvəffəqiyyəti kimi qiymətləndirilirdi. Lakin tədricən, bu yanaşma dəyişikliyə uğradı və insanın reabilitasiyası onun əmək funksiyasının bərpası ilə yekunlaşmayaraq, fərdin bütünlüklə sosial qabiliyyətinin inkişafı kimi baxıldı.

Əgər insan və onun orqanizmi reabilitasiya prosesində ön planda dayanırsa, onda orqanizmin pozulması reabilitasiyanın predmeti kimi qəbul edilir.

İnsan orqanizminin pozuntusu dedikdə - hərəkətverici, nitq, əmək, **təhsil,** ünsiyyət və digər funksiyalar nəzərdə tutulur.

Həm tibbi, həm də sosial reabilitasiya iki əsas növdə həyata keçirilir.

1) pozulmuş funksiyaların bərpası;

2) pozulmuş funksiyaların kompensasiyası.

Birinci hal bərpa reabilitasiyası, ikinci hal kompensasiya reabilitasiyası adlanır.

Sosial reabilitasiya – əsasən həssas qruplara istiqamətlənir. Sosial reabilitasiyanın xarakterinə gəldikdə isə, onu qeyd etmək lazımdır ki, sosial reabilitasiya qeyri-mütəşəkkil və mütəşəkkil ola bilər.

Qeyri - mütəşəkkil reabilitasiyada şəxs, intuitiv olaraq öz orqanizmini ona məqbul səviyyədə ətraf mühitə uyğunlaşdırır. Belə halda sosial reabilitasiya prosesi uzunmüddətli olur.

Mütəşəkkil reabilitasiyada isə reabilitasiya prosesi qısa olur. Buna səbəb reabilitasiya planının hazırlanması və peşəkar xidmətin təşkilidir.

Sosial reabilitasiyaya fərqli variantlarda: hərəkətdə olan proses, son nəticə, fəaliyyət və texnologiya kimi baxmaq olar.

Sosial reabilitasiya strateji məqsəd olaraq şəxsiyyəti sarsıntılara qarşı dayanıqlı etməklə, onun cəmiyyətə uğurlu inteqrasiyasını təmin edən prosesdir. Bu proses dinamik sistem olmaqla, inkişaf prosesinin ortaya çıxan qarşılıqlı təsiri həyata keçirilməsində fərdi planın ardıcıl reallaşdırması üçün taktiki vəzifələri həyata keçirir. Sosial reabilitasiya prosesi mütəxəssis nəzarəti altında, xüsusi təşkil edilmiş müəssisələrdə həyata keçirilir. Həmin müəssisələrdə insan alverindən zərərçəkmiş şəxsə təsir edən xüsusi metod və üsullardan istifadə edilir.

Sosial reabilitasiya son nəticə kimi - sosial təhlükəli vəziyyətdə, yaxud mühitdə olan şəxsin müvafiq reabilitasiya mərkəzində kompleks reabilitasiyası və onun cəmiyyətin sosial-iqtisadi həyatına daxil olması və natamamlıq hissindən azad olmasını nəzərdə tutur. Sosial reabilitasiya fəaliyyət kimi - həm sosial reabilitasiyanı təşkil edən və sosial reabilitasiyanın subyektinə çevrilən qurbanın iştirakını nəzərdə tutur. Sosial reabilitasiya fəaliyyəti – mütəxəssisin və qurbanın məqsədyönlü fəal hərəkətidir ki, nəticədə səmərəli və tam dəyərli nəticə, qurbanın sosial həyata qayıdışıdır.

Adı çəkilən fəaliyyət, mütəxəssisdən dərin peşəkar biliklər, mənəvi-əxlaqi dəyərlər tələb etməklə, apardığı fəaliyyətin nəticəsində insan alverindən zərərçəkmişin dəyərli şəxsiyyətə çevrilməsini tələb edir.

Sosial reabilitasiya fəaliyyəti digər fəaliyyətlər kimi, keyfiyyət xüsusiyyətinə malikdir. Onlardan ən vacibi: məqsədyönlü fəaliyyət, səmərəlilik, dinamiklik və effektivlikdir.

Sosial reabilitasiya fəaliyyətinin məqsədyönlülüyü dəqiq müəyyən edilmiş çərçivədə qurulur və son nəticədə qurbanın hansı şəxsi və psixi keyfiyyətlər üzrə dəyişəcəyini əvvəlcədən dərk edir.

Sosial reabilitasiya prosesinin səmərəliliyinin şərti - hər bir mütəxəssisin fərdi fəaliyyət tərzi olmalıdır ki, müxtəlif üsullardan istifadə etməklə müsbət təsirə nail olsun.

Sosial reabilitasiya fəaliyyətində dinamiklik – qurbanla iş zamanı cari vəzifələrin reallaşmasında yüksələn irəliləyişə nail olmaqdır. Sosial reabilitasiya prosesində ən vacib məqam qurbanın psixikasında cüzi olsa da müsbət dəyişikliyə nail olmaqdır. Bu halda dinamik dəyişiklik, sosial

reabilitasiya prosesində şəxsiyyətin inkişafında əhəmiyyətli dərəcədə müsbət dəyişikliyə bütünlüklə nail olunur.

Sosial reabilitasiya fəaliyyətinin effekti, əvvəlcədən müəyyən edilmiş nəticədə maksimum imkanların əlaqələndirilməsidir. Bunu yalnız o halda müəyyən etmək olar ki, keyfiyyət meyarları ölçüyə gələn nəticəni göstərsin. Keyfiyyət meyarlarının əsas əlamətləri:

- qurbanın şəxsiyyətinin inkişafı;
- nəticə üzrə dövr;
- həyata adaptasiya qabiliyyətinin inkişafı;
- reabilitasiya potensialı ilə sosial-iqtisadi həyata inteqrasiyası mümkün olsun.

Rebailitasiya. Ümumi yanaşma

Bəzən reabilitasiya prosesinin ilkin məqsədi - sağlamlığın bərpasına yönəlmiş fəaliyyət kimi başa düşülür. Lakin əslində reabilitasiya prosesi çoxtərəfli və əhatəli prosesdir. Bu yanaşmada tibbi xidmətlə yanaşı, psixoloji, sosial və digər xidmətlər də nəzərdə tutulmalıdır. Beləliklə reabilitasiya prosesinə yanaşma əhatəli olmaqla, fərdin insan alveri nəticəsində keçirdiyi fiziki, emosional, sosial vəziyyətinin dəyişməsinə xidmət etməlidir.

İstismar nəticəsində alınmış zədə insan həyatına mənfi təsirlə əks olunur. Hətta, vaxtında göstərilən ən müasir və effektiv tibbi yardım digər yardımlarla - yəni psixoloji, sosial, hüquqi və s. vəhdətdə həyata keçirilməzsə, göstərilən tibbi yardım heç bir təsirə malik olmur.

Effektiv reabilitasiyanı təmin etmək və şəxsin təkrar qurbana çevrilməsinin qarşısını almaq məqsədi ilə Reabilitasiya Mərkəzi insan alverindən zərərçəkmişi kompleks yardımlarla təmin edir. Bu yardımlara aşağıdakı komponentlər daxildir:

- zərərçəkmişlə ilk əlaqə və gündəlik vəziyyətin qiymətləndirilməsi.
- Tibbi müalicə-müəyyən edilən nasazlığın müalicəsi, digər mütəxəssislərə istiqamətləndirmə, davamlı tibbi nəzarət.
- Fərdi və qrup şəklində psixoloji məsləhət və ya psixoterapiya.
- Sosial yardım – zərərçəkmişə yardım, ailəyə, cəmiyyətə, zərərçəkmişin sosial mühitlə qarşılıqlı əlaqəsinin bərpası.

- Reabilitasiyanın digər mərhələlərinin müşahidəsi.

Göstərilən yardımlar könüllülük prinsipi ilə və şəxsin yazılı razılığı əsasında həyata keçirilir. Reabilitasiya Mərkəzi göstərilən xidmət zamanı şəxsdən alınan məlumatların tam məxfiliyinə təminat verir.

İstismar zamanı alınan zədədən asılı olaraq reabilitasiya prosesində ilkin yardım - tibbi və psixoloji aid edilir. Sosial yardım əsasən sosial problemlərin həllinə ünvanlanır. Bu mərhələdə şəxsin cəmiyyətə qayıdışına hazırlıq prosesi həyata keçirilir.

Reabilitasiyanın həyata keçirilmə meyarları. Reabilitasiya meyarları özü də iki hissəyə bölünür:

Davamlı reabilitasiya:

- əgər qurban həyati problemlərini müstəqil həll etməyə hazır deyilsə;
- əgər qurban böhrandan çıxa bilmirsə;
- əgər qurban həyat keyfiyyətini bərpa edə bilmirsə onun davamlı reabilitasiyaya ehtiyacı var. Sosial işçi ilkin qiymətləndirmə dövründə bu psixo-sosial vəziyyəti müəyyən etməli və buna uyğun fərdi plan hazırlamalıdır. Belə vəziyyətdə olan şəxslərin reabilitasiya prosesi sığınacaq daxilində kompleks xidmətlər çərçivəsində həyata keçirilməlidir.

Profilaktik reabilitasiya (məsləhət):

- əgər qurbanın fiziki vəziyyəti və funksiyaları normaldırsa;
- əgər qurbanın psixoloji vəziyyəti (idraki fəaliyyət, emosional mühit, özünü qiymətləndirmə) normaldırsa;
- əgər qurbanın sosial əlaqələri və bu əlaqələrlə yanaşı digər münasibətlər mövcuddursa;
- əgər qurbanı ətraf mühit dəyişərsə bu meyarlar müsbət dəyişiklikdən xəbər verir. Bu indikatorlara malik olan qurbanların reabilitasiya prosesi, sığınacağa daxil olmadan da həyata keçirilə bilər. Lakin, yuxarıda qeyd edilən bütün meyarlara baxmayaraq profilaktik reabilitasiya mütləq həyata keçirilməlidir. Çünki, ola bilər ki, şəxsin adaptasiya olunmasına baxmayaraq onun digər problemləri mövcud ola bilər ki, onların vaxtında həll edilməməsi, indikatorların qısa müddətdə dəyişməsinə gətirib çıxarar.

Reabilitasiya və reinteqrasiya prosesində sosial işin təşkili

Qurbanlarla sosial işin təşkili reabilitasiya prosesinin ayrılmaz hissəsidir.

Reabilitasiya prosesinin təşkilində əsas iştirakçı tərəflər sosial işçi, psixoloq, tibb işçiləri, hüquq mühafizə orqanlarının nümayəndələri, hüquqşünas və s. mütəxəssislər ola bilər.

Reabilitasiya-reinteqrasiya proqramı dedikdə, aşağıdakıların diqqət mərkəzində saxlanılması tövsiyə edilir:

- sosial qiymətləndirmə (ilkin məlumatın toplanması);
- şəxs reabilitasiya mərkəzinə yerləşdikdən dərhal sonra ilkin məsləhət toplantısının keçirilməsi (mütəxəssislər);
- zərərçəkmişlə ilkin və ətraflı görüşdən sonra xüsusi sorğu vərəqlərinin doldurulması (yardım üçün yazılı müraciət);
- sosial qiymətləndirmə (sorğu vərəqinin doldurulması);
- zərərçəkmişlə bağlı gündəlik monitorinqin aparılması;
- təkrar qiymətləndirilmə (insan alveri qurbanına çevrilə ehtimalının);
- fərdi və qrup görüşləri;
- asudə vaxtın təşkil;
- fərdi reinteqrasiya planın hazırlanması.

Sosial qiymətləndirmə. İlkin məlumatın əldə edilməsi

Reabilitasiya prosesinin ilkin mərhələsi sosial qiymətləndirmə ilə başlayır. İlk addım imkan verir ki, sosial işçi, psixoloq və s. mütəxəssislər, qurbana dair məlumatı toplasın. Toplanan məlumat reabilitasiya planının hazırlanması üçün vacib mənbədir. Reabilitasiya və Reinteqrasiya planı 3 istiqamətdə nəzərdə tutulur: tibbi, psixoloji və sosial. Bu planı hazırlayarkən qurbanın şəxsi ehtiyacları və bacarıqları nəzərə alınmalı, eləcə də onun yaşadığı ərazinin xüsusiyyətləri, ailə vəziyyəti, təhsili, əvvəlki iş təcrübəsi və digər xüsusiyyətlər diqqət mərkəzində saxlanılmalıdır ki, onun normal həyata qayıdışı real əsaslarla baş versin. Odur ki, əhəmiyyətli məsələlərdən biri, zərərçəkmiş reabilitasiya mərkəzinə daxil olmamışdan əvvəl onunla bağlı aşağıdakı məlumatlar əldə edilmiş olsun:

- cins, yaş, ailə vəziyyəti, psixi və fiziki vəziyyəti, gündəlik psixi və sosial problemləri, zərərçəkmişin istismar zamanı düşdüyü vəziyyətin spesifikliyi, istismarda olduğu müddət və

s.

Bu səpgidən olan məlumatların əvvəldən əldə edilməsi, həm reabilitasiya planının hazırlanması, onun üçün effektiv üsulların müəyyən edilməsi ilə yanaşı fərdin mərkəzə yerləşdirilib yerləşdirilməməyi məsələsini də müəyyən edir.

Nəzərə almaq lazımdır ki, zərərçəkmiş haqqında bu səpkidə məlumatların əvvəldən əldə edilməsi həmişə mümkün olmur. Bəzi hallarda zərərçəkmiş müxtəlif qurumlar tərəfindən istiqamətləndirilə bilər. Əvvəldən məlumatın alınması təcrübəsi əməkdaşlıq əlaqələri qurulmuş təşkilatlarda mümkün olur. Məsələn:

- təyinat ölkəsində xidmət göstərən təşkilatla, mənşə ölkəsində xidmət göstərən təşkilat arasında qarşılıqlı əlaqə;
- hüquq mühafizə orqanları ilə sosial ximət göstərən təşkilatlar arasında qarşılıqlı əlaqə effektiv nəticə verir.

Belə qarşılıqlı əlaqəni təşkil edən qurumlardan biri də Beynəlxalq Miqrasiya Təşkilatının ölkələrdəki nümayəndəliyidir. Beynəlxlaq Miqrasiya Təşkilatı fəaliyyət göstərdiyi ölkədə insan alveri qurbanları ilə işləyən təşkilat və mütəxəsisslər barədə müfəssəl məlumata malik olduğundan qurbanın birbaşa yardım proqramlarına istiqamətləndirilməsində ən yaxşı vasitəçi rolunu oynaya bilir.

Zərərçəkmişlə fərdi və qrup şəklində sosial iş

Zərərçəkmişlə aparılan sosial tədbirlər fərdi və qrup şəklində qurula bilər. Qrup şəklində iş zamanı zərərçəkmiş özünü cəmiyyətin mikro modeli çərçivəsində hiss etməklə, bu zaman onun cəmiyyətə reinteqrasiyasının ilkin modeli başlayır. Belə ki:

- fərdi və qrup işi zamanı sosial işçi zərərçəkmişin həyat təcrübəsinə diqqət yetirməli (keçmişdə baş vermiş pozitiv məqamların aşkarlanması və onun fərdi inkişafında resurs qismində istifadə edilməsi);
- zərərçəkmişi onun reinteqrasiyasına dair gələcək imkanları barədə məlumatlandırılmalı, zərərçəkmişin maraqları barədə ətraflı müzakirələr aparılmalı;
- sosial işçi, hər bir konkret halla bağlı uğurlu və ya uğursuz reinteqrasiyaya dair ehtimallara

hazır olmalı;

- sosial işçi, zərərçəkmişi insan alverçilərinin caynağına salan faktlar barədə daha geniş və dolğun məlumat toplamalıdır.

Sosial işçi ilə qurban arasında açıq və səmimi söhbətin yaranması olduqca vacib şərtlərdəndir. Sosial işçi zərərçəkmişə təhlükəsizlik qaydalarıyla yanaşı xaricə qanuni səfər etməyin hüquqi aspektlərini, eləcə də təkrar qurbana çevrilmə ehtimalını aradan qaldırmaq üsullarını izah etməlidir.

Əksər vaxt insan alverindən zərərçəkmiş şəxs, çətin vəziyyətdə ona yardım göstərə biləcək xidmət mərkəzləri barədə məhdud məlumata malik olur. Onlar bilmir ki, belə mərkəzlər çətin anda olan insanlara daldalanmaq üçün sığınacaq, qida, işlə təminata istiqamətləndirmə, hüquqi məsələlərin həlli üçün pulsuz vəkil, eləcə də təhlükəsizliyin təmini üçün müraciətin qaydalarını öyrədirlər. Əgər zərərçəkmişin yaşadığı ərazidə belə mərkəzlər mövcuddursa, o, mütləq bu imkanlar barədə məlumatlanmalıdır.

Sosial işin təşkilində əsas mövzular və istiqamətlər.

Sosial işin bu aspekti zərərçəkmişin həyatının müxtəlif dövrlərində üzləşdiyi çətinliklər və onun həlli yolunda göstərdiyi cəhdlərə baxmayaraq insan alveri qurbanına çevrilməsi narahatçılığına dair mövzular ola bilər. Təbii ki, istismardan sonra da zərərçəkmişin həmin problemləri həll edilməmiş qalaraq, əksinə daha kəskin forma almış olur. Bu baxımdan zərərçəkmişin öz yaşadığı əraziyə qayıdışından əvvəl, sosial işçi zərərçəkmişlə mövcud problemlərin həlli yollarını müzakirə edərək, onu düzgün istiqamətləndirməyi bacarmalıdır.

Təhlükəsizlik və məxfilik

Reabilitasiya mərkəzinin yeri məxfi saxlanılmalıdır. Mərkəzə daxil olan hər bir şəxs məxfiliklə bağlı razılaşmaya imza atmalıdır. Məxfilik müqaviləsinin imzalanması yalnız sakinlərə deyil, sığınacaqda çalışan personala da şamil edilir. Bəzən, zərərçəkmişlərə şəxsi mobil telefonlardan istifadəyə icazə verilmir. Mobil telefon şəxsin reabilitasiya və reinteqrasiya prosesinə ciddi zərbə vuran elementlərdəndir. Lakin, zərərçəkmişin öz yaxınları ilə (əgər təhlükə yoxdursa) telefon əlaqəsi məhdudlaşdırılmamalı, xidmətlərin tərkib hissəsi kimi nəzərdə tutulmalıdır. Yaşadığı ərazidə təhlükələrin mövcudluğuna dair müzakirələr, zərərçəkmişlə onun Mərkəzi tərk

etməsindən öncə aparılmalıdır.

Sosial işçi zərərçəkmişə xidmətləri təklif edərkən aşağıdakı qaydalara riayət etməlidir:

1. Sosial işçi müəyyən etməlidir ki, qurban, aldığı mənəvi zədədən irəli gələrək davranışında baş verən dəyişikliklərin öhdəsindən əvvəllər necə gəlib. O hansı effektiv üsulları bilir. Bəzən qurbanın istifadə etdiyi üsullar heç də, effektiv üsul olmaya bilər. Bu halda sosial işçi bu üsulun fəsadlarına dair qurbana məlumat verməlidir. Lakin, bu məlumat, məsləhət xarakterli olmamalıdır.

2. Sosial işçi, qurbanın vəziyyətindən asılı olaraq, həmin an üçün ən vacib prioritet məsələni müəyyənləşdirməklə ona yardım etməlidir.

3. Sosial işçi, unutmamalıdır ki, böhran vəziyyətində olan qurban, onun üçün vacib olan bir sıra məqamları unuda bilər, sosial işçi, müsahibə zamanı müəyyənləşdirdiyi faktları qeyd edərək, qurbanın anlayacağı dildə onun yadına salmalıdır.

4. Sosial işçi, qurbanın şəxsi resurslarını səfərbərliyə almağa yardım etməlidir. Cinayətkar onu, ailəsi və yaxınlarından uzaq saldığı üçün, bəzən qurbana elə gələ bilər ki, onun heç bir dəstəyi və resursu yoxdur. Qadınlar üçün bu dəstəyin müəyyən edilməsi xüsusilə vacibdir.

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 20155
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007
- M. Davies. “Companion to Social Work”. Blackwell Publishers, 2007
- M. Daly və J. Lewis. “The concept of social care and the analysis of
- contemporary welfare states” British Journal of Sociology, 2000
- M. Kautto. “Investing in services in West European welfare states”. Journal of European Social Policy, 2002

Mühazirə. Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülməsi və dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi qaydası

PLAN

1. **Sosial xidmətə götürülmənin mərhələləri**
2. **Sosial xidmətlərə tələbatın qiymətləndirilməsi və müəyyən edilməsi üçün meyarlar**
3. **Şəxsin (ailənin) sosial xidmətə götürülməsi ilə bağlı müraciətlərə baxılması**

1. Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülmənin mərhələsi. Sosial xidmətlərə tələbatın qiymətləndirilməsi və müəyyən edilməsi meyarları.

Sosial xidmətə götürülmənin 3 mərhələsini fərqləndirmək olar.

- sosial xidmət göstərilməsi üçün müraciət edilməsi mərhələsi
- sosial xidmətlərə olan tələbatın qiymətləndirilməsi mərhələsi
- şəxsin (ailənin) sosial xidmətə götürülməsi və ya ondan imtina edilməsi barədə qərarın qəbul edilməsi mərhələsi

Sosial xidmətin göstərilməsi çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial xidmətlərə olan tələbatının sosial işçi tərəfindən qiymətləndirilməsi və müəyyən edilməsi əsasında həyata keçirilir. Sosial xidmətlərə tələbatın qiymətləndirilməsi və müəyyən edilməsi üçün meyarlar aşağıdakılardır:

- sosial yadırğama (dezadaptasiya), yəni şəxs (ailə) sosial mühitə uyğunlaşma qabiliyyətini itirdikdə;
- sosial məhrumiyyət (deprivasiya), yəni şəxsin (ailənin) əsas həyati tələbatlarını müstəqil şəkildə ödəmək imkanlarının məhdudlaşması və (və ya) ondan məhrum olması;
- uğursuz sosial mühit, yəni şəxsin (ailənin) yaşaması, formalaşması və fəaliyyət göstərməsi üçün iqtisadi, sosial, siyasi və mənəvi şərtlərin olmaması.

2. Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə qulluq və kömək göstərə biləcək qohumların olmamasının müəyyən edilməsi qaydası.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 2013-cü il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə qulluq və kömək göstərə biləcək qohumların olmamasının müəyyən edilməsi Qaydası"na görə şəxsə (ailəyə) qulluq və kömək göstərə biləcək qohumlar dedikdə - əmək qabiliyyətli babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər və nəvələr nəzərdə tutulur.

Özünəqulluq qabiliyyəti olmayan şəxslər sosial xidmət göstərilməsi üçün ərizə ilə yaşayış yeri üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi *Nazirliyinin*

tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına (bundan sonra – Qurum), "DOST" mərkəzlərinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə ərizə ilə müraciət edirlər. Ərizədə həmçinin onlara qulluq və kömək göstərə biləcək qohumların (əmək qabiliyyətli babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər və nəvələr) olmaması qeyd edilir. Ərizə daxil olduqdan sonra sosial işçi yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Əhalinin Dövlət Reyestri Xidmətinə (şəxsin valideynləri, özü və övladları barədə) və digər aidiyyəti qurumlara sorğu göndərir. Həmin qurumlar tərəfindən qohumlar barədə məlumatlar göstərilməklə, 5 (beş) iş günü müddətində sorğuya cavab verilir. Sorğu göndərilən qurumlarda zəruri məlumatlar olmadıqda, *Qurumların*, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, bələdiyyələrin, mənzil istismar sahələrinin nümayəndələrinin, çoxmənzilli binaları idarə edən şəxslərin, eləcə də şəxsin qonşularının iştirakı ilə şəxsin qohumları barədə sosial işçi tərəfindən akt tərtib olunur.

Sorğunun və ya aktın nəticələri əsasında sosial işçi tərəfindən şəxsə qulluq və kömək göstərə biləcək qohumların olub-olmamasını özündə əks etdirən hesabat hazırlanır.
Qurum tərəfindən sosial işçinin hesabatı (sorğunun və ya aktın nəticələri əlavə olunmaqla) əsasında özünəqulluq qabiliyyəti olmayan şəxslərə kömək göstərə biləcək qohumların olmaması barədə qərar qəbul edilir

3.Şəxsin (ailənin) sosial xidmətə götürülməsi ilə bağlı müraciətlərə baxılması, qərar qəbul edilməsi qaydası və imtina edilməsi üçün əsaslar

Çətin həyat şəraitində olan şəxs sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına ərizə və ərizəyə əlavə olunmaqla, bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş müvafiq əsası təsdiq edən digər sənədlərlə müraciət edir.Çətin həyat şəraitində olan ailəyə sosial xidmət göstərilməsi üçün ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri müraciət edə bilər.

Çətin həyat şəraitində olan şəxsin (ailənin) maraqları çərçivəsində aşağıdakılar da müraciət edə bilərlər:

1. Şəxsin valideynləri, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi)
2. Bələdiyyələr
3. Qeyri-hökumət təşkilatları
4. Həmin şəxsin razılığı ilə digər şəxslər

Dövlət hakimiyyəti orqanları, bələdiyyələr çətin həyat şəraitində olan və sosial xidmətə ehtiyacı olan şəxslərin müəyyən edilməsi və bu şəxslərin sosial xidmətə götürülməsi üçün onlar barəsində məlumatları Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərirlər. Çətin həyat şəraitində olan şəxsə (ailəyə) sosial xidmət göstərilməsi barədə digər

şəxslərin müraciətləri zamanı qanuna uyğun olaraq sosial xidmət göstərilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilməlidir.

Sosial xidmətin göstərilməsi barədə müraciət daxil olduğu gündən sonra 5 iş günü ərzində şəxsin (ailənin) sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Sosial işçi ərizənin daxil olduğu gündən sonra 10 iş günü ərzində şəxsin (ailənin) sosial xidmətə olan tələbatının qiymətləndirilməsini və müəyyənləşdirilməsini həyata keçirir. Sosial işçi tərəfindən sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə hesabat və şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi plan hazırlanır.

Şəxsə (ailəyə) dövlət büdcəsinin vəsaiti hesabına sosial xidmətin göstərilməsi və ya sosial xidmətin göstərilməsindən imtina edilməsi barədə qərar sosial işçi tərəfindən hesabatın təqdim edildiyi gündən sonra 5 iş günü ərzində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qəbul edilir. Şəxsə (ailəyə) dövlət büdcəsinin vəsaiti hesabına sosial xidmətin göstərilməsi və ya sosial xidmətin göstərilməsindən imtina edilməsi barədə qərar 3 iş günü müddətində ərizəçiyə təqdim edilir (göndərilir). Sosial xidmətin göstərilməsindən imtina barədə qərarda imtinanın səbəbləri göstərilməlidir. Ərizəyə əlavə olunan sənədlərin əsli müraciət edən şəxsə qaytarılır.

Şəxsin (ailənin) sosial xidmətə götürülməsindən imtina üçün əsaslar aşağıdakılardır:

- şəxsin (ailənin) çətin həyat şəraitində hesab edilməsi əsaslardan azı birinin olmaması;
- təqdim edilmiş məlumatların və sənədlərin düzgün olmaması.

Dövlət büdcəsinin vəsaiti hesabına sosial xidmətin göstərilməsi barədə qərar qəbul edildiyi gündən şəxs (ailə) sosial xidmətə götürülür. Şəxsə sosial xidmətin göstərilməməsinin onun həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradacağı hallarda şəxs dərhal müvəqqəti sosial xidmətə götürülür. Şəxsin sosial xidmətə götürülməsi barədə qərar qəbul edildikdə müvəqqəti sosial xidmətin müddəti dayandırılmır və şəxs daimi sosial xidmətə götürülür. Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Sosial xidmət şəxsin (ailənin) yaşayış yeri üzrə göstərilir. Yalnız şəxsin (ailənin) zorakılığa məruz qaldığı və ya sosial yadırğama (dezadaptasiya), habelə sosial məhrumiyyət (deprivasiya) təhlükəsi yarandığı hallarda sosial xidmət yaşayış yerindən asılı olmayaraq göstərilir.

Çətin həyat şəraitində olan şəxsin (ailənin) sosial xidmət müəssisəsinə yerləşdirilməsi. Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş, özünün əsas həyati tələbatını müstəqil təmin edə bilməyən çətin həyat şəraitində olan şəxslər onlara baxmağa borclu olan əmək qabiliyyətli qohumlarının və ya qanuni nümayəndələrinin həmin şəxslərə qulluq edə bilməyəcəkləri barədə ərizələri olduğu hallarda, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin qərarına

əsasən dövlət sosial xidmət müəssisəsinə yerləşdirilə bilər. **Şəxsin dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi zamanı onların hüquqları nəzərə alınır.** Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

"Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 328 nömrəli qərarı ilə təsdiq edilmişdir. Həmin qaydalara görə çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir. Ödənişli sosial xidmət göstərilməsi üçün zəruri olan avadanlıq və vasitələrin dəyəri, nəqliyyat xərcləri sosial xidmət haqqının məbləğinə daxil deyildir və bütövlükdə sosial xidmət göstərilən şəxs tərəfindən ödənilir.

Sosial xidmət sahəsində dövlət sifarişləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilə bilər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi" Qaydasına görə dövlət sifarişləri bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları tərəfindən bilavasitə həyata keçirilən sosial proqram, layihə və ya ayrı-ayrı tədbirlərdən ibarət olmaqla, sosial xidmət üzrə vəzifələrin yerinə yetirilməsinə yönəldilir və müsabiqə əsasında verilir. Bu zaman sifarişçi qismində dövlət orqanı, icraçı qismində bələdiyyələr, fiziki və hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları çıxış edirlər. Dövlət sifarişlərinin verilməsi tərəflər arasında bağlanılmış sosial xidmət sifarişi üzrə müqavilə ilə rəsmiləşdirilir.

4.Çətin qaydası həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi və sosial xidmət göstərilməsi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 noyabr 2013-ci il tarixli 320 nömrəli qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası" valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, sağlamlıq imkanları məhdud uşaqlara, baxımsız və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə onlara qulluq və kömək edə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan şəxslərə (ailələrə), ictimai təhlükəli xəstəliyə tutulduğuna görə həyat fəaliyyəti məhdudlaşan şəxslərə, insan alverinin qurbanlarına və məişət zorakılığından zərər çəkənlərə şamil olunur.

Sosial xidmət müəssisələrinə yerləşdirilmə qaydaları aşağıdakı kimidir:

1. Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üzrə

Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial xidmət müəssisələrinə (dövlət uşaq müəssisəsinə) yerləşdirilməsi üçün onların valideynlərindən biri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə onların razılığı ilə digər şəxslər yerli icra hakimiyyəti orqanlarına ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1. uşağın şəxsiyyətini təsdiq edən sənəd;

2. valideynin (qəyyumun, himayəçinin) şəxsiyyətini təsdiq edən sənədin surəti (nikahdankənar doğulduğu təqdirdə - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbəsindən müvafiq arayış);

3. valideyn (valideynlər) vəfat etmişdirsə, ölüm haqqında şəhadətnaməsi və yaxud bu barədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinin arayışı;

4. uşağın yaşayış *yeri üzrə* qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;

5. valideynin (valideynlərin) daşınmaz əmlakına mülkiyyət hüququnu təsdiq edən sənədin surəti.

Uşağın valideyn himayəsindən məhrum olması səbəblərindən asılı olaraq, aşağıdakı sənədlər ərizəyə əlavə olunur:

1. valideynlər boşanmışdırsa - nikahın pozulması haqqında şəhadətnamənin surəti və valideynin razılığı;

2. valideynlərdən birinin və ya hər ikisinin həbsdə olduğu təqdirdə məhkəmənin müvafiq qətnaməsi;

3. valideynin (valideynlərin) əlilliyi varsa, bunu təsdiq edən Tibbi Sosial Ekspert Komissiyasının (bundan sonra - TSEK) müayinə aktından çıxarış.

Müraciətə daxil olduqdan 10 (on) iş günü müddətində "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsi nəzərə alınaraq yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarında baxılır, sonra Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın iclasının protokolundan çıxarış yerli icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə rəsmiləşdirilərək, uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.

2. Sağlamlıq imkanları məhdud uşaqlar üzrə

2.1. Təhsilə cəlb olunmayan sağlamlıq imkanları məhdud uşaqlar üzrə

Sağlamlıq imkanları məhdud 5 yaşından 18 yaşınadək təhsilə cəlb olunmayan uşaqların (bundan sonra - uşaqlar) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi üçün valideynləri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə onların razılığı ilə digər şəxslər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi *Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına, "DOST" mərkəzlərinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə* ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1. uşağın şəxsiyyətini təsdiq edən sənəd;

2. uşağın sağlamlıq imkanlarının məhdudluğunu təsdiq edən TSEK-in müayinə aktından çıxarış;

3. yoluxucu xəstəliklərin daşıyıcısı olmaması və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış;

4. uşağın yaşayış *yeri üzrə* qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;

5. 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

Sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə ərizə daxil olduğu gündən 5 (beş) iş günü müddətində uşaqların sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır. Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində uşaqların sosial xidmət müəssisəsinə yerləşdirilməsinə olan tələbatı sosial işçi tərəfindən qiymətləndirilir və hesabat hazırlanaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin *tabeliyində Sosial Xidmətlər Agentliyinə* göndərilir.

Hesabata təqdim olunmuş sənədlərlə birlikdə baxılaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin *tabeliyində Sosial Xidmətlər Agentliyi* tərəfindən uşaqların sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.

2.2. Təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqlar üzrə

Sağlamlıq imkanları məhdud 5 yaşından 18 yaşınadək təhsilə cəlb olunan uşaqların (bundan sonra - uşaqlar) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi üçün valideynləri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə onların razılığı ilə digər şəxslər yaşadığı ərazi üzrə rayon (şəhər) Psixoloji-tibbi-pedaqoji komissiyaya (bundan sonra - komissiya) ərizə ilə müraciət edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1. uşağın şəxsiyyətini təsdiq edən sənəd;

2. yoluxucu xəstəliklərin daşıyıcısı olmaması və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış;

3. uşağın yaşayış *yeri üzrə* qeydiyyatda olan şəxslər barədə müvafiq arayış;

4. 3 x 4 ölçüdə 2 ədəd fotoşəkil.

Komissiyada sosial xidmət müəssisəsinə yerləşdirilmə barədə ərizəyə daxil olduğu gündən 5 (beş) iş günü müddətində baxılır. Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində uşaqların psixoloji-tibbi-pedaqoji müayinəsi aparılır, inkişaf xüsusiyyətləri aşkarlanmaqla diaqnozu müəyyənləşdirilir və uşaqların xüsusi təhsilə olan tələbatı qiymətləndirilərək "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə uyğun olaraq komissiyanın qərarı və ərizəyə əlavə olunmuş sənədlər xüsusi təhsil müəssisəsinə göndərilir.

3. Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üzrə

Baxımsız və ya sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların (bundan sonra - yetkinlik yaşına çatmayanlar) dövlət sosial xidmət müəssisələrinə (sosial sığınacaq) yerləşdirilməsinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin *abeliyində Sosial Xidmətlər Agentliyi* tərəfindən "Yetkinlik yaşına çatmayanların baxımsızlığının

və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq aşağıda qeyd olunan sənədlər əsasında baxılır:

1. yetkinlik yaşına çatmayanın yazılı və ya şifahi müraciəti;

2. yetkinlik yaşına çatmayanın arzusunun nəzərə alınması onun mənafeyinə zidd olduğu hallar istisna olmaqla, 10 yaşına çatmış yetkinlik yaşına çatmayanın arzusu nəzərə alınmaqla, onun valideynləri, qohumları, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxsin razılığı ilə digər şəxslərin müraciətləri;

3. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyanın müraciəti;

4. sosial reabilitasiyaya ehtiyacı olan yetkinlik yaşına çatmayanların onlar üçün nəzərdə tutulmuş ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisəsinə yerləşdirilməsi haqqında şəhər, rayon polis orqanının qərarı.

Müraciət daxil olduqdan 3 (üç) iş günü ərzində, "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsi nəzərə alınaraq, yetkinlik yaşına çatmayanın şəxsiyyətinin müəyyənləşdirilməsi, ailəsi və qohumları haqqında məlumatların təmin edilməsi məqsədi ilə daxili işlər orqanına, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yanında Əhalinin Dövlət Reyestri Xidmətinə, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinə, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya və digər aidiyyəti qurumlara sorğu göndərilir, sağlamlıq vəziyyətinin yoxlanılması üçün ərazi üzrə səhiyyə idarə və müəssisələrinə müraciət edilir. Sorğuda tələb olunan məlumatlar göstərilməklə, 5 (beş) iş günü müddətində həmin qurumlar tərəfindən sorğuya cavab verilir. Sorğu göndərilən qurumlarda zəruri məlumatlar olmadıqda, uşağın yaşının və şəxsiyyətinin müəyyən olunması üçün məhkəməyə müraciət edilir. Qeyd olunan sənədlərə daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılaraq, uşağın sosial sığınacağa daimi yerləşdirilməsi barədə qərar qəbul edilir. Hüquq pozuntusu törədən uşağı saxlayan polis orqanı, onun valideynlərini bu barədə məlumatlandırmaqla, yerli icra hakimiyyəti orqanına müraciət edir. Müraciətə Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyanın iclasında baxıldıqdan sonra xüsusi pedaqoji yanaşma tələb olunan 8 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayan (14 yaşınadək uşaqların valideynlərinin, 14 yaşından yuxarı olan yeniyetmələrin şəxsi razılığı tələb olunur), böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayan, daim qanunazidd davranışlı, təhsildən yayınan, valideynlərlə ünsiyyətdə çətinlik çəkən, valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə çətin tərbiyə olunan hesab edilmiş yetkinlik yaşına çatmayan, müxtəlif hüquqpozmalara görə daxili işlər orqanları tərəfindən qeydiyyata alınmış, lakin islah olunması mümkün olmayan uşaqların açıqtipli xüsusi təlim-tərbiyə müəssisələrinə yerləşdirilməsi ilə bağlı Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiyanın iclasının protokolundan çıxarış yerli icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə rəsmiləşdirilir və uşağın şəxsiyyəti, sağlamlığı, təhsili və ailə vəziyyətinə dair sənədlərlə birlikdə 10 (on) gün müddətində Azərbaycan Respublikasının Təhsil

Nazirliyinə göndərilir. Sənədlərə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən baxılaraq, hüquq pozuntusu törədən uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə 5 (beş) iş günü müddətində göndəriş qəbul edilir. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə yerli komissiya ağır və ya xüsusilə ağır cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər və cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmış az ağır cinayət törədən 11 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayanlar barəsində onların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət qaldırır. ***Müəssisəyə yerləşdirilmə*** ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı uşağın şəxsiyyəti, sağlamlığı, təhsili və ailə vəziyyətinə dair sənədlərlə birlikdə yerli icra hakimiyyəti tərəfindən 10 (on) gün müddətində Azərbaycan Respublikasının Təhsil Nazirliyinə göndərilir. ***Müəssisəyə*** yerləşdirilmə ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qərarına təqdim olunmuş sənədlərlə birlikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən baxılaraq, 5 (beş) gün müddətində hüquq pozuntusu törədən uşağın sosial xidmət müəssisəsinə yerləşdirilməsi barədə qərar qəbul edilir.

ƏDƏBİYYAT

- F. Davies. “Changing Practice in Health and Social Care”, Sage. 2000
- S. Moore. “Social Welfare Alive!”. Stanley Thornes Publishers. 1998
- S. Banks. “Ethics and Values in Social Work”, MacMillan Publishers. 20155
- National Institute of Social Work. “Social workers: their role and tasks”. Warwick University Press. 2007
- M. Davies. “Companion to Social Work”. Blackwell Publishers, 2007
- M. Daly və J. Lewis. “The concept of social care and the analysis of
- contemporary welfare states” British Journal of Sociology, 2000
- M. Kautto. “Investing in services in West European welfare states”. Journal of European Social Policy, 2002

Sosial xidmətlərin yaradılması istiqamətində sosial layihələrin hazırlanması

PLAN

1. Layihə
2. Layihənin mərhələləri

3. Planlaşdırma prosesi
4. Sosial layihənin tərkib elementləri
5. Layihənin əsaslandırılması

Layihə – ayrılmış müvafiq resurslar və müəyyən olunmuş müddət çərçivəsində bir-biri ilə bağlı şəkildə yerinə yetiriləcək işlər kompleksidir. Layihə bir növ birdəfəlik fəaliyyətdir və bu fəaliyyət aşağıdakı məqamları özündə birləşdirir:

- Son məqsədə və mərhələlərarası vəzifələrə malik olması;
- Qiymətləndirilməyə məruz qala biləcək son nəticənin əldə olunması;
- Bir-biri ilə ardıcıl sürətdə bağlı işlərin həyata keçirilməsi;
- Müəyyən olunmuş müddət (başlama və başa çatma) çərçivələrinə malik olması;
- Məhdud sayda resursların (maliyyə, vaxt, məlumat, insani ehtiyatların) istifadəsi.

Layihənin mərhələləri

❖ **Ehtiyacların müəyyənləşdirilməsi**

İştirakçı aidiyyəti adamların, məqsədli qrupların ehtiyaclarını müəyyənləşdirir və gələcəkdə yerinə yetiriləcək vəzifələri dəqiqləşdirir. Yazılacaq təqdimat (təklif) real ehtiyacı ödəyəcək layihəni əhatə etməlidir. Donora ehtiyacları əsaslandırmaq üçün inandırıcı sübutlar olmalıdır. Eyni zamanda təşkilatın layihəni həyata keçirmək bacarığı və yaxşı idarəedici heyətin olması və digər imkanlar göstərilir.

❖ **Layihənin planı (dizaynı).** Buna layihənin hazırlanması, sənədləşdirilməsi, layihə büdcəsi və vaxt cədvəli daxildir. Bu sahədə iş üçün əlavə həmkarları da dəvət etmək yaxşıdır. Layihə yazılarkən donorun göstərdiyi meyarlar (kriteriyalar) nəzərə alınmalıdır.

❖ **Layihənin bəyənilməsi (Təsdiqi).** Layihənin donor tərəfindən qəbulu və hər iki tərəfin təmsilçilərinin imzalaması. Layihənin idarə olunması qaydalarını əks etdirən müqavilənin və ya digər eyni dərəcədə bərabər tutulan sənədlərin qəbulu və imzalanmasıdır.

❖ **İcra (Tətbiq).** Bu layihədə nəzərdə tutulanların ardıcıl olaraq həyata keçirilməsi əməliyyatıdır. Plan və ya dizayn sənədlərində göstərilən fəaliyyətlərin vaxta görə icra edilməsi. Lazımi idarəçiliyin qurulması, hesabat və yoxlamanın yerinə yetirilməsi və tələblər.

❖ **Monitorinq.** Məlumatların toplanılması, müzakirələr, prosesin necə getməsinə nəzarət. Bununla əldə edilmiş məlumatlardan prosesin plana uyğunluğu müəyyənləşdirilir və layihə icrasına lazımi inkişaf verilir. Maliyyə hesabatı monitorinq prosesinin bir hissəsidir.

❖ **Qiymətləndirmə.** Layihənin nəticəsi və təsiri qiymətidir. Qiymətləndirmə layihənin sonunda və yekun monitorinq zamanı aparılır. Bəzən bu donor və ya xüsusi müəyyənləşdirilmiş adamlar tərəfindən qiymətləndirilir. Nəticə, məlumatlardan istifadə edilərək növbəti maliyyələşdirmə müəyyənləşdirilir.

❖ **Yekunlaşdırma.** Son yekun və maliyyə hesabatı. Əmin olunmalıdır ki, büdcədən düzgün və nəzərdə tutulduğu kimi istifadə edilib.

Planlaşdırma prosesi

Layihənin planlaşdırma prosesi bir neçə ardıcıl addımlardan ibarətdir:

- Layihənin son məqsədinin müəyyən olunmasından;
- Məqsədə çatmaq üçün əsas strategiyanın seçilməsindən;
- Layihənin hissələr və ya da addımlara bölünməsindən;

- Hər bir addımın və ya da hissənin yerinə yetirilməsi üçün gərəkli olan vaxtın müəyyən olunmasından;
- Atılacaq addımların ardıcıllığının dəqiqliklə müəyyən olunmasından və vahid işlər qrafikinə salınmasından;
- Hər bir addım və ya hissə üçün gərəkli olan maliyyənin (xərclərin) hesablanmasından və vahid büdcə şəklinə salınmasından;
- Layihə icraçılarının, onların sayının, vəzifələrinin, öhdəliklərinin və məsuliyyətlərinin müəyyən olunmasından;
- Layihə icraçıları və ya da layihənin komandası üçün xüsusi təlimin keçirilməsi zərurətinin aydınlaşdırılmasından;
- Layihə çərçivəsində həyata keçiriləcək siyasətin və prosedurların işlənilməsindən.

TƏKLİF FORMASININ YAZILMASI

Təklif donorun tələblərinə uyğun olaraq bir və ya da bir neçə səhifədə yazıla bilər. Təklif məktub və ya rəsmi sənəd formasında tərtib edilə bilər.

Təklif formaları aşağıdakı donor qismində iştirak edən strukturlara göndərilə bilər:

a) dövlət fondlarına;

b) özəl fondlara və qrumlara.

SOSİAL LAYİHƏNİN TƏRKİB ELEMENTLƏRİ

Titul vərəqi - yadda qalan olmalıdır. Sizin layihənizin vizit kartıdır. Donor üçün zəruri sayılan məlumat layihənin bir vərəqində yerləşdirilir və sayı birdən artıq olmamalıdır. Çox vaxt donor özünün titul vərəqi formasını təklif edir. Belə olan halda təklif yazan şəxs həmin vərəqi (Donorun təqdim etdiyi blank formasını) səliqəli doldurmalıdır. Titul vərəqinə aşağıdakı bəndlərdən ibarət məlumat daxil edilməlidir.

Layihənin adı: kifayət qədər qısa və gözə çarpan, dilə yatan olmalıdır

İcraçı-təşkilat: təşkilatın adı, onun ünvanı, telefon nömrəsi, hesab nömrəsi. Layihənin bu bəndində ayrıca sətirlə icraçı-təşkilatın adı göstərilməlidir. İcraçılar bir neçə təşkilat olduğu halda ən əsasının adı xüsusilə vurğulanmalıdır. Ya da ki, layihə QHT-nin hansısa Departamenti tərəfindən hazırlandığı, icrası isə digər departamentlərin iştirakı ilə olduğu halda layihə bütövlükdə QHT-nin adından verilir.

Layihənin icrasını dəstəkləyən qurum: hökumət strukturu, beynəlxalq agentliklər və ya da ayrı-ayrı QHT-lər ola bilər. Yəni bu o tərəflərdir ki, hansılar ki, müsabiqə üçün təqdim olunmuş layihənin icrasında maraqlıdır. Əgər həmin tərəflərin adlarını göstərilməsinə dair razılığı varsa, onların adlarını da layihənin titul vərəqində göstərmək olar. Bu layihənin maliyyə cəhətdən dəstəklənməsində uğur gətirə bilər.

Layihənin rəhbəri: bu şəxsin adı, soyadı, atasının atı, elmi dərəcəsi, elmi adı, çalışdığı yer, vəzifəsi, əlaqə telefonları, ünvanı, elektron ünvanı və s. koordinatları göstərilməlidir. Ətraflı məlumat ona görə lazımdır ki, ehtiyac olduqda donor məhz bu şəxslə əlaqə saxlayır. Layihə rəhbəri layihənin icrasına cavabdehlik daşıyan şəxsdir və o, layihə vəsaitlərinin effektiv istifadəsinə görə məsuliyyət daşıyır. Ola bilər ki, layihənin rəhbəri birisi, müəllifi isə digəri olsun. Belə olan halda titul vərəqində layihənin müəllifi də ayrıca göstərilməlidir.

Layihənin coğrafi göstəriciləri: layihənin harada (şəhər, rayon mərkəzləri, rayon, bölgə və s.) keçirilməsi daxildir.

Layihənin icra müddəti: adətən aylarla göstərilir. İki-üç illik layihələr də ola bilər.

Layihənin büdcəsi. Titul vərəqinin bu bəndinə daxildir:

- layihənin ümumi müddəti və ya da birinci ili üçün donordan istənilən məbləğ;
- layihənin ümumi (təşkilatın qoyduğu öz bəhrə və vəsaiti daxil olmaqla) büdcəsi.

PROBLEMİN QOYULUŞU

Problemin qoyuluşu - təsvir edir ki, bu layihənin icrasına zərurət nəyə görə yaranmışdır. Eyni zamanda burada ilk olaraq göstərilə bilər ki, layihənin məqsəd və vəzifələri problemlə hansı uyğunluq təşkil edir.

Layihənin ətraflı yazılması üçün təşkilatın ehtiyaclarının araşdırılması və əsas problemi müəyyən edərək onun həlli yollarının tapılması lazımdır. Siz yalnız problemin həqiqətən mövcud olduğunu və onun təsirini araşdırmamalısınız, onun səbəbi, keçmişdə onun həlli üçün nə edilmiş və cəmiyyətdə kimlər onun həllində əsas rol oynadığını göstərməlisiniz. Həmçinin siz digər yerlərdə oxşar hallarda nələr edildiyini öyrənməlisiniz. Bu sizin layihə üçün fəaliyyətin seçimində və təsvirində yardımçı olacaq, digər problemin vacib aspektlərinə soyuqqanlılıqla yanaşdığınızı sübut edəcəkdir.

Sənədin bu hissəsinə bəzi maraqlı tərəflərlə, layihənin hədəf qrupları ilə söhbət və ya müsahibələr daxil edilməlidir. Təhlil anketi problemin davamlılığını və həlli yolunun müəyyənləşdirilməsinin bir metodu və təşkilatın layihələri üçün əlavədir. Nəhayət, digər təşkilatların və tədqiqat mərkəzlərinin hesabatlarını təhlil edərək, siz problem və onun həlli yolları haqqında daha çox məlumat ala bilərsiniz. Təşkilatın ehtiyacları işçi heyətin üzvləri və ya xarici məsləhətçinin köməkliyi ilə ödənilə bilər. Siz yadda saxlamalısınız ki, hər hansı problemin həllində kiməsə ümid etməməlisiniz, əks halda siz uğursuzluğa düçar ola bilərsiniz.

«Problemin qoyuluşu» bölməsinin dəyərləndirilmə meyarları:

- Təsvir edir ki, layihənin icrasına niyə zərurət yarandı.
- Tam aydın olur ki, hansı səbəblər təsir etdi ki, müəllif belə bir layihə hazırladı.
- Problem oxucu üçün nə dərəcədə vacib və əhəmiyyətlidir.
- Müraciət edən təşkilatın məqsəd və vəzifələri ilə nə dərəcədə bağlıdır.
- Görülən işlər qlobal problemlərin həllinə yönəldilmir.
- Problemin miqyasını göstərən statistik rəqəmlərin, ekspert və mütəxəssislərin tövsiyə və məsləhətlərinin mövcudluğu.
- Problemin qoyuluşu layihədən bəhrələnəcək şəxslərin nöqteyi-nəzərlərindən çıxış edərək təsvir edilir.
- Bölmə boş, quru sözlərlə zəngin müddəalardan azaddır.

LAYİHƏNİN ƏSASLANDIRILMASI

Layihənin əsaslandırılması – ona görə vacibdir ki, problemin yalnız göstərilməsi və donorun inandırılması ki, hansısa vəziyyət problemdir kifayət qədər lazımlı şərait yaratmır və ya da əsas vermir ki, donor qrantı məhz sizin təşkilata versin. Buna görə çox vacibdir ki, siz layihəni elə əsaslandırmalısınız ki, donor onu dəstəkləsin. Bunun üçün layihənin bu bölməsində aşağıdakı suallara ətraflı cavab verməyiniz gərəkdir:

- Sizin layihə nəyə görə əhəmiyyətlidir? Donor nəyə görə məhz sizin layihənizi maliyyələşdirilməlidir?
- Azərbaycanda bu səpkidə fəaliyyətlərin aparılması üçün hansı zərurətlər var?
- Azərbaycanda hazırda bu istiqamətdə görülən və ya keçmişdə görülmüş bənzər tədbirlər varmı?
- Bu layihənin həyata keçirilməsi üçün zərurətlər nədən irəli gəlir?
- Təqdim olunan layihə əvvəllər görülmüş müvafiq işlərlə nə dərəcədə əlaqəlidir və ya bu işlərin miqyasının genişləndirilməsi məqsədlərini güdürmü?
- Bu layihə indiyədək görülmüş müvafiq işlərin təkmilləşdirilməsinə nə kimi təsirlər göstərə bilər?

MƏQSƏD VƏ VƏZİFƏLƏR

Hər bir layihənin əsas hissəsi onun fəaliyyətinin yazılışıdır. Fəaliyyət cəmiyyətin məlumatlandırılması kampaniyasının bir hissəsi olan kitabçaların paylanması kimi asan ola bilər. Həmçinin o böyük layihələrin bir hissəsi ola bilər. Məsələn, köhnə binanın təmiri nəticəsində onu kompüter təlimi mərkəzinə çevirmək. Sizin planlaşdırma prosesiniz layihənin uğurla başa çatması üçün bütün hissələri müəyyənləşdirməli və təminat verməlidir. Layihə təklifini hazırlayan zaman ehtiyacları və ilk addımları aydınlaşdırmalı, sonra siz bu fəaliyyəti müəyyənləşdirməliniz və bütün lazımi vəzifələri yerinə yetirməlisiniz.

Beləliklə, layihənin Məqsəd və Vəzifələri - bir növ göstərir ki, layihə başa çatdıqdan sonra geniş mənada hansı son nəticələr əldə olunacaq - bir növ ümumi bəyanatlar tipidir. Eyni zamanda layihənin məqsədi müəyyən mənada kəmiyyət ölçülərinə gəlməyə bilər. Misallar: Məqsəd layihənin nə üçün keçirilməsini özündə ehtiva edən anlayışdır. Məqsədlər uzunmüddətli və qısamüddətli ola bilər. Hərdən elə ola bilər ki, uzunmüddətli məqsədlərə çatmaq üçün qısamüddətli məqsədlərə nail olmaq gərəkdir. Bir layihə və ya proqram daxilində bir neçə qısamüddətli məqsədlər varsa dəqiq göstərmək lazımdır ki, onlar bir-biri ilə və eyni zamanda uzunmüddətli məqsədlə necə bağlıdır, əlaqəlidir.

Nəzərdən qaçırmaq olmaz ki, layihənin məqsədi abstrakt və ümumi ola bilməz. Belə olan halda yalnız layihənin məqsəd və vəzifələri nəticəni konkret göstərməlidir. Məqsədlərin əksəriyyəti layihənin icrası zamanı dəyişiklikləri müəyyən edir və onların necə protokollaşdırılmasını, görülməsini və sənədləşdirilməsini tərtib edir. Layihənin nəticələri haqqında məlumat hesabatda, görüşlərdə, filmlərdə, mətbuat konfranslarında izah oluna bilər. Ən vacibi odur ki, məqsədlər layihənin nəticəsinin necə ölçüləcəyi haqda bəhs etməlidir.

Vəzifələr məqsədə aparan yollardır. Vəzifələr və nəticələr, yəni onlar PROBLEMİN QOYULUŞU bölməsində təsvir etdiyiniz çatışmamazlıqların həll olunması və ya da hansısa vəziyyətin pozitiv mənada dəyişiklikləri kəmiyyət qiymətləndirilməsinə gələndir. Daha konkret bu o deməkdir ki, vəzifələr göstərməlidir ki, layihə icra olunduqdan sonra problemin vüsət tapdığı mövcud sahədə və konkret vəziyyətdə hansı pozitiv dəyişikliklər başa verəcəkdir. Buna görə də vəzifələr mümkün qədər konkret və yığcam olmalıdır.

Vəzifələrdə siz layihənin gərəkli olması dərəcəsini əks etdirən kəmiyyət göstəricilərini də təqdim edə bilərsiniz. Göstəricilər layihənin məqsəd və vəzifələrini dəqiq müəyyən və izah edən, həm də onun effektliliyini ölçə bilən alətdir. Əgər biz layihədə nəyinsə «gücləndirilməsi», «yaxşılaşdırılması» və «artırılması» barəsində danışırıqsa, aydın deyil ki, hansı konkret nəticə vəzifələrin yerinə yetirildiyini, layihənin icra olunduğunu hesab etməyə imkan verir.

Yadda saxlayın! Layihədə vəzifələri ölçə biləcək göstəriciləri verməsəz və ya da bildirsəz ki, nəticələri ölçə biləcək statistik göstəriciləri hansısa səbəblər ucbatından verə bilmirsiz bu o deməkdir ki, sizin layihəniz hiss olunan dərəcədə effektli olmayacaq.

Dəqiq bilmək vacibdir ki, hər bir fəaliyyət onun məqsədini müəyyənləşdirəndən sonra başlayır. Məqsəd layihənin əsas vəzifəsini və ya onun fəaliyyətlərindən birini başa salır, həmçinin qısa, ilkin yığcam fəaliyyət üçün son nəticələri və əsas metodları cəmiyyətə başa salır.

Misal üçün: Məqsəd: Biz 500 yemək səbətini 500 ailə arasında üç rayon ərazisində paylayacağıq.

Bu məsələ konkret şəkildə məqsədin yerinə yetirilməsi və ya yerinə yetirilməməsini təsvir edir. Əgər qeyd olunan fəaliyyət, (a) 500 səbəti (b) 500 ailə arasında (v) 3 ərazidə həyata keçirməzsə, onda bu fəaliyyət uğursuzdur. Məqsədin bir hissəsinə nail olmamağı tam uğursuzluq adlandırmaq olmaz. Məsələn, əgər bir səbət o ərazidə yerləşən hər bir ailə nümayəndəsinə verilibsə, o fəaliyyət uğurla başa çatmışdır. Lakin ailələrin müəyyənləşdirilməsi uğursuz idi. Əgər səbətlər üç göstərilən ərazinin ikisində paylanıbsa, fəaliyyət hələ də uğurludur, lakin düzgün ərazi seçmə prosesi, icazə alması qeyri düzgün yolla həyata keçirilib. Gördüyünüz kimi, bu fəaliyyət digər fəaliyyətlərin uğurla başa çatmasından asılıdır, deməli diqqətli planlaşdırma çox vacibdir. Fəaliyyət ərzində öyrənilmiş dərslər gələcəkdə daha yaxşı planlaşdırma üçün yadda saxlanılmalıdır.

Problemi və ehtiyacları müəyyənləşdirəndən, layihənin təklif formasını hazırlayandan sonra siz layihənin maliyyələşdirməsi üçün bütün hazırlıqları etməlisiniz. Bu çox vacib məsələ olduğundan biz onu aşağıdakı hissədə dəqiqliklə müzakirə edəcəyik. Maliyyələşdirmə prosesinə əmin olandan sonra siz layihənin həyata keçirilməsinə başlamalısınız.

METODLAR

Metodlar – layihənin bu bölməsində müəyyən olunmuş nəticələrin əldə olunması və qarşıya qoyulmuş vəzifələrin həlli üçün zəruri sayılan tədbirlər göstərilir. Məqsədinizə necə çatmaq üçün siz lazımlı metodların hazırlanmasında diqqətli olmalısınız. Layihəyə nəzarət edənlər fəaliyyətin necə həyata keçməsini, hansı avadanlıq və ləvazimatın lazım olduğunu, işçi heyətin nə edəcəyini, hansı əlavə resursların işlənəcəyini, həmin fəaliyyətlərin necə və harada həyata keçiriləcəyini və s. müəyyən etməlidirlər. Siz burada nəinki öz strategiyanızı hətta öz seçiminizi başa salmalısınız. Siz nəyə görə bu metodu seçdiyinizi təsvir etməlisiniz və nəyə görə bu cür optimal nəticə əldə olunduğunu sübuta yetirməlisiniz. Alternativ metodların müəyyənləşdirilməsi məqsəd daşıyan metoddur, yəni mümkün variantların, alternativlərin nəzərdən keçirilməsi sizin metodologiyanın vacib aspektidir və bu məqama donor xüsusi diqqət yetirir. Yaxşı hazırlanmış metodlar əsasında siz sponsorların etibarını qazana bilərsiniz. Çünki donor üçün ilk növbədə maraqlısı odur ki, siz bu və ya digər üsulu hansı meyarlara görə seçmişsiniz. Layihə problemin anlayışını təsvir etməsə və ya realistik metodu göstərməsə heç nəyə nail ola bilməyəcək, layihənin effektivliyi bir növ onun realistik olmasından və kifayət qədər əsaslandırılmış olduğundan asılıdır. Təcrübənizi təklifin tərkibində göstərmək vacib məsələdir və təşkilatınızın layihə keçirmək imkanını sübut edir.

Layihənin bu bölməsində əsas diqqət layihə üzrə görüləcək işlərin sxeminə və təqvim planına yönəldilir. Qısa şəkildə bu bənddən aydın olmalıdır ki, tədbirlər (aksiyalara, hərəkətlər və s.) kim və nə vaxt icra edəcək, tədbirlər hansı ardıcıllıqla yerinə yetiriləcək, icra edildiyi zaman hansı resurslardan (ehtiyatlar və s.) istifadə olunacaq.

Vəzifələrlə metodları eyni tutmaq səhvdir. Əgər vəzifə NƏ ETMƏK və ya da HANSI DƏYİŞİKLİKLƏR əldə etmək istəyirik sualına cavab verirsə, metodlar onu NECƏ ETMƏK sualına cavab verir.

Əlavə olaraq təklifin bu bölməsində aşağıdakı suallara da ətraflı cavab vermək olar:

- Nəzərdə tutulan tədbirlər planı gözlənilən nəticələri əldə etməyə necə yardım edəcək?
- Təqdim edilən layihənin izahı nə qədər detallaşdırılmış, xüsusiləşdirilmiş və aydın olarsa bir o qədər təqdirəlayiq olar.

«Metodlar» bölməsinin dəyərləndirilmə meyarları:

- Bölmədən aydın olacaqdır ki, nə ediləcək, həmin fəaliyyətləri kim edəcək, necə edəcək, hansı ardıcıllıqla, və bu fəaliyyətlər üçün hansı resurslar cəlb olunacaq.
- Layihənin icrası zaman qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün ancaq gərəkli olan və eyni zamanda layihənin ümumi məbləğinə tam uyğun gələn tədbirlər həyata keçiriləcək.
- Bölmədə layihə çərçivəsində keçiriləcək tədbirlər dəqiqliklə göstərilir.
- Nəyə görə məhz həmin tədbirlərin seçilməsi səbəbləri aydındır.
- Tədbirlərin ardıcıllığı da tam aydın və lazımi dərəcədə inandırıcıdır.
- Layihənin idarə olunmasında iştirak edənlərin tərkibi də məlumdur.
- Layihə icraçılarının tərkibi və öhdəlikləri geniş təsvir edilir.

- Layihənin kimə xidmət etməsi və həmin insanların, qrupların, obyektlərin necə müəyyənləşdirilməsi də aydın şəkildə təsvir edilir.
- Problem/Məqsəd/Vəzifə/Metod (P/M/V/M) məntiqi silsiləsi təbiidir.

GÖZLƏNİLƏN NƏTİCƏLƏR

Gözlənilən nəticələr - təklifin bu bölməsində vəzifələrin icrasında sonra əldə olunan nəticələr təsvir edilir. Daha konkret şəkildə bu bölmədə aşağıdakı suallar cavablandırılmalıdır:

- Layihə nəyə nail olacaq və bu layihədən kimlər bəhrələnəcək (layihə hansı auditoriya üçün nəzərdə tutulub)?
- Sizin layihə ilə ilk dəfə tanış olan şəxsə tədbirləri görəcəyiniz və bu sırada əldə etdiyiniz nəticələr haqqında təxmini təsəvvür yaratmaq üçün lazımi informasiya verirmi?
- Layihə həyata keçirildiyi təqdirdə nə kimi məqsədlərə nail olacaq? Bu layihə kimlərə və necə təsir göstərəcək?

Layihənin «Gözlənilən nəticələr» bölməsində həm də müəyyən mənada qlobal məna kəsb edən sualları da cavablandırmaq olar. Bu kimi yanaşma layihənin dəstəklən-məsində müsbət rol oynayar. Belə ki, göstərmək olar ki, layihənin Azərbaycanda hər hansı bir sahənin inkişafında uzunmüddətli nəticələrin əldə edilməsinə necə köməklik edəcək. Bundan başqa sizin layihənin ünvanlandığı auditoriya bu layihədən özləri üçün necə bəhrələnə biləcəklər.

QİYMƏTLƏNDİRMƏ (DƏYƏRLƏNDİRMƏ), MONİTORİNQ VƏ HESABAT

Qiymətləndirmə (Dəyərləndirmə) Və Hesabat - belə bir bəndin layihə təklifinə daxil edilməsi iki səbəbə görə zəruridir: birincisi, görülmüş işlərin effektivlik dərəcəsini bütövlükdə qiymətləndirmək və başa düşmək ki, qarşıya qoyulmuş məqsədlərə necə nail olundu (bu kimi hərəkət nəticələrin qiymətləndirilməsi deməkdir); ikincisi, layihənin gedişatı barəsində, müəyyən mərhələləri haqqında məlumatın əldə olunması lazım ola bilər ki, bu da sonradan hansısa vəzifələrin (öhdəliklərin) düzəlişinə şərait yarada bilər ki, bu kimi hərəkət işlərin gedişatının və ya da monitorinqin qiymətləndirilməsi adlanır.

Təklifin bu bəndində tam aydın olmalıdır ki:

- Layihənin məqsədlərinə çatdığını öyrənmək üçün onu necə qiymətləndirmək niyyətindəsiniz;
- layihənin icra olunması prosesinə necə nəzarət edəcəksiniz;
- görülmüş işlər və xərclənmiş vəsait barəsində hesabatı hansı formada hazırlayacaqsınız.

İki istiqamətdə sizin layihə dəyərləndirilməlidir.

Birincisi, işin bütünlüklə effektivliyi məqsədə nə dərəcədə nail olunması ilə dəyərləndirilir. Belə dəyərləndirilməyə nəticələrin dəyərləndirilməsi deyilir.

İkincisi, dəyərləndirmə layihənin yerinə yetirildiyi prosesdə məlumatlar almaq vasitəsi ola bilər. Bu məlumatlar ona görə lazımdır ki, işin gedişində layihəyə düzəlişlər verilsin. Belə dəyərləndirməyə işin gedişini dəyərləndirmə də deyilir.

Ölçüyə gələn vəzifələr effektiv dəyərləndirmə üçün təməl hazırlayır. Əgər sizin layihəni dəyərləndirmək üçün hansı ölçülərin uyğun gəlməsini tapmaq sizə çətindirsə, yenidən məqsədlər və vəzifələr bölməsinə baxın, güman ki, onlar yetərincə konkret deyil.

Nəticələrin qiymətləndirilməsi

Layihə başa çatdıqdan sonra nəticələrin qiymətləndirilməsi prosesində siz müəyyən edəcəksiniz ki, :

- layihənin məqsədinə nail olunubmu;
- layihə çərçivəsində göstərilən problemlə bağlı vəziyyət pozitiv mənada dəyişibmi;
- layihədə göstərilməyən digər pozitiv və ya da mənfi nəticələr də olubmu;
- layihənin icrası üçün seçilən vasitələr (üsullar) uğurlu idimi;
- layihənin uğurlu həyata keçməsi və ya da uğursuzluğa düçar olunmasına səbəb olan amillər hansılar idi.

Monitorinq

Monitorinq layihənin icra olunma prosesinə arası kəsilməyən nəzarətdir. Daha dəqiq desək monitorinq plana əsasən tərəqqini, nəticəni və təsirləri qiymətləndirmək üçün layihə ərzində, sadə idarəetmə vasitəsi olan, informasiya toplanması prosesidir.

Monitorinq nə üçün lazımdır?

1. Öyrənmək, başa düşmək və həvəsləndirmək

Maraqlı tərəflər nəyin baş verdiyini öyrənir və bunun təsirləri haqqında düşünür. Əldə olunmuş nəticələr imkan verir ki, gələcəkdə icra olunacaq layihələrin effektivliyini təmin edə biləcək yanaşmalar sistemi yaradılsın.

Monitorinq zamanı layihənin rəhbəri işlərin qrafiki, daxil olan resurslar və digər şəraitlər (yəni layihəyə münasibətdə kənar şəraitlər nəzərdə tutulur) barəsində məlumat toplayır, görülən işlərin planlaşdırılan effektliliyini yoxlayır.

Eyni zamanda tərəqqinin əldə olunması haqqında təsəvvürlər yaradır. Nəyin baş verdiyini tam aydınlaşdırır.

2. Məlumatın əldə edilmə metodudur

Layihə çərçivəsində keçirilən Monitorinq bir necə üsulla həyata keçirilə bilər; Sorğular; Sadə suallar; İştirakçı metodlar - iştirakçıların bacarıq və biliklərinin qiymətləndirilməsi; Qeydiyyatın aparılması; Hesabatlar; Gündəlik hadisələrin (halların) öyrənilməsi; Kəmiyyət və keyfiyyət məlumatlarının fərqi; Kəmiyyət məlumatlarını necə toplanılması.

3. Məlumatların təhlili

Təhlil dəqiq və anlamlı olmalıdır. Nəticələr isə üzdə və ya da hiss olunacaq dərəcədə olmalıdır.

4. Layihəni idarə edərkən - dəyişiklikləri nəzərdən keçirərkən və münasib qərarlar qəbulunda istifadə olunması

Plan üzrə tərəqqini qiymətləndirmək imkan verir. Problemləri müəyyən edir. Resurs, fəaliyyət və vəzifələri nizamlayır. Monitorinqə əsasən siz bilə bilərsiniz ki, layihə plana uyğun həyata keçirilir yoxsa yox.

LAYİHƏNİN DAVAMİYYƏTİ

Layihənin davamiyyəti – izah edir ki, təklif hazırlayan hazırda icra olunan layihənin nailiyyətlərini hansı vəsaitlər, resurslar hesabına qorumaq və genişləndirmək niyyətindədir. O, donoru inandırmalıdır ki, qrantın vəsait başa çatdıqdan sonra təşəbbüsün dəstəklənməsi üçün əlavə maliyyə tapacaqdır. Siz hətta layihənin həyata keçirilməsi müddətində və ya həyata keçirildikdən sonra müəyyən xidmətlər üzrə kiçik ödəniş tələb edə bilərsiz.

Misal üçün, müştərilərə hansısa xidmət və informasiya üçün ödənişli haqq alacaqsınız və ya siz hər hansı bir qeyri-qrant maliyyə mənbələri axtarmaq fikrindəsiniz. Daha yaxşı olardı ki, donordan tam asılı olan deyil, daha real özünü maliyyələşdirmə imkanı olan layihələr həyata keçirmiş olasınız. Çünki heç bir sponsor təşkilatınızı himayəyə götürməyə və təşkilatın işini həmişəlik maliyyələşdirməyə razı olmayacaq. Onlar adətən təşkilatın qrant müddəti başa çatdıqdan sonra layihənin davam etməsi üçün lazım olan vəsaiti necə əldə edəcəyiniz barədə məlumat əldə etmək istəyir.

Layihənin gələcəkdə donorlardan asılı olmayaraq müstəqil fəaliyyət göstərməsini təmin etmək məqsədilə layihə həyata keçirildiyi müddət ərzində nə kimi tədbirlər görəcəyinizi də layihənin bu bölməsində xüsusilə vurğulamalısınız. Bu bəndin geniş şəkildə yazılması xüsusilə o zaman gərəkdir ki, əgər təklif yazan layihədə əksini tapmış ideyanın sonradan da daha yüksək səviyyədə realizəsini vurğulayır.

Layihənin bu bölməsində siz donora desəsiniz ki, davamiyyətin təmin etmək üçün sonradan digər donora müraciət etmək niyyətiniz tam inandırıcı səslənməz. Bunun üçün siz göstərməlisiniz ki, nəzərdə tutduğunuz ideyalar reallaşdırmaq üçün əlavə vəsaiti haradan və necə əldə edəcəksiniz. Məsələn, layihə çərçivəsində pulsuz məsləhətlərin verilməsi, hansı xidmətlərin göstərilməsi nəzərdə tutulursa, bu vəzifələrin gələcəkdə pullu əsasda həyata keçirmək fikriniz və buna dair planlarınız varmı? Əgər varsa, bu barədə geniş yazın.

Sosial layihənin büdcəsi

BÜDCƏ NƏDİR? Təşkilat layihə hazırlayarkən nəzərə almalıdır ki, büdcəni hazırlayarkən hər donorun müxtəlif cür şərtləri ola bilər. Bildiyiniz kimi,özəl fondlarda adətən, dövlət fondlarına nisbətən daha yığcam məlumat tələb olunur. Ona görə də indi göstərəcəyimiz büdcə elə formada tərtib olunub ki, həmin donorların çoxunun tələblərinə cavab verir. Müəyyən dəyişikliklər aparmaqla ondan özəl fondlarla və dövlət qurumlarına layihə təqdim olunan zaman istifadə etmək mümkün olar. Göstərdiyimiz büdcənin **üç** hissəyə bölmək olar: 1) əmək haqqının verilməsi; 2) birbaşa xərclər; 3) əlavə xərclər.

Büdcənin planlaşdırılmasında məqsədlər və vəzifələr bölməsinə baxmaq yaxşı olar. Misal üçün, tərtib etdiyiniz proqram zamanı işçinin hər hansı bir vəzifəni icra etməsi üçün zəhmət haqqı tələb olunmur və yaxud bu təşkilatın öz vəsaiti qrafasına aid olunursa bu cür layihələr daha ucuz olur və donor tərəfindən maliyyələşmə haqqında qərar qəbul olunan zamanı müsbət qarşılana bilər. Siz proqramın kontekstində işçilərin mühüm vəzifələrinin siyahisini tutmaqdan başlayın. Eləcə də lazımlı avadanlıqların, yol xərclərinin siyahısını və digər lazımi əşyaların siyahısını tutun. Əgər belə etməsəniz, büdcə ilə layihə bir-birinə uyğun gəlməyəcək.

Büdcənin tərtib olunması

Büdcəni tərtib etmək üçün aşağıdakılara diqqət yetirmək məsləhətdir:

Zəhmət haqqının verilməsi

Maaşlar, qonorarlar: Bu bölməyə bütün işçilərin vəzifələrini qeyd etməklə onların siyahısını əlavə edin. Misal üçün: Əgər siz layihənin koordinatoru vəzifəsinə qəbul edilən işçiyə 200 AZN miqdarında əmək haqqı verirsinizsə və qrantın verildiyi müddətdə bütöv iş rejimi ilə işləyirsə və fonddan onun əmək haqqını maliyyələşdirməyi xahiş edirsinizsə, onda bu cür ola bilər.

Belə üsulla siz layihənin bütün personalı üçün siyahı tuta bilərsiniz. Əgər işçilərdən kim isə digər mənbədən maaş alırsa, onda onun maaşını " mövcud məbləğ" qrafasına yazmalısınız. Donora tələb olunan məbləği isə "tələb olunan məbləğ" qrafasına daxil edin.

Əsas mühüm şərtlərdən biri də sizin şəxsi və yaxud digər mənbələrdən əldə etdiyiniz maliyyədir. Bu məbləği "mövcud məbləğ" sütununda qeyd etmək lazımdır. Dövlət fondları bəzən tələb edirlər ki, qrant alan təşkilat layihənin bir hissəsini öz maliyyəsi hesabına həyata keçirsin. Siz bunu pul və ya digər resurslar hesabına edə bilərsiniz. Əgər siz işçiyə əmək haqqı verəcəksinizsə pulla verirsiniz, əgər könüllülər işləyirsə, öz resurslarınızla

verirsiniz. Könüllülərin işindən istifadə etsəniz, gərək bunu maaş verəcəyiniz hallarda olduğu kimi sənədləşdirəsiniz. Bütün görülən işləri yazın. Sizin sənədləri yoxlaya bilərlər. Çalışın ki, sənədlərinizdə hesabata gərək olandan 5-10% çox işiniz göstərilsin.

Nəyə görə sizin təşkilatınızın layihənin icrası üçün nəzərdə tutulan məbləği qeyd etməsi vacibdir? Çünki dövlət proqramlarından maliyyələşən fondlar bilməlidirlər ki, siz layihədəki işləri yerinə yetirməkdən başqa layihəyə maddi vəsaitlər də qoyursunuz. Bunun əsasında onlar dəyərləndirilə bilirlər ki, layihənin maliyyələşdirilməsi başa çatandan sonra iş görməyə ehtiyatınız olacaqmı və bunu idarə etmək üçün sizin təşkilatın resursları çata biləcəkmi? Bundan əlavə bu sizin layihənin tam qiymətini dəyərləndirməyə imkan verir. Sizin resursların təsəvvürü fonda imkan verir ki, o sizin layihəni qismən maliyyələşdirsin və sizinlə tərfdaş təşkilat səviyyəsində iş qura bilsin.

Konsultativ və kontrakt xidmətləri. Bura siz müqavilə yolu ilə işə götürülmüş məsləhətçilərə verilən vəsaiti daxil edirsiniz. İş günlərinin sayını və bir gün üçün təqdim olunan əmək haqqını göstərin. Nəzərə alın ki, bu maddəyə məsləhətçilərin yol və gündəlik xərcləri daxil deyil. Siz özünüz seçə bilərsiniz; nəyi bu hissəyə

Büdcəyə dair əsas məlumat: İkinci bölmənin bu hissəsində kirayə götürdüyünüz və həmişəlik istifadə üçün sizə verilmiş ofisin, istifadə etdiyiniz kommunikasiyaların xərcini yazın. Kirayə, istismar xərcləri sizin yerləşdiyiniz region üçün xarakterik olan qiymətlərə uyğun hesablanmalıdır. Bu bölmədə sığorta, təmir, telefon xərclərini də əlavə edin.

Layihə üzrə işlərinizi görmək üçün sizə lazım olan, icarəyə götürəcəyiniz, ya da alaçağınız bütün avadanlıqları bura yazın. Ofisin avadanlıqları: mebel, kompüterlər, kseroks, faks, avtomobil və s. avadanlıqlardır. Çalışın avadanlıqları layihənin icrasından irəli gələn və mümkün miqdarda istəyin. Büdcəyə şəxsi mənbələrdən əldə etdiyiniz mümkün çox avadanlığın adını daxil edin. Bu donora sizin potensial özünümaliyyələşdirmə imkanınız olduğunu nümayiş etdirəcək. Fondların elanlarını diqqətlə oxuyun və həm dəqiqləşdirin ki, "avadanlıq" deyəndə onlar nəyi nəzərdə tuturlar. Misal üçün: hərdən 500AZN yuxarı qiyməti olan və bir ildən yuxarı istismar müddəti olan əşyaları avadanlıq adlandırırlar. Ola bilər ki, fond avadanlığın alınmasını məsləhət görmür, onun istismara götürülməsini istəyir. Bu bölmədə əlavə xərclər siyahısına avadanlığın gətirilməsi, sığorta və quraşdırılmasına sərf olunan xərcləri də göstərmək lazımdır.

Adətən bu bölməyə dəftərxana ləvazimatlarını (kağız, disket, qələm, qovluqlar, sancaqlar və s.) əlavə etmək olar. əgər sizin xüsusi olaraq digər ofis ləvazimatına ehtiyacınız varsa onları qeyd edin. Misal üçün, bura kitabları, dərs cədvəllərini, kağızı və digər əşyaları, həm də poçt abunə qiymətlərini də əlavə etmək olar.

Layihənin icrası ilə bağlı bütün səfərlərə aid olan yol, məzuniyyət xərclərini də buraya aid edə bilərsiniz. Çalışın ki, burada böyük məbləğ göstərməyəsiniz. Hər bəndi xırdalıqları-na qədər göstərin ki, donorda əlavə suallar yaranmasın. Siyahıya layihəni yerinə yetirənlərin yerüstü nəqliyyat və ya təyyarə xərclərini əlavə edə bilərsiniz. Gündəlik xərclərin miqdarını hər bir konkret bölgə üçün nə qədər olduğunu müəyyənləşdirin. Ölkə daxili nəqliyyatın xərclərinin hesabatını xırdalıqlara vurmadan da vermək olar.

Büdcə üzrə digər xərclər: Yuxarıda göstərilən kateqoriyalara daxil edilməmiş və layihənin icrası üçün lazım olan nə varsa tələb edə bilərsiniz. Məsələn, konfransların, işçi seminarların xərclərini üzvlük haqlarını, materialların, elanların çap xərci bura daxil oluna bilər. Layihəniz üçün mümkün olan dolayı yardım, yəni şəxsi fandreyzinq (maliyyə axtarışı) və ya digər mənbələrdən alınan vəsaiti "mövcud məbləğ" bölməsində qeyd etməlisiniz. Bu heyət, avadanlıq və digər xərcləri büdcəyə aid edir maliyyə, könüllü və ya maddi mənbələri göstərir. Birbaşa xərclər təşkilatın normal inzibati xərclərini, məsələn, ofis xərcləri, digər maaşları, reklamı və s. özünə daxil edir. Bu xərclərin bəziləri təşkilatın tərəfindən ödənilə bilər və ona görə də sizin büdcə təklifində göstərilməlidir.

Müxtəlif cür vəziyyətlərdə layihədən alınan vəsait təşkilatın fəaliyyəti üçün imkan yaradır, bu vəsaiti büdcənizi hazırlayarkən siyahıya almalısınız.

Nəyə görə siz mövcud olan vəsaitin miqdarını qeyd etməlisiniz. Məsələlərdən biri ondan ibarətdir ki, donorlarla siz layihə üçün verilən vəsaitdən başqa mənbələrdən vəsait axtardığınızı nümayiş etdirməlisiniz. Bunun əsasında, onlar sizin fəaliyyəti həyata keçirmək üçün imkanlarınızı qiymətləndirməlidirlər və layihə maliyyələşdirmə müddəti bitəndən sonra təşkilatınız layihəni davam etdirmək imkanı əldə edir. Ondan əlavə donorlar hərdən qrant alan təşkilatlardan layihənin bir hissəsini öz gücünə həyata keçirməsini tələb edirlər.

Büdcənin İstiqamətləndirilməsi və Hesabatı: Təşkilatımız müəyyən layihələr çərçivəsində olan fəaliyyətini birləşdirərək kollektiv iş təcrübəsinin inkişafına kömək edir. Buna baxmayaraq, təşkilatınız bütün sənədləri, istifadə olunan vəsaitlərin protokollarını hər bir layihənin və ayrıca qeydiyyatını aparmaqla səliqə ilə tərtib etməlidir. Bu vərdiş təşkilatınız yaranandan qoyulmalıdır. Ona görə, düzgün hesabat prosedurları fəaliyyətinizin ilkin dövrlərindən başlamalıdır. Bu sizin büdcənin lazım olunan səviyyədən aşağı və ya yüksəkdə olması haqqında təşkilatınıza məlumatı sistemləşdirməyə və büdcəni necə hazırlamağa öyrədəcək və gələcəkdə qeyri-düzgün xərcləri müəyyən etməyə yardımçı olacaqdır.

Aşkarlıq ən mühüm məsələlərdən biridir ki, təşkilatınızdan bütün qayda-qanunlara, donorların mandatına uyğun tədbirlərin keçirilməsinə və həyata keçirilmə planına əməl etməsini tələb edir. Maliyyə hesabatları və digər fəaliyyətlər hamıya aydın olan şəkildə tərtib olunduğunu və yaxşı audit tərəfindən qiymətləndirildiyi halda təşkilatınıza donorun inamı və ümidi gücləndirir.

Təşkilatınız layihələrin icrasına başlayanda hər bir donor kiçik, lakin bitmiş büdcə tələb edir çünki, layihə maliyyələşəndən sonra təşkilat onun büdcəsinin effektiv şəkildə idarə olunmasında məsuliyyət daşıyır. Təsəvvür edin ki, layihə üçün anlaşılmaz, müəyyən suallar doğuran büdcə tələb etməklə siz özünüzün hər hansı maliyyə əməliyyatlarının aparılması zamanı problemlə üzləşəcəyinizə imkan yaratmış olarsınız. Donorun tələblərindən əlavə layihə büdcəsinin dəqiq hesabatlarının aparılması və protokollarını təmin etməsi çox vacib məsələdir. Maliyyənin düzgün idarə olunması ümumiyyətlə, təşkilatın peşəkar idarə olunmasına bir sübutdur.

Layihələrin yazılma qaydaları

1. LAYİHƏNİN ADI: Bu hissədə layihənin adı tam şəkildə yazılmalıdır.

2. PROBLEMİN QOYULUŞU: Həll etmək istədiyiniz problem haqqında

məlumat verilməli, problemin necə müəyyən edildiyi göstərilməlidir. Nə üçün bu problemin həllinin zəruri hesab edildiyi məsələsi də ətraflı izah olunmalıdır.

3. LAYİHƏNİN TƏSVİRİ: Bu hissədə layihə haqqında ətraflı və geniş məlumatlar verilərək təsvir edilməlidir.

4. LAYİHƏNİN ÜNVANLANDIĞI QRUP: Müsabiqəçi layihəni ünvanladığı qrupu necə təyin etdiyi, həmin qrupun təxmini neçə nəfərdən ibarət olduğu və harada məskunlaşdıqları haqqında ətraflı şəkildə məlumat verməlidir.

5. LAYİHƏNİN HƏYATA KEÇİRİLMƏ MÜDDƏTİ: Layihənin başlanma və bitmə tarixləri dəqiq göstərilməlidir.

6. LAYİHƏNİN MƏQSƏDİ: Layihənin dəqiq məqsədi göstərilməlidir.

7. GÖZLƏNİLƏN NƏTİCƏLƏR: Layihənin həyata keçirilməsində iştirakçıların nə əldə edəcəkləri qeyd edilməlidir.

8. FƏALİYYƏT NÖVLƏRİ: Layihənin həyata keçirilməsində görüləcək işlər, bundan başqa layihənin ünvanlandığı qrupun layihənin həyata keçirilməsində rolunun nədən ibarət olduğu göstərilməlidir.

9. İCRA PLANI: Xronoloji ardıcıllıqla cədvəldə layihənin həyata keçirilməsi üçün fəaliyyəti, onun icra vaxtı və icraçıları göstərilməlidir.

10. BÜDCƏ: Büdcəni aydın şəkildə, ayrı-ayrı bəndlərdə göstərin. Sizin təşkilat və ya başqa donorlar tərəfindən ödənilməsi nəzərdə tutulan xərcləri qeyd edin. Büdcə "Excel" formatda tərtib edilməlidir.

11. LAYİHƏNİN DAVAMLILIĞI: Layihə başa çatdıqdan sonra layihənin təsiri qeyd edilməli və layihənin davamlılığına təsir edən amillər göstərilməlidir.

12. LAYİHƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ HESABATI: Layihə başa çatdıqdan sonra onun qiymətləndirilməsinin keçirilməsi vacibdir. Müsabiqəni maliyyələşdirən sektora layihənin nəticələri haqqında ətraflı arayış, mühasibatlıq uçotu sektoruna isə maliyyə hesabatı təqdim edilməlidir.

13. TƏŞKİLATINIZ HAQQINDA MƏLUMAT: Bu hissədə indiyədək həyata keçirilmiş layihələrin (büdcə və donorlar göstərilməklə) siyahısı, tərəfdaşlar, təşkilatın üzvləri, yerli bölmələri və digər maraq doğura biləcək məlumatlar qeyd edilməlidir.

14. LAYİHƏNİN İCRAÇILARI: İcraçılar haqqında aşağıdakı məlumatlar təqdim edilməlidir:

- tərcümeyi hal, təhsili, şəxsiyyəti təsdiq edən sənədin surəti, ali təhsili varsa diplomun surəti, layihənin həyata keçirilməsində və təşkilatda onun vəzifəsi.

-

Məlumatların doğruluğuna zəmanət verən təşkilat sədrinin adı, soyadı və atasının adı

Sosial layihə, müəyyən bir sosial problemlə bağlı və ya sosial həyatın bəzi istiqamətlərini yaxşılaşdırmaq məqsədi ilə açıq şəkildə ifadə edilmiş bir fikir kimi başa düşülür. Fikirdən əlavə, o, bunun nə vaxt həyata keçiriləcəyi, harada, hansı miqyasda, layihənin əsas hədəf qrupu kim olacağı ilə bağlı suallara cavab verərək, onun həyata keçirilməsinin yollarını da təklif etməlidir. Bunun nə olduğunu başa düşməyinizə kömək edəcək, aşağıda yayımlanacaq bir sosial layihənin nümunəsi. Ayrıca, bu məsələlərə əlavə olaraq, maliyyələşdirmə məsələsini həll etmək lazımdır (onsuz edə bilərsiniz, ancaq çətin olacaq). Adətən maliyyələşmənin 2 yolu var: o, layihə iştirakçıları tərəfindən öz vəsaitləri və ya böyük maliyyə imkanları olan bir təşkilat tərəfindən maliyyələşdirildiyi zaman.

Sosial layihələrə sosial təminat sisteminin islahatı, sosial müdafiə, səhiyyə və sosial və təbii zərbələrin nəticələrinin aradan qaldırılması ilə bağlı təkliflər daxildir. Bu cür layihələrdəki məqsədlər dərhal ortaya qoyulur və yalnız fəaliyyətin səmərəliliyini qiymətləndirə bilmək üçün ara nəticələr əldə edildikdə düzəldilə bilər. Gənclər üçün sosial layihələr, onların həyata keçirilməsinin nümunələri haqqında danışsaq, ümumi kütlədə çox da fərqlənmirlər, lakin bəzi cəhətlər var (baxmayaraq ki, bu və ya digər şəkildə bütün layihələr üçün ortaq olduqlarını söyləyə bilərik).

Layihə aşağıdakı şərtlərə uyğun olmalıdır:

1. Qarşıya qoyulan fikirlərdə və həyata keçirilmə üsullarında heç bir ziddiyyət olmamalıdır.
2. Bu şərtlərdə həyata keçirilmə ehtimalı olmalıdır.
3. Hər mərhələnin inkişafı zamanı elmi metoddan istifadə edərək elmi əsasda yaradılmalıdır. Məktəblilər üçün sosial layihələr haqqında bir şey deyə bilərik, bunlardan nümunələr bu narahat uşaqları maraqlandırmağı bacarmalıdır.
4. Cəmiyyətdə yaranan sosial nizama cavab verməlidir.
5. İcra planı təsirli və məqsədə çatacaq biri olmalıdır.
6. Bu, inkişaf mərhələsində belə gəncləri maraqlandıra biləcək bir nümunə olan bir sosial-mədəni bir layihə olmalıdır.

Sosial layihələrə sosial təminat sisteminin islahatı, sosial müdafiə, səhiyyə və sosial və təbii zərbələrin nəticələrinin aradan qaldırılması ilə bağlı təkliflər daxildir.

Bu cür layihələrdəki məqsədlər dərhal ortaya qoyulur və yalnız fəaliyyətin səmərəliliyini qiymətləndirə bilmək üçün ara nəticələr əldə edildikdə düzəldilə bilər. Gənclər üçün sosial layihələr, onların həyata keçirilməsinin nümunələri haqqında danışsaq, ümumi kütlədə çox da fərqlənmirlər, lakin bəzi cəhətlər var (baxmayaraq ki, bu və ya digər şəkildə bütün layihələr üçün ortaq olduqlarını söyləyə bilərik).

İNTERNET RESURSLARI

https://www.upress.umn.edu/book-division/books/the-social-project

https://dma.gov.az/layiheler/sosial-layiheler

https://az.unansea.com/bir-sosial-layih%C9%99-nuemun%C9%99si-g%C9%99ncl%C9%99r-uecuen-sosial-layih%C9%99l%C9%99r-nuemun%C9%99l%C9%99ri/

MÜHAZİRƏ. Azərbaycanda həyata keçirilən sosial proqramlar

PLAN

1. **“2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf” Strategiyası**
2. **“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə” dövlət strategiyası**
3. **“2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə” Dövlət Proqramı**

1. “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 yanvar tarixli 998 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Strategiyanın hədəf qrupları

- gənclər - yaşı 14-dən 29-dək olan şəxslər;
- gənc ailə - yaşı 35-dən çox olmayan şəxslərin nikaha daxil olmasından yaranan ailə, habelə himayəsində azı bir uşağı olan və yaşı 35-dən çox olmayan tək valideyn.

Hal-hazırda Azərbaycan gəncliyi əsasən aşağıdakı sosial qruplardan ibarətdir:

- ümumtəhsil məktəblərinin yuxarı siniflərinin və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri;
- orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri;
- gənc alimlər;
- xaricdə təhsil alan və işləyən gənclər;
- hərbi xidmətdə olan gənclər;
- gənc sahibkar və fermerlər;
- istehsal və xidmət sahələrində çalışan gənclər;
- dövlət qulluqçuları və seçkili orqanlarda təmsil olunan gənclər;
- yaradıcı və istedadlı gənclər;
- gənc idmançılar;
- siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarında təmsil olunan gənclər;
- işsiz gənclər;
- ailəli gənclər;
- aztəminatlı ailələrdən olan gənclər;
- qaçqın və məcburi köçkün gənclər;
- sağlamlıq imkanları məhdud və əlil olan gənclər;
- -narkomaniyaya və ya QİÇS-ə düçar olmuş gənclər və s.

Strategiyanın məqsəd və vəzifələri

Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

Bunun üçün Strategiya aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

- gənclər forumlarının təşkili və keçirilməsi barədə gənclərlə məsləhətləşmələr aparmaq, forumlararası dövrdə vəziyyətin təhlili və əldə edilmiş təcrübə barədə müzakirələr təşkil etmək, illik hesabatlar hazırlamaq və maraqlı tərəflərə təqdim etmək;
- gənclər siyasəti sahəsində çalışan mütəxəssislərin bilik və bacarıq səviyyəsini yüksəltmək, onların hazırlığı və yenidənhazırlığı üçün mütəmadi təlimlər keçirmək;
- gənclərin elm, texnika, mədəniyyət, incəsənət sahəsindəki bacarıqlarını və təşəbbüskarlığını stimullaşdıran tədbirlər həyata keçirmək;
- televiziya kanallarında yeniyetmə və gənclər üçün faydalı olan maarifləndirici, elmi-populyar verilişlərin hazırlanmasına və yayımlanmasına diqqəti artırmaq;

- televiziya və radio kanallarında formal və qeyri-formal təhsil, məşğulluq, sosial məsələlərin həlli, sağlamlıq və digər mövzularda verilişlərin hazırlanmasına və yayımlanmasına nail olmaq;
- internet, jurnalistika, bloqçuluq və digər sahələrdə gənclərin bacarıqlarını artıran təlimlər təşkil etmək, müsabiqələr vasitəsilə daha istedadlı olanları üzə çıxarmaq və onların inkişafını dəstəkləmək;
- bütün kateqoriyalardan olan gənclər, o cümlədən xüsusi qayğıya ehtiyacı olanlar üçün təlimlərin təşkili vasitəsilə informasiya texnologiyaları barədə bilik səviyyəsinin artırılmasını təmin etmək;
- gənclər arasında ixtisas və peşə seçimi, əmək bazarı və məşğulluq haqqında məlumatlılıq səviyyəsini artırmaq, gənclər evlərində (mərkəzlərində) ixtisaslaşmış mütəxəssislər vasitəsilə karyera məsləhət xidmətlərini inkişaf etdirmək;
- karyera məsləhət xidmətlərinin mütəmadi yeniləşdirilən sorğu-məlumat kitabçalarının nəşrini təmin etmək, xidmətin səyyar və distant məsləhət imkanlarını genişləndirmək;
- gənclərin məşğulluğunun təmin edilməsi üçün onların peşəkarlığını artıran tədbirlər görmək, aztəminatlı gənc ailələrə şəxsi təsərrüfatlarını qurmaq, inkişaf etdirmək və ya fərdi əmək fəaliyyəti ilə məşğul olmaqla gəlirlərini artırmaları üçün davamlı dəstək vermək;
- gənc mütəxəssislərin bilik və bacarıqlarını işəgötürənlərin tələblərinə uyğunlaşdırmaq məqsədi ilə beynəlxalq standartlara cavab verən təhsil proqramları hazırlamaq və tətbiq etmək;
- gənclərin işsizlik problemlərinin həlli ilə bağlı mütəmadi olaraq sosioloji tədqiqatlar aparmaq;
- əlilliyi olan gənc mütəxəssislərin sosial müdafiəsini gücləndirmək, onların əmək fəaliyyəti üçün müvafiq şərait yaratmaq;
- regionlarda yaşayan gənclərin təhsil, məşğulluq və mədəniyyət sahəsində imkanlarını genişləndirmək;
- yeniyetmə və gənclərin iqtisadi sahədəki bilik və bacarıqlarının artırılması üçün müasir metodlar tətbiq etmək;
- elmi tədqiqat institutlarında çalışan gənc alimləri müasir, lisenziyalı, xüsusi ixtisaslaşdırılmış İKT paket proqramları ilə təchiz etmək, habelə internet vasitəsilə dünya elektron kitabxanalarına pulsuz girişi təmin etmək;
- yeniyetmələrdə erkən yaşlarında elmə maraq yaradılması üçün orta məktəblərdə "Elm" guşələri yaratmaq, intellektual interaktiv müsabiqələr keçirmək;
- dövlət və yerli özünüidarəetmə orqanlarının işində gənclərin fəal iştirakını təmin etmək;
- gənclər üçün aktual olan məsələlərin həllində gənclərin qeyri-hökumət təşkilatlarının iştirakını stimullaşdırmaq;
- gənclərin qeyri-hökumət təşkilatlarının sahələr üzrə peşəkarlığının artırılmasını və dövlət sifarişlərinin həyata keçirilməsində daha fəal iştirakını stimullaşdırmaq;
- gənclərin qeyri-hökumət təşkilatlarının elektron şəbəkəsini yaratmaq və ardıcıl inkişaf etdirmək;
- gənclərə sistemli sosial xidmət göstərən gənclər evlərinin (mərkəzlərinin) fəaliyyətini genişləndirmək;
- xarici ölkələrdə yaşayan və ya təhsil alan gənclərin fəaliyyətini əlaqələndirmək, onlar tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya yayılması istiqamətində aparılan işlərə konsultativ, təşkilati və maddi-texniki dəstək göstərmək;

- gənclərin beynəlxalq əməkdaşlığını dəstəkləmək, bu əlaqələr vasitəsilə ölkə haqqında məlumatların yayılmasına, Azərbaycanın gənc dostlarının sıralarının genişlənməsinə nail omaq;
- sağlamlıq imkanları məhdud və əlil olan, qaçqın və məcburi köçkün, xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olmuş gənclərin sosial problemlərinin həlli istiqamətində ardıcıl tədbirlər görmək;
- xüsusi qayğıya ehtiyacı olan gənclərin ehtiyaclarını ödəmək məqsədi ilə müxtəlif qurumların əməkdaşlığını və koordinasiyasını təmin etmək, bu gənclərə göstərilən xidmətlərin qiymətləndirilməsi və monitorinqi üçün standartlar müəyyənləşdirmək;
- xüsusi qayğıya ehtiyacı olan gənclərin idmanla məşğul olması üçün güzəştli şərait yaratmaq;
- aztəminatlı gənc ailələrin sosial rifahının yaxşılaşdırılması ilə əlaqədar dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən mütəmadi işlər aparılmasını təmin etmək;
- yüksək riskli qruplardan olan gənclərə sosial-psixoloji və hüquqi yardımın göstərilməsi üçün məsləhət və yönləndirmə sistemi formalaşdırmaq;
- cəzaçəkmə müəssisələrindən azad olmuş gənclərin sosial reabilitasiyası ilə bağlı kompleks tədbirlər görmək;
- müasir təbliğat və maarifləndirmə metodlarından istifadə etməklə gəncləri müxtəlif dini təriqətlərin ekstremist və ayrı-seçkilik çağırışlarından qorumaq;
- gənclərlə işin təhlili, planlaşdırılması, təşkili və qiymətləndirilməsi üzrə mütəxəssislərin hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək.

Strategiyanın icra mexanizmləri

Strategiya ilə müəyyənləşdirilmiş vəzifələrin icrası istiqamətində institusional tədbirlərin, müvafiq strukturların rolu böyükdür. Bu strukturlara mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, habelə bələdiyyələrin və digər təşkilatların nəzdindəki qurumlar daxildir. Həmin qurumlar üç funksiyanı icra etməlidir: tənzimləmə, təşkilati-sərəncamverici və nəzarət.

Strategiyanın həyata keçirilməsi üçün dövlət gənclər siyasətinin kadr potensialının təkmilləşdirilməsini nəzərdə tutan aşağıdakı tədbirlər icra ediləcəkdir:

1. dövlət gənclər siyasəti sahəsində çalışanların hazırlığı və yenidən hazırlığı sisteminin təkmilləşdirilməsi;

2. dövlət gənclər siyasətinin məlumat bazasının yaradılması, davamlı təkmilləşdirilməsi və zənginləşdirilməsi.

3. Strategiyanın icra mexanizmlərinin digər tərkib hissəsi maliyyələşdirmə ilə bağlıdır. Maliyyələşdirmə aşağıdakı mənbələrdən həyata keçirilir:

- dövlət vəsaiti (büdcə və büdcədənkənar fondlar);
- qanunvericiliklə nəzərdə tutulan digər mənbələr.

Gözlənilən nəticələr

Strategiyanın səmərəliliyini qiymətləndirmək məqsədi ilə qiymətləndirmə indikatorları sistemi və onların ölçmə mexanizmləri yaradılmalıdır. Bu indikatorlar görülən işlərlə gənclərin vəziyyəti arasında əlaqəni özündə ehtiva etməlidir. Mövcud "Azərbaycan gəncləri" statistik toplusunun təkmilləşdirilmiş formatı və keçirilən sosioloji tədqiqatlar bu sistemin əsasını təşkil edəcək.

Strategiyanın icrasının nəticəsi olaraq 2025-ci ilin sonuna qədər aşağıdakılara nail olunması gözlənilir:

- gənclər arasında təhsil səviyyəsinin və peşə təhsili alanların sayının artması;
- gənc məzunların ixtisaslarına uyğun işlə təmin edilməsi səviyyəsinin yüksəldilməsi;
- gənclər arasında işsizliyin səviyyəsinin aşağı salınması;
- gənclərin təhsil müddətində yaşayış şəraitinin yaxşılaşdırılması üçün ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagird və tələbələrinin yataqxanalarda yerlə təmin edilməsi;
- ali və orta ixtisas təhsili müəssisələri məzunlarının öz regionlarında ixtisaslarına uyğun işlə təmin edilməsi;
- gənclərin işçi qüvvəsi çatışmayan regionlara getməsini stimullaşdırmaq məqsədi ilə zəruri məişət və məşğulluq infrastrukturunun yaradılması;
- əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli gənc kadr potensialının formalaşdırılması;
- gənclərin və gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması mexanizmlərinin davamlı olaraq təkmilləşdirilməsi;
- gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi;
- gənclərin ibtidai hərbi hazırlığının səviyyəsinin artırılması, bu prosesə hərbi mütəxəssislərin cəlb edilməsi;
- gənclərin innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılması, onların praktikada tətbiqi üçün zəmin yaradılması;
- elm və texnika sahəsində çalışan gənclərin sayının artması;
- mədəniyyət və incəsənət, o cümlədən teatr, kino, dizayn və memarlıq sahəsinə gənclərin marağının artması, ölkənin regionlarında yaradıcı gənclərin çıxışlarının, sərgilərinin və ustad dərslərinin təşkil edilməsi, habelə xarici dövlətlərdə onların yaradıcılığının layiqincə təqdim və təbliğ edilməsi;
- gənc sahibkarların sayının artması;
- gənclər arasında hüquqpozmaların sayının azalması;
- gənclərin beynəlxalq əlaqələrinin, habelə Azərbaycan üçün prioritet kəsb edən ölkələrin gəncləri ilə əlaqələrinin inkişaf etdirilməsi.

2. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə” dövlət strategiyası

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə” dövlət strategiyası Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində görülmş işlər: “Təhsil haqqında” Azərbaycan Respublikası Qanunun qəbulu, müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri aparılmış, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin əhəmiyyətli dərəcədə genişlənməsi, təhsilə ayrılan dövlət xərcləri yalnız son beş ildə 1,3 dəfə artması, Azərbaycanın 169 ölkə arasında 101-ci yerdən 67-ci yerə yüksəlmiş, “orta insan inkişafı” qrupundan “yüksək insan inkişafı” qrupuna daxil olması

Strategiyanın məqsədi ölkədə sərişləli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır.

Strategiyanın reallaşdırılması təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, sərişləli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

Birinci strateji istiqamət sərişləyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini - innovativ təlim metodlarının tətbiq edilməsini, sərişləli təhsilverənin formalaşdırılmasını, təhsilverənlərin peşəkarlığının yüksəldilməsini, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafını, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını nəzərdə tutur.

Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur.

Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını - təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılmasını, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulmasını, kampusların yaradılmasını nəzərdə tutur.

Beşinci strateji istiqamət Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulmasıdır (məsələn, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçid, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsi, Təhsilin İnkişafı Fondunun yaradılması)

Təhsil sisteminin başlıca vəzifələri aşağıdakılardır:

– ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;

– sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

Strateji istiqamətlər

1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.

2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması.

3. Nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması.

4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.

5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.

Strateji hədəflər və tədbirlər

1. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması.

a) Uşaqların erkən yaş dövründə inkişafının səmərəli təhsil modelinə əsaslanan standart və kurikulumlarının hazırlanması:

- məktəbəqədər yaşlı uşaqların fiziki və əqli inkişafını, sosiallaşmasını təmin edən, yaradıcılıq qabiliyyətlərini üzə çıxaran, onlarda həyati bilik və bacarıqları, davranış qaydalarını aşılayan təhsil standartlarının və yeni kurikulumların hazırlanması;
- uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədi ilə valideynlərin sistemli şəkildə pedaqoji-psixoloji maarifləndirilməsi üçün "Səriştəli valideynlər" proqramının hazırlanması;

Səriştə əsaslı ümumi təhsil standartları və kurikulumlarının hazırlanması:

- 12 illik ümumi təhsilə keçidin təmin olunması üçün mövcud təhsil standart və kurikulumlarının yenilənməsi, tam orta təhsil pilləsində təlimin istiqamətlər üzrə bölünməsi;
- kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması;
- istedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması;
- xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması;
- cəmiyyətin tələblərinə uyğun səriştə əsaslı ilk peşə-ixtisas və orta ixtisas təhsili standartları və kurikulumlarının hazırlanması;

ali təhsil müəssisələrinin təhsil–tədqiqat–innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabətqabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi:

- cəmiyyətin və iqtisadiyyatın tələbatlarına uyğun olaraq hər bir ixtisas üzrə müasir standartların hazırlanması;
- qabaqcıl beynəlxalq təcrübə əsasında pedaqoji, mühəndis-pedaqoji və elmi-pedaqoji kadr hazırlığı üzrə müasir kurikulumların hazırlanması;

- ali təhsil müəssisələrinə təhsilin məzmununun tətbiqi müstəqilliyinin verilməsi;

- ali təhsilin səviyyələri arasında əlaqələrin və varisliyin gücləndirilməsi, doktorantura səviyyəsi üçün elmi tədqiqatlar sahəsində yüksək hazırlığı və elmi-pedaqoji fəaliyyət üzrə mükəmməl sərişləyə yiyələnməni təmin edən müasir standartların hazırlanması.

2. Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması.

b) Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması:

- təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi;

- təhsilverənlərin əlavə təhsili üzrə strukturların yaradılmasının stimullaşdırılması;

- müəllimlərin təhsil müəssisəsi səviyyəsində, tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə özünü doğrultmuş innovativ modellərin tətbiqi;

- pedaqoji heyət üçün yeni modul–kredit və rəqabətəsaslı təlimlər sisteminin yaradılması;

- təfəkkürün və şəxsiyyətin inkişafına yönəlmiş, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim, qiymətləndirmə metodologiyası və resurslarının inkişafı:

- yeni kurikulumlara və informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyalarına uyğun metodiki vəsaitlərin, didaktik materialların və təlim vasitələrinin hazırlanmasını stimullaşdıran yeni mexanizmlərin yaradılması;

- təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

- müəllim peşəsinin nüfuzunun artırılması üzrə dövlət siyasətinin inkişafı:

- sərişdə və nəticə əsaslı diferensiallaşdırılmış, əmək bazarında rəqabətqabiliyyətli əmək haqqı sisteminin yaradılması;

- müəllimin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması;

- müəllim hazırlığı sistemində internatura modelinin tətbiq edilməsi;

- şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından istedadın erkən yaşdan aşkar olunması, inkişafı və dəstəklənməsi üzrə sistemin yaradılması:

- istedadın aşkar edilməsi üzrə qabaqcıl beynəlxalq təcrübəyə uyğun diaqnostik metodikaların, psixometrik vasitələrin hazırlanması və bütün təhsil müəssisələrində tətbiqinin təmin edilməsi;

- hər bir xüsusi istedadlı təhsilalan üçün fərdi təhsil və inkişaf proqramlarının müəyyənləşdirilməsi, onların fərdi plan əsasında tədris prosesi və kurikulumdankənar məşğuliyyətinin təşkili mexanizmlərinin yaradılması;

- xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması:

- xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədi ilə optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi;

- məktəbəqədər və ümumi təhsil müəssisələri təhsilverənlərinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi.

3. Təhsilin nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət–ictimai xarakterli və dövlət–biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması.

c) Təhsil sisteminin tənzimlənməsinin və dövlət təhsil sektorunun idarə edilməsinin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurulması:

- tənzimləmə və idarəetmə funksiyalarını həyata keçirən dövlət qurumlarının səlahiyyət və məsuliyyət dairəsinin beynəlxalq təcrübəyə uyğun yenidən müəyyənləşdirilməsi;

• təhsil pillələri və səviyyələrinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması:

- məktəbə hazırlıq təhsilinin (1 il) icbariliyinin təmin olunması;
- erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılması;
- 10 illik icbari ümumi orta təhsil və 2 illik tam orta təhsil modelinə mərhələli şəkildə keçidi təmin etməklə, 12 illik ümumi təhsil sisteminin yaradılması;
- tam orta təhsil səviyyəsində təhsil müəssisələrinin müxtəlif istiqamətlər üzrə bölünməsi;
- təhsil müəssisələrinin infrastrukturuna dair norma, standart və qaydaların təkmilləşdirilməsi;
- beynəlxalq təcrübə əsasında təhsil müəssisələrinin akkreditasiyası sisteminin yaradılması;
- təhsil sahəsində dövlət-biznes partnyorluğu sisteminin yaradılması;
- təhsil sistemində dövlət sifarişinin formalaşdırılmasına yenidən baxılması, ölkənin siyasi, iqtisadi və sosial inkişafının real tələbatına əsaslanaraq prioritet sayılan sahələr üzrə kadr hazırlığının təmin edilməsi;
- ali və orta ixtisas təhsili müəssisələrinə qəbul və yerləşdirmə mexanizminin təkmilləşdirilməsi, dövlət və özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul planının ləğv edilməsi və dövlət sifarişinin yalnız ixtisaslar üzrə müəyyənləşdirilməsi;

• təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması:

- təhsil müəssisələrinə idarəetmə, akademik, maliyyə və təşkilati muxtariyyət verilməsi;
- təhsil müəssisələrində strateji idarəetmənin tətbiqi mexanizmlərinin yaradılması;
- maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin edilməklə təhsil müəssisələrinin dövlət-ictimai xarakterdə (Valideyn–Müəllim Assosiasiyası, İdarəedici Şura, Qəyyumlar Şurası və s.) idarə olunmasının təmin edilməsi;

• təhsilin keyfiyyətinin təminatı üzrə yeni sistemin yaradılması:

- qabaqcıl beynəlxalq təcrübə əsasında təhsilin pillələri və səviyyələri üzrə keyfiyyət standartları və göstəricilərinin hazırlanması;
- ömür boyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin yaradılması və tətbiqi;
- beynəlxalq təhsil proqramlarının tanınması və təhsil müəssisələrində dövlət təhsil proqramları ilə yanaşı ödənişli əsaslarla tətbiqi;
- təhsil müəssisələrinin reytinq sisteminin yaradılması;
- qabaqcıl beynəlxalq təcrübə əsasında məktəbəqədər və ümumi təhsil üzrə pedaqoji və idarəetmə heyətinin müstəqil sertifikatlaşdırma (lisenziyalaşdırma) sisteminin yaradılması;
- keyfiyyətin yaxşılaşdırılması üçün stimullaşdırma mexanizmlərinin, təhsil sistemində innovativ fəaliyyəti stimullaşdıran qrant sisteminin yaradılması və tətbiqi;
- təhsil proqramları, tədris resursları, təlim metodikaları, təhsilverənlər, təhsil müəssisələri arasında sağlam rəqabətin stimullaşdırılması, rəqabət elementlərinin müəyyənləşdirilməsi və tətbiq edilməsi;

• təhsilin idarə olunmasının məlumat sistemləri və yeni hesabatvermə modelinin yaradılması:

- bütün təhsil pillələri üzrə Təhsilin İdarə olunmasının Məlumat Sistemləri və "Tələbə–məzun" sistemi əsasında hesabatvermə, təhlil və proqnozlaşdırma sisteminin yaradılması və mütəmadi yenilənməsinin təmin edilməsi;

- təhsil müəssisələrində məlumat bazalarının, məzun–koordinasiya–informasiya sistemlərinin yaradılması, onların mütəmadi yeniləndirilməsi və idarəetmə prosesində istifadəsinin təmin edilməsi;

- əmək bazarının mütəmadi öyrənilməsi sisteminin yaradılması;

• qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq, təhsil pillələrinin bütün səviyyələrini əhatə edən yeni qiymətləndirmə mexanizmlərinin hazırlanması:

- təhsil müəssisələrində keyfiyyətin monitorinqi (xarici və daxili) və qiymətləndirmə mexanizmlərinin yaradılması;

- ümumi təhsilin səviyyələri nəzərə alınmaqla, şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi üzrə sistemin təkmilləşdirilməsi;

- ümumi təhsil müəssisələri şagirdlərinin biliyin qiymətləndirilməsi üzrə beynəlxalq proqramlarda iştirakının təmin olunması.

4. Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması.

- hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklərlə yüklənmiş kompyuter-planşetlə təmin olunması;

- distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması;

• müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin yaradılması;

• məktəbəqədər təhsil müəssisələrinin yaradılması, onların fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin hazırlanması;

• kampusların yaradılmasının təşviqi;

• ömür boyu təhsilə artan tələbatın ödənilməsi üçün kitabxana fəaliyyətinin modernləşdirilməsi, rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi;

• təhsillə bağlı media və internet resurslarının inkişafının təmin edilməsi.

5. Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması.

• Təhsilə adekvat həcmdə maliyyə resurslarının cəlb edilməsi, təhsilin maliyyələşdirilməsi xərclərinin Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə 5–6 faizə çatdırılması, nəticəyönlü büdcə planlaşdırılması və müxtəlif mənbəli maliyyələşdirmə mexanizmlərinin yaradılması;

• təhsil müəssisələrini bir təhsilalana düşən xərc əsasında maliyyələşdirmə mexanizminə keçid;

• dövlət və bələdiyyə təhsil müəssisələrində özünümaliyyələşdirmə prinsiplərinin təşviqi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsi;

• büdcədənkənar vəsaitlər hesabına formalaşdırılan Təhsilin İnkişafı Fondunun yaradılması;

• təhsil tədqiqatlarının yeni maliyyələşmə mexanizminin tətbiqi;

• mülkiyyət formasından asılı olmayaraq müvafiq təhsil qurumları cəlb edilməklə təhsilverənlərin əlavə təhsilinin dövlət sifarişi əsasında adambaşına maliyyələşdirilməsi;

- təhsil müəssisələrinin keyfiyyət göstəricilərinə əsaslanan investisiya xərcləri sisteminin yaradılması;
- ali təhsil müəssisələrində dövlət büdcəsi vəsaitindən istifadə olunmayaraq məqsədli kapital fondlarının yaradılmasının stimullaşdırılması;
- aztəminatlı ailələrdən olan uşaq və gənclər üçün bərabər təhsil imkanlarının yaradılması məqsədi ilə maddi dəstək sisteminin yaradılması;
- müəllimlərin maddi motivasiyasının yaxşılaşdırılması, onların illik əmək haqqının adambaşına düşən Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə, sərişdə və nəticə əsasında diferensiallaşdırmaqla 1,8–2 dəfəyədək artırılması;
- tam orta təhsildə bir şagirdə düşən illik xərclərin adambaşına düşən Ümumi Daxili Məhsula nisbətinin mərhələlərlə 2 dəfəyədək artırılması;
- müasir, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil infrastrukturunun, o cümlədən elektron təhsilin yaradılmasına əlavə vəsaitlərin ayrılması;
- təhsil şəbəkəsində rasionallaşdırma tədbirləri həyata keçirməklə, regionlar arasında təhsilin keyfiyyətini bərabərləşdirmək üçün ucqar regionlarda yerləşən təhsil müəssisələri üçün əlavə maliyyələşmənin təmin olunması;
- təhsilə çıxış imkanlarını yaxşılaşdırmaq üçün maliyyə mexanizmlərinin, o cümlədən tələbə kreditləri sisteminin genişləndirilməsi;
- məktəbəqədər və ümumi təhsil müəssisələrində uşaqlara pulsuz əsasda müvafiq xidmətlərin (dərs və ya təlim vəsaitləri və s.) göstərilməsi.

3. “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə” Dövlət Proqramı

“2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə” Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli sərəncamı ilə təsdiq edilmişdi

İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir.

Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi;
- təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması;

- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.

Gözlənilən nəticələr

- təhsilin bütün pillələri üzrə təhsil müəssisələrinin infrastrukturunun sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması təmin ediləcəkdir;

- informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslər üçün informasiya əldə etmək imkanları genişləndiriləcəkdir;

- məktəbəqədər, ümumi və ilk peşə-ixtisas təhsili üzrə təhsil proqramlarında sağlamlıq imkanları məhdud şəxsləri təhsildən istifadə imkanları ilə digər şəxslərlə bərabər səviyyədə təmin edən dəyişikliklər ediləcəkdir;

- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazası yaradılacaqdır;

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması imkanlarının qiymətləndirilməsində yeni qaydalar tətbiq olunacaqdır;

- sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları barədə əhalinin məlumatlılıq səviyyəsi artacaqdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər

1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması üçün inkişaf xüsusiyyətlərinin qiymətləndirilməsi meyarlarının, vasitələrin və metodların hazırlanması

- təhsil müəssisələrində inklüziv təhsilin tətbiqi məqsədi ilə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda, təhsil müəssisələrinin nümunəvi nizamnamələrində, ştatlarında dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanması

- Psixoloji-tibbi-pedaqoji komissiyanın yeni əsasnaməsinin hazırlanması

- bütün təhsil pillələri və əlavə təhsil üzrə standartlarda müvafiq dəyişikliklər edilməsi

2. İnklüziv təhsilin təşkili ilə bağlı maddi-texniki bazanın möhkəmləndirilməsi

- sağlamlıq imkanları məhdud şəxslər üçün təhsil müəssisələrində onların maneəsiz hərəkətini təmin etmək üçün pandusların, xüsusi liftlərin quraşdırılması, təhsil müəssisələrinin məlumatın vizual, səs və daktil formada alınmasını təmin edən vasitələrlə, nəqliyyat vasitələri, reabilitasiya avadanlıqları ilə və digər yardımçı vəsait və texnologiyalarla, didaktik materiallarla təchiz edilməsi

- dövlət büdcəsində nəzərdə tutulmuş vəsait dairəsində sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmış öyrədici materialların, valideynlər və müəllimlər üçün metodiki vəsaitlərin hazırlanması və nəşr edilməsi

- inklüziv təhsildə beynəlxalq təcrübədə istifadə olunan öyrədici elektron proqramların tətbiq edilməsi

3. İnklüziv təhsilin təşkil edilməsi ilə bağlı kadr hazırlığı və təşkilati tədbirlər

- pedaqoji kadrların hazırlanması və əlavə təhsili üzrə tədris proqramlarına xüsusi təhsil üzrə yeni modulların daxil edilməsi

- təhsil müəssisələrində təlim prosesinin inklüziv təhsilin tələblərinə uyğun olaraq qurulması

- sağlamlıq imkanları məhdud şəxslərin peşə və əmək vərdişlərinə yiyələnməsi üçün müxtəlif peşələr üzrə xüsusi məktəblərdə, inteqrasiyalı və xüsusi internat məktəblərində, ilk peşə-ixtisas təhsili müəssisələrində tədris emalatxanalarının yaradılması

- ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) məqsədi ilə keçirilən buraxılış və monitorinq imtahanlarında, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarında sağlamlıq imkanları məhdud şəxslərin iştirakının təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi

4. Monitorinqin aparılması ilə bağlı tədbirlər

- təhsil müəssisələrində inklüziv təhsilin keyfiyyət meyarlarının və monitorinq mexanizminin hazırlanması və tətbiq edilməsi

- inklüziv təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması

5.Maarifləndirmə

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması ilə bağlı əhali arasında məlumatlandırma işinin təşkil edilməsi

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyası ilə bağlı sosial çarxların hazırlanması, kütləvi informasiya vasitələrində nümayişinin təşkil edilməsi

İNTERNET RESURSLARI

https://president.az/az/articles/view/7022

https://president.az/az/articles/view/31697

http://www.e-qanun.az/framework/27839

Mühazirə. “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı

PLAN

1. **Dövlət proqramının vəzifələri**
2. **Dövlət Proqramının həyata keçirilməsinin maliyyə mənbələri**
3. **Dövlət Proqramının icrasından gözlənilən nəticələr**

“Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli sərəncamı ilə təsdiq edilmişdir**.**

Qloballaşma dövründə milli maraqlara və milli dəyərlərə əsaslanan, beynəlxalq təcrübəni nəzərə alan Azərbaycan dövlətinin gənclər siyasəti gəncləri ölkədə gedən proseslərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edir. Gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorların, texnoparkların yaradılması onların maddi durumunun, rifah halının daha da yaxşılaşdırılmasına imkan vermişdir.

Dövlət Proqramının məqsədi Azərbaycan Respublikasında gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Dövlət Proqramı aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur:

- gənclərin hərtərəfli inkişafı üçün şəraitin formalaşdırılması;
- gənclərin azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi;
- gənclər arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi;
- gənclərin sağlamlığının qorunması və möhkəmləndirilməsi;
- sağlam həyat tərzinin təbliğ edilməsi və narkomaniya, toksikomaniya, alkoqolizm və digər neqativ halların profilaktikası;
- gənc alim və tədqiqatçıların fəaliyyətinin dəstəklənməsi və gənclərin elmə həvəsləndirilməsi;
- ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin mütərəqqi ideya və təşəbbüslərinin dəstəklənməsi;
- gənclərin bilik və bacarıqlarının inkişafı, sahibkarlıq və məşğulluq imkanlarının artırılması;
- gənclər arasında ixtisas və peşə seçimi, əmək bazarı və məşğulluq haqqında məlumatlılıq səviyyəsinin artırılması;
- gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi;
- gənclər siyasəti sahəsində çalışan mütəxəssislərin bilik və bacarıq səviyyəsinin yüksəldilməsi, onların hazırlığı və yenidənhazırlığı üçün mütəmadi tədbirlərin həyata keçirilməsi;
- gənclərin və gənclər təşkilatlarının ictimai həyatda təşəbbüskarlığının və iştirakının stimullaşdırılması;
- ölkədə gənclərin könüllülük hərəkatının stimullaşdırılması və yerlərdə intensivləşdirilməsi;
- gənclərin beynəlxalq mübadilə və mədəniyyətlərarası dialoqda iştirakının dəstəklənməsi;
- xüsusi qayğıya ehtiyacı olan gənclərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi;

- gənclərin insan hüquqları, gender bərabərliyi haqqında, eyni zamanda, insan alverinə, zorakılığa qarşı mübarizə ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması;
- gənclərin ekologiya və ətraf mühitlə bağlı biliklərinin artırılması;
- gənclər arasında ailə dəyərləri haqqında və erkən nikahlara qarşı profilaktik maarifləndirmə işinin gücləndirilməsi;
- gənclərin informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəsinin təşviq edilməsi;
- istedadlı və yaradıcı gənclərlə işin daha effektiv və ünvanlı qurulması;
- gənclərə xidmət göstərən dövlət müəssisələrinin (Gənclər evləri və mərkəzlərinin) fəaliyyətinin inkişaf etdirilməsi;
- yeniyetmə və gənclər üçün faydalı olan maarifləndirici, elmi-kütləvi, televiziya və radio verilişlərinin hazırlanması və yayımlanması;
- gənclərin asudə vaxtının səmərəli təşkili;
- gənclərin həyat və düşüncə tərzinin öyrənilməsi və müvafiq təhlillərin aparılması.

Dövlət Proqramının həyata keçirilməsinin maliyyə mənbələri

- dövlət büdcəsi;
- büdcədənkənar dövlət fondları;
- kreditlər və qrantlar;
- qanunvericiliyə zidd olmayan digər mənbələr.

Dövlət Proqramının icrasından gözlənilən nəticələr

Dövlət Proqramının icrasının nəticəsi olaraq 2021-ci ilin sonuna qədər aşağıdakılara nail olunması gözlənilir:

- ✓ gənclər siyasətinin səmərəliliyinin artırılması;
- ✓ gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi;
- ✓ gənclərin fiziki və psixi sağlamlığının möhkəmləndirilməsi;
- ✓ gənclərin iqtisadi fəallığının artırılması və sahibkarlığın inkişaf etdirilməsi;
- ✓ gənclərin intellektual inkişafının və elmi fəaliyyətinin stimullaşdırılması;
- ✓ qeyri-formal təhsil vasitəsilə gənclərin inkişaf etdirilməsi;
- ✓ mədəniyyət və incəsənət sahələrində istedadlı gənclərin üzə çıxarılması və dəstəklənməsi;
- ✓ regionlarda yaşayan gənclərin həyatın bütün sahələrində iştirak imkanlarının artırılması;
- ✓ gənclərin ictimai həyatda daha fəal iştirakının stimullaşdırılması;
- ✓ gənclərin hüquqi biliklərinin artırılması;
- ✓ informasiya texnologiyaları sahəsində gənclərin bilik və bacarıqlarının artırılması;
- ✓ gənclərin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi.

Dövlət Proqramının həyata keçirilməsi üzrə nəzərdə tutulan tədbirlər

- Gənclərin sağlam həyat tərzi (narkomaniya, tütün, alkoqol və digər psixoaktiv maddələrin mənfi təsiri, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikası, sağlam qidalanma) ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi, biliklərinin artırılması və davranışlarının təkmilləşdirilməsi
- Gənclər arasında fiziki aktivlik səviyyəsinin artırılması, onların, eləcə də valideynlərin, müəllimlərin və gənclərlə işləyən digər şəxslərin sağlam həyat tərzi və fiziki aktivlik sahəsində maarifləndirilməsi, bununla bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi
- Gənclərin reproduktiv sağlamlıq və ailə planlaşdırılmasına dair biliklərinin artırılması və davranışının təkmilləşdirilməsi
- Gənclər arasında könüllü qan donorluğunun inkişafına dair maarifləndirmə tədbirləri və kampaniyalarının həyata keçirilməsi
- Gənclərin psixi sağlamlıqla bağlı biliklərinin, mövqelərinin və davranışlarının təkmilləşdirilməsi
- Gənclərə psixo-sosial xidmətin, "Qaynar xətt" layihəsinin əhatə dairəsinin genişləndirilməsi
- Risk qrupunda olan gənclərə sosial-psixoloji və hüquqi yardımın göstərilməsi üçün məsləhət və yönləndirmə sisteminin formalaşdırılması
- Sosial müdafiəyə ehtiyacı olan gənclərə göstərilən xidmətlərin qiymətləndirilməsi və monitorinqi üçün standartların müəyyənləşdirilməsi
- Gənclər üçün peşə məsləhətlərinə və karyera inkişafına dair metodiki vəsaitlərin hazırlanması və məsləhət xidmətlərinin təşkili
- Sosial müdafiəyə ehtiyacı olan gənclərin səhiyyə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi
- Sosial müdafiəyə ehtiyacı olan gənclərin ölkənin mədəni və idman həyatında iştirakının təmin edilməsi
- Sosial müdafiəyə ehtiyacı olan gənclərin sosial müdafiəsinin və sosial xidmətlərdən istifadə imkanlarının artırılması
- Sosial müdafiəyə ehtiyacı olan gənclər üçün peşə reabilitasiyası və abilitasiyasının təmin edilməsi
- Dövlət uşaq müəssisələrinin məzunları və əlilliyi olan gənclər üçün məşğulluq imkanlarının genişləndirilməsi
- Sosial müdafiəyə ehtiyacı olan gənclərin beynəlxalq tədbirlərdə iştirakının dəstəklənməsi
- Gənclər üçün əmək yarmarkalarının keçirilməsi
- Gənclərin qeyri-formal təhsil almaq imkanlarının genişləndirilməsi
- Gənclərin sahibkarlıq və məşğulluq imkanlarının artırılması və sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlərin və maarifləndirici tədbirlərin keçirilməsi

- Gənclər arasında biznes fəaliyyətinə dair intellektual yarış və müsabiqələrin keçirilməsi
- Gənclərin müəssisə və təşkilatlarda onlar üçün müəyyən edilmiş kvota əsasında işə düzəlmələrinə dövlət nəzarətinin gücləndirilməsi
- Gənclərin məşğulluğunun dəstəklənməsi məqsədi ilə aidiyyəti dövlət orqanları, qeyri-hökumət və beynəlxalq təşkilatların iştirakı ilə birgə layihələrin həyata keçirilməsi və onların səmərəliliyinin qiymətləndirilməsi
- İnsanların həyat tərzinin yaxşılaşdırılmasına yönəlmiş yeni texnologiyaların, mobil aplikasiyaların və digər proqramların Azərbaycanda tətbiqi ilə bağlı gənclər arasında startap layihələri üzrə qrant müsabiqəsinin keçirilməsi
- Gənclərin dövlət qulluğuna cəlb edilməsinin təşviq edilməsi
- Gənclərin peşəyönümü işinin gücləndirilməsi, onların əmək bazarında daha çox tələb olunan peşə və ixtisaslar haqqında məlumatlandırılması işinin genişləndirilməsi
- İstedadlı və Yaradıcı Gənclərin III Respublika Toplantısının keçirilməsi
- Gənc istedadların beynəlxalq səviyyəli festival, müsabiqə, yarış və yay məktəblərində iştirakının dəstəklənməsi
- Mədəniyyət və incəsənət (rəssamlıq, musiqi, rəqs, kino, ədəbiyyat, foto, memarlıq, teatr və s.) sahəsində gənc istedadlar üçün festival, müsabiqə, yay məktəbi, ustad dərsləri, yaradıcılıq axşamları, konsert proqramları və digər tədbirlərin təşkili
- Teatr tamaşası, bədii, sənədli və animasiya filmlərinin hazırlanması üçün yaradıcı və istedadlı gənclərə dövlət sifarişlərinin verilməsi
- Gənc rejissor, rəssam, heykəltəraş və fotoqrafların əsərlərindən ibarət yerli və beynəlxalq sərgi və kino nümayişlərinin təşkili
- Beynəlxalq və respublika səviyyəli olimpiada, festival, müsabiqə və yarışlarda xüsusi nailiyyətlər əldə etmiş gənclərin 2 fevral Gənclər Günü münasibəti ilə mükafatlandırılması
- Gənclərin asudə vaxtının səmərəli təşkili üçün intellektual və kompüter oyunları üzrə yerli və beynəlxalq çempionatların keçirilməsi
- Şən və Hazırcavablar Klubu"nun Azərbaycan Liqası çərçivəsində oyunların keçirilməsi
- Yeniyetmə və gənclərin iştirakı ilə istirahət düşərgələrinin təşkili
- İstedadlı və yaradıcı gənclərin nailiyyətlərinin ölkədə və onun hüdudlarından kənarda təbliğ edilməsi
- Ali və orta ixtisas təhsili müəssisələrində tələbə-gənclər təşkilatlarının layihə və proqramlarının dəstəklənməsi
- Tələbələrin elmi-tədqiqat işlərinə həvəsləndirilməsi və yaxından cəlb edilməsi
- Azərbaycan Tələbələrinin II Qurultayının keçirilməsi
- Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında festivalların və müsabiqələrin keçirilməsi

- Gənclərin təhsil müəssisələrinin idarəçiliyində yaxından iştirakına şərait yaradılması, özünüidarəetmə orqanlarının inkişafına dəstəyin artırılması
- Yay tətili müddətində ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin iştirakı ilə arxeoloji və digər ixtisas qrupları üzrə təcrübə düşərgələrinin təşkil edilməsi
- Gənclərin insan hüquqları və gender bərabərliyi haqqında məlumatlılıq səviyyəsinin artırılması
- Gənclər arasında insan alveri və zorakılıq haqqında maarifləndirmə işinin gücləndirilməsi
- Gənclər arasında erkən nikah hallarına qarşı mübarizə işinin gücləndirilməsi
- Gənclərin fövqəladə hallarda davranışı haqqında məlumatlılıq səviyyəsinin artırılması
- Gənclər arasında ətraf mühit və mənfi ekoloji tendensiyaların sağlamlığa zərərli təsiri ilə bağlı maarifləndirmə işlərinin aparılması
- Gənclər və yeniyetmələr arasında yol-nəqliyyat təhlükəsizliyi mövzuları üzrə maarifləndirmə tədbirləri və kampaniyaların həyata keçirilməsi
- Gənc ailələrə psixoloji dəstəyin verilməsi və ailə dəyərləri haqqında maarifləndirmə işinin gücləndirilməsi
- Gənclər arasında anti-sosial davranışın qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin görülməsi
- Azərbaycan Gənclərinin VIII və IX Forumlarının keçirilməsi
- Müsabiqə yolu ilə ölkənin "Gənclər Paytaxtı"nın müəyyən edilməsi
- Gənclər arasında seçki prosesinin və seçkilərdə (referendumda) iştirakın təbliği, ilk dəfə səs verən gənc seçicilər arasında maarifləndirmə işinin təşkili
- Gənclər təşkilatlarının fəaliyyətinin təşviq edilməsi, onların həyata keçirdikləri layihə və tədbirlər haqqında cəmiyyətin məlumatlandırılması və gənclərin ictimai fəaliyyətə cəlb olunmalarının stimullaşdırılması məqsədi ilə sərgilərin təşkil edilməsi
- Gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi
- Gənclər siyasətinin əsas istiqamətləri üzrə gənclər təşkilatları layihələrinin maliyyələşdirilməsi
- Gənclər arasında natiqlik mədəniyyətinin inkişaf etdirilməsi vasitəsilə gənclərin qərarvermə proseslərində, ictimai əhəmiyyət kəsb edən məsələlərdə və dövlət gənclər siyasətinin həyata keçirilməsində daha geniş iştiraklarının təmin edilməsi
- Kəndlərdə yaşayan gənclərin ictimai həyatda daha fəal iştirakının təşviq edilməsi
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində gənclər siyasəti sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi
- Beynəlxalq və regional təşkilatların gənclər proqramları ilə əməkdaşlığın genişləndirilməsi
- İdarəetmə orqanlarında çalışan, seçkili orqanlarda təmsil olunan, eyni zamanda, müxtəlif sahələrdə ictimai fəallıqla seçilən gənclərin mübadilə proqramlarının həyata keçirilməsi

- Xarici ölkələrin gəncləri arasında Azərbaycanla bağlı biliklərin artırılması və tədqiqatların aparılması üçün layihələrin həyata keçirilməsi
- İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması üzrə gənclərin bilik və bacarıqlarının artırılması
- Azərbaycan tarix və mədəniyyətini əks etdirən gənclərin inkişafına təsir göstərən kompüter oyunları və mobil tətbiqi proqramların hazırlanması
- İnternet jurnalistikası, bloqçuluq sahələrində və sosial şəbəkələrdən gənclərin səmərəli
- istifadəsi üçün bacarıqlarının inkişaf etdirilməsi
- Gənclərin bilik və bacarıqlarını inkişaf etdirən rəqəmsal məhsulların yaradılması
- Gənclər evlərinin informasiya texnologiyaları infrastrukturunun və texniki bazasının gücləndirilməsi
- İnternet televiziyası məkanında gənclər kanalının yaradılması
- Gənclik auditoriyası üçün maraq kəsb edən və müasir dövrün tələblərinə cavab verən yeni televiziya və radio layihələrinin hazırlanması
- Region gənclərinin informasiya-kommunikasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlərin görülməsi
- Gənclərin intellektual inkişafa və elmi fəaliyyətə həvəsləndirilməsinə yönəlmiş layihələrin dəstəklənməsi
- Gənc alim və mütəxəssislərin iştirak etdiyi layihələrə qrantların verilməsi üzrə müsabiqələrin təşkili
- Gənc alimlərin təcrübə mübadiləsi üçün şəraitin yaradılması, yerli və beynəlxalq elmi-praktiki konfrans, forum, festival, seminar və digər tədbirlərin keçirilməsi
- Gənc istedadların üzə çıxarılması və dəstəklənməsi məqsədi ilə layihələrin həyata keçirilməsi
- İstedadlı şagird və tələbələrin, gənc alimlərin ölkə üçün prioritet olan beynəlxalq olimpiada, konfrans, forum, simpozium, seminar və məşğələlərdə iştirakının dəstəklənməsi
- Gənclərin elmi-texniki yaradıcılıq fəaliyyətinə həvəsləndirilməsi istiqamətində layihələrin həyata keçirilməsi
- Gənclərin sosial təşəbbüskarlığını artırmaq və innovativ təfəkkürünü inkişaf etdirmək məqsədi ilə layihələrin dəstəklənməsi
- Gənclərin elm, texnika və innovasiyalar sahəsinə marağını artırmaq məqsədi ilə televiziya proqramlarının hazırlanması
- Ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçiddə gənclərin rolunu artırmaq məqsədi ilə müvafiq tədbirlərin keçirilməsi
- Normativ hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili və onların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması
- "Gənclər siyasəti sahəsinin Fəxri İşçisi" adının təsis edilməsi

- Dövlət orqanlarında işləyən gənclərin peşə bacarıqlarının təkmilləşdirilməsi
- Gənclər təşkilatlarının fəaliyyətinin qiymətləndirilmə mexanizminin təkmilləşdirilməsi
- Gənclərlə iş sahəsində təlimçilərin hazırlanması mexanizminin təkmilləşdirilməsi və bu istiqamətdə mövcud olan beynəlxalq təcrübənin tətbiq edilməsi
- Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatına yeni ixtisaslaşma kimi "Gənclərlə iş" ixtisasının əlavə
- edilməsinə dair təkliflərin hazırlanması
- Gənclərlə iş sahəsində çalışan mütəxəssis və əməkdaşların biliklərinin, bacarıqlarının və peşəkarlıq səviyyəsinin artırılması
- Gənclərə xidmət göstərən dövlət müəssisələrinin (Gənclər evləri və mərkəzləri) fəaliyyətinin inkişaf etdirilməsi
- Gənclər siyasətinin həyata keçirilməsinə dair illik hesabatların hazırlanması
- Gənclərin vəziyyətinin və onların inkişaf dinamikasının öyrənilməsi üçün elmi araşdırmaların və tədqiqatların aparılması
- Gənclərin inkişafına yönəlmiş proqram və imkanlar haqqında ictimaiyyətin məlumatlandırılması

İNTRNET RESURSLARI

http://www.e-qanun.az/framework/36474

https://president.az/az/articles/view/25237